RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 264 (9719) 30 noyabr 2024-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Qarabağ və Şərqi Zəngəzurun bərpası gələn il də prioritet olacaq



### Bu ərazilərin bərpasına ayrılacaq ümumi vəsaitin həcmi 23 milyard manata çatacaq

İşğaldan azad edilən ərazilərə qayıdışı milli ideya kimi müəyyənləşdirən Prezident İlham Əliyev hələ zəfərimizin ikinci ildönümündə mədəniyyət paytaxtımız Şuşada təşkil olunan tədbirdə çıxışı zamanı vurğulamışdı ki, dünya təcrübəsində hələ belə bir nümunə yoxdur ki, ağır müharibədən çıxan bir ölkənin iqtisadiyyatı heç bir böhran yaşamasın, büdcəsi nəinki müharibədən əvvəlki səviyyədə, hətta ondan da yüksək olsun və davamlı olaraq artsın.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov 2025-ci ilin büdcə müzakirələri zamanı məlumat verib ki, Dövlət Neft Fondunun hətta transferləri nəzərə alınmasa belə, büdcə gəlirləri artım dinamikasına malikdir. Belə ki, transfersiz büdcə gəlirləri 2023-cü ildə 23,5 milyard manat, 2024-cü ildə 23,6 milyard manat olduğu halda, 2025-ci ildə 23,8 milyard manat proqnozlaşdırılır.

Azərbaycan dövləti büdcə gəlirlərini hər zaman ölkənin rifahı və inkişafı, əhalinin yüksək həyat şəraitinin təmini istiqamətinə yönəldir. Bu sayədə davamlı olaraq maaşlar, pensiyalar, sosial müavinətlər artır. Eyni zamanda qısa zamanda böyük səmərə və yüksək keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazinin yenidən qurulması, Qarabağda və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması və onların dədə-baba yurdlarına qaytarılması dövlətimizin gündəliyində duran əsas məsələdir.

Bu il sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev söylədi ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası hər birimizin önəmli vəzifəsidir: "Əgər mən İkinci Qarabağ müharibəsindən sonra görülmüş işləri sadalamağa başlasam, onda gərək bir neçə saat sizin qarşınızda çıxış edim. Sadəcə olaraq, bir neçə rəqəmi sizin və ictimaiyyətin diqqətinə çatdırmaq istərdim. Müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır".

Vurğulandığı kimi, 2025-ci ildə daha 4 milyard manat bu istiqamətə yönəldiləcək.

Bütün bunlara görədir ki, cəmi dörd il əvvələ qədər bir həyat nişanəsinə belə rast gəlinməyən Qarabağ və Şərqi Zəngəzurun siması bu gün tamamilə dəyişib və nəhəng tikinti-quruculuq meydanına çevrilən bu yerlərimizə sürətlə qayıdış gerçəkləşdirilir.

→ 4

## İqtisadi inkişaf sosial məqsədlərə xidmət edir

Prezident İlham Əliyevin sosial islahatlar proqramları, icra edilən mühüm layihələr və qərarlar məhz bu məqsədə xidmət edir. Həyata keçirilən tədbirlər, uğurlu nəticələr Milli Məclisdə geniş müzakirə olunan 2025-ci ilin dövlət büdcəsi layihəsində də aydın əks olunur. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun tərtib olunmuş büdcə layihəsini nəinki maliyyə, ilk növbədə siyasi əhəmiyyətli sənəd hesab etmək olar. Bu layihə dövlət rəhbəri cənab İlham Əliyevin siyasi fəaliyyətini iqtisadi müstəvidə aydın ifadə etməklə, həm də hökumətin bu sahədəki fəallığını bütün istiqamətlərdə dəyərləndirir.

Ölkədəki ictimai-siyasi sabitlik, birlik, sosial-iqtisadi inkişaf, daxili və xarici aləmdə qazanılan uğurlar, məhz həyata keçirilən mükəmməl siyasi kursun nəticəsidir. Bu gün Azərbaycan dünyanın iqtisadi cəhətdən inkişaf edən ölkələri sırasındadır. Hazırda respublikamızda ÜDM-in 4,7 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən (3.2-3.5) yüksəkdir. Beynəlxalq Valyuta Fondu gələn il Azərbycanda ÜDM-in 77 milyard dollara yüksələcəyini ehtimal edir.

2025-ci il dövlət büdcəsi gəlirlərinin keçən ilin müvafiq proqnoz göstəriciləri ilə müqayisədə 5,3 faiz çox proqnozlaşdırılması müsbət göstəricidir. Büdcə layihəsində təhsil xərclərinin 8,7 faiz, səhiyyə xərclərinin 7,1 faiz, kənd təsərrüfatı, mənzil və kommunal təsərrüfatı, ətraf mühitin mühafizəsi xərclərinin 7,2 faiz, sosial-müdafiə və sosial təminat xərclərinin 9,6 faiz artımla proqnozlaşdırılması Azərbaycan iqtisadiyyatının dayanıqlı və davamlı inkişafda olmasından xəbər verir.

→ 4

## Ermənistan silahlanmanı dayandırmasa...

### Xalqımızın birliyi, dövlətimizin gücü, Liderimizin qətiyyəti ilə hesablaşmalı olacaq

Azərbaycanın xoşməramlı cəhdlərinə maneə yaratmağa çalışan qara qüvvələr hər zaman olduğu kimi yenə də çoxdur. Ölkəmizin yaratdığı yeni tarixi reallıqları qəbul etmək istəməyənlər vəziyyəti öz xeyirlərinə dəyişmək kimi çirkin və təhlükəli planları ilə regionu qarışdırıb bulanıq suda balıq tutmağa çalışırlar.



Hazırda onların məqsədi Ermənistandan növbəti dəfə pozucu alət kimi istifadə etmək, bu respublika daxilində revanşizmi alovlandırmaq, hərbi təxribatlar hazırlamaqdır. Ermənistanda baş verənlər, rəsmi İrəvanın davranışları onların əsrlər boyu adət etdikləri "ənənələrə sadiqliklə" bu dəfə də başqalarının əlində oyuncaq vasitə olmağa həvəslə razılaşdıqlarını göstərir. Azərbaycan Prezidenti İlham Əliyev bu il noyabrın 8-də Zəfər parkının açılışındakı müraciətində bunları xüsusi vurğuladı: "Minsk qrupunun bütün həmsədrləri 30 il ərzində Ermənistanın arxasında dayanmışdı, biri pulsuz silah verirdi, biri pul verirdi, biri həm silah, həm pul verirdi, siyasi dəstək verirdi, bir məqsədlə ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlasınlar. Ona görə, təbii olaraq Azərbaycan vətəndaşlarının bəziləri narahat idi ki, müharibə yarımçıq qalacaq, biz öz istədiyimizə nail ola bilməyəcəyik, bizi kimsə dayandıracaq. Amma mən dedim, yox, heç kim bizi dayandıra bilməz, öldü var, döndü yoxdur. Sona qədər vuruşacağıq, ədaləti bərpa edəcəyik, beynəlxalq hüququ bərpa edəcəyik və Ermənistana onun yerini göstərəcəyik.

2020-ci il noyabrın 8-də tarixi Şuşa əməliyyatı, demək olar ki, düşmənin belini qırmışdır. Ondan sonra cəmi bir gün keçdi və noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu və biz müharibəni dayandırdıq".

Ermənistanın daxili siyasətində revanşizm hissləri getdikcə üstünlük təşkil etməyə başlayır və bu, ümumilikdə regionumuzun təhlükəsizliyi üçün təhdidlər doğurur. Buna şərait yaradan əsas amillərdən biri Ermənistanın hərbi sahədə gücləndirilməsinə beynəlxalq dəstəyin göstərilməsidir. Xüsusilə Fransa bu istiqamətdə aktiv rol oynayır. Bu ölkə Ermənistanın silahlandırılması prosesində aparıcı aktorlardan biridir. Aparılan bu çirkin siyasət təkcə Fransanın iştirakı ilə məhdudlaşmır. ABŞ, konkret desək, artıq ömrünü başa vuran Bayden administrasiyası da Ermənistanın hərbi potensialını artırmaq istiqamətində addımlar atır.

→ 6

## COP29-un qərarları Paris İqlim Sazişinin tam icrasını təmin edəcək

### Qlobal istiləşmənin qarşısını yalnız beynəlxalq həmrəyliklə almaq mümkündür

2015-ci ildə Fransada keçirilən COP21-də qəbul edilmiş Paris İqlim Sazişi qlobal istiləşməni sənayedən əvvəlki səviyyədən maksimum 1,5 dərəcəyə qədər məhdudlaşdırmağı nəzərdə tutur. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında məsuliyyətin bölüşdürülməsi məsələsinə xüsusi diqqət yetirilən saziş hər bir ölkənin iqlim dəyişikliyinə töhfəsini və onu azaltmaq üçün fərqli imkanlarını nəzərə alaraq ədalətli keçidin təmin edilməsini hədəfləyir. İnkişaf etmiş ölkələr maliyyə və texnologiya sahələrində inkişaf etməkdə olan ölkələrə dəstək verməyi öhdəlik kimi qəbul ediblər.

Azərbaycan da iqlim dəyişikliyi ilə bağlı Paris Sazişini imzalayan dövlətlər arasındadır. Üzərinə düşən öhdəlikləri yerinə yetirən ölkəmiz iqlim dəyişikliyinin yaratdığı fəsadların aradan qaldırılması, istixana qazı emissiyalarının azaldılması, bərpaolunan enerji mənbələrinin istifadəsinin artırılması və enerji səmərəliliyinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atır. COP29-un məhz Azərbaycanda keçirilməsi də bunun bariz göstəricisidir.

→ 5

## Cəbrayıl növbəti sakinlərinə qovuşdu



Dörd ildir ki, tarixi ədalət bərpa edilib, düşmənə lazımi dərs verilib. Bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib kimi yaşayacaq. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri Qarabağı və Şərqi Zəngəzuru cənnətməkana çevirəcək.

Prezident İlham Əliyevin müvafiq göstərişləri ilə həyata keçirilən məqsədyönlü və genişmiqyaslı işlər sayəsində azadlığına qovuşmuş torpaqlarımızda əhalinin dayanıqlı məskunlaşması təmin edilir. Keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı ilə bağlı qarşıya qoyulan hədəflər uğurla gerçəkləşdirilir.

Düşmənin viran qoyduğu şəhər və kəndlərimiz yenidən qurulduqca keçmiş məcburi köçkünlər torpaqlarına qovuşur. İndiyədək 2333 ailə - 9010 nəfər əzəli yurdlarına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 220 ailə (823 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 203 ailə (783 nəfər) Cəbrayıl şəhərində məskunlaşıb.

→ 4

## Azərbaycanda əhalinin elə təbəqəsi yoxdur ki, dövlətin sosial tədbirlərindən kənarda qalsın

Azərbaycan dövlətinin son dövr həyata keçirdiyi sosial proqramların və bu sahəyə verdiyi önəmin nə dərəcədə əhəmiyyətli olduğu statistik rəqəmlərdə belə ifadə olunur: minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280, orta aylıq pensiya ümumi göstəricilərdə 2,4 dəfə artaraq 208 manatdan 494 manata yüksəlib. Yaşa görə orta aylıq pensiya 2,3 dəfə artırılaraq 234 manatdan 527, müavinətlərin və təqaüdlərin ümumi məbləği 5 dəfə artaraq 400 milyon manatdan 1,9 milyard manata çatıb. Ünvanlı dövlət sosial yardımı üzrə orta məbləğ isə 2,7 dəfə artırılaraq 175 manatdan 468, yaşayış minimumu 56 faiz artaraq 173 manatdan 270, ehtiyac meyarı 2,1 dəfə artaraq 130 manatdan 270 manata, xalis minimum aylıq əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti 2003-cü ildəki 11,7 faizdən 2018-ci ildə 26,5, bu ilin əvvəlində 41,1 faizə yüksəlib.

Xeyli dərəcədə diqqətçəkən bu statistik rəqəmlərin arxasında insan amili, vətəndaşın rifahı dayanır. Məsələn, minimum pensiyanın 2,5 dəfə artırılması xüsusilə yaşlı nəslin gündəlik dolanışığı, güzəranının yaxşılaşması deməkdir. Orta aylıq pensiyaların və müavinətlərin əhəmiyyətli dərəcədə yüksəldilməsi də yaşlı və ahıl vətəndaşlarımızın sosial problemlərinin həlli üçün atılan mühüm addımdır. Ünvanlı sosial yardımların orta məbləğinin dəfələrlə artırılması və ehtiyac meyarının yüksəldilməsi kimi tədbirlər isə əhalinin aztəminatlı təbəqəsinin yaşayış şəraitini yaxşılaşdırmaq və onları daha layiqli həyat səviyyəsinə çatdırmaq məqsədini daşıyır.

→ 7

# Baş nazir Əli Əsədov İrakli Kobaxidzeni Gürcüstanın Baş naziri vəzifəsinə yenidən təsdiqlənməsi münasibətilə təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstanın Baş naziri vəzifəsinə yenidən təsdiq edilməsi və yeni hökumətin formalaşması münasibətilə İrakli Kobaxidzeyə təbrik məktubu ünvanlayıb.**



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, məktubda Azərbaycanın dost ölkə və etibarlı tərəfdaş olan Gürcüstanla münasibətlərinin yüksələn xətlə inkişaf etməsindən məmnunluq ifadə olunub.

Dərin tarixi əlaqələrlə bir-birinə bağlı olan iki ölkənin həm ikitərəfli əsasda, həm də çoxtərəfli qaydada qarşılıqlı maraq doğuran sahələrdə səmərəli əməkdaşlıq etdikləri vurğulanıb.

Qeyd olunub ki, Azərbaycan bundan sonra da Gürcüstan ilə dostluğa, qarşılıqlı etimad və dəstəyə əsaslanan əlaqələri və strateji tərəfdaşlığı genişləndirmək əzmindədir.

# Səfir: "Əminəm ki, Azərbaycan-Küveyt əməkdaşlığı bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcək"

**Noyabrın 29-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Küveyt Dövlətinin ölkəmizə yeni təyin olunmuş səfiri Məhəmməd Feysəl Əl-Muteyri ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Küveyt Dövlətinin səfiri Məhəmməd Feysəl Əl-Muteyri etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Nazir yeni təyin olunmuş səfiri təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Bu il Küveytlə diplomatik münasibətlərimizin əsasının qoyulmasının 30-cu ildönümünün qeyd olunduğu, bu illər ərzində ikitərəfli, o cümlədən çoxtərəfli əməkdaşlığın inkişafının məmnunluq doğurduğu diqqətə çatdırılıb.

İkitərəfli əməkdaşlığımızın müxtəlif sahələr, o cümlədən iqtisadiyyat, ticarət, investisiyalar, turizm və digər istiqamətlər üzrə daha da inkişafı istiqamətində Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında Əməkdaşlıq üçün Birgə Komissiyanın fəaliyyətinin intensivləşdirilməsinin vacibliyi qeyd olunub.

Regional və beynəlxalq təşkilatlar, xüsusilə BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Körfəz Əməkdaşlıq Şurası çərçivəsində qarşılıqlı dəstək və əməkdaşlığın bundan sonra da davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tərəflər COP29-un nəticələri barədə ətraflı müzakirə aparıb. Ölkəmizin liderliyi ilə uğurlu konfransın iqlim dəyişikliyi ilə mübarizə istiqamətində səylərə mühüm töhfə olduğu diqqətə çatdırılıb.

Səfir Azərbaycan ilə Küveyt arasında mövcud əməkdaşlığın bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliyini bildirib, bu istiqamətdə səylərini əsirgəməyəcəyini deyib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 501 **QƏRAR** Bakı şəhəri, 29 noyabr 2024-cü il

### "Kritik informasiya infrastrukturu obyektlərinin siyahısı"nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 861-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 may tarixli 539-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 19 iyun tarixli 729 nömrəli və "Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi sahəsində bəzi tədbirlər haqqında" 2021-ci il 17 aprel tarixli 1315 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə" 2022-ci il 5 iyul tarixli 1738 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 23 may tarixli 2145 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Kritik informasiya infrastrukturu obyektlərinin siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 502 **QƏRAR** Bakı şəhəri, 29 noyabr 2024-cü il

### Mingəçevir şəhəri 4 nömrəli tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun adının verilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 25 iyun tarixli 175 nömrəli Sərəncamı ilə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş Natiq Səlim oğlu Qasımovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Mingəçevir şəhəri 4 nömrəli tam orta ümumtəhsil məktəbinə Azərbaycanın Milli Qəhrəmanı Natiq Səlim oğlu Qasımovun adı verilsin.

2. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Mingəçevir Şəhər İcra Hakimiyyəti bu Qərardan irəli gələn məsələləri həll etsinlər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# YAP Mərkəzi Aparatında görüş keçirilib

**Noyabrın 29-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə cari ilin 13-20 noyabr tarixlərində Çin Xalq Respublikasında (ÇXR) səfərdə olmuş YAP nümayəndə heyətinin ÇXR-in ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Din Tao ilə görüşü keçirilib.**





YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov möhkəm dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və etibarlı strateji tərəfdaşlıq müstəvisində yüksələn xətt üzrə inkişaf edən Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin milli maraqlarına və müasir qlobal çağırışlara cavab verdiyini qeyd edib: "Dövlət başçıları İlham Əliyev və Si Cinpinin siyasi iradələri sayəsində Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu ilə ölkələrarası münasibətlər keyfiyyətcə yeni səviyyəyə yüksəlmişdir. Müasir beynəlxalq münasibətlər sisteminin layiqli və məsuliyyətli üzvü olan hər iki ölkə bütün sahələrdə işbirliyinin dərinləşdirilməsində maraqlıdır və bu istiqamətdə praktiki addımlar atılmaqdadır".

Qarşılıqlı səfərlərin həm ölkələr, həm də partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin qiymətləndirilməsi və əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsi baxımından əhəmiyyətinə diqqəti cəlb edən Tahir Budaqov vurğulayıb ki, Azərbaycan-Çin münasibətlərinin mühüm tərkib hissəsi kimi YAP ilə ÇKP arasında əlaqələrin inkişafı xüsusi diqqət mərkəzindədir: "Partiyalarımız arasında fəal siyasi dialoq mövcuddur və qarşılıqlı təmaslar intensiv xarakter daşıyır. Məmnunluqla qeyd etmək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Çinə səfəri çərçivəsində kifayət qədər məhsuldar görüşlər keçirildi, əlaqələrin hazırkı durumu və perspektiv imkanlar geniş müzakirə olundu. Xüsusilə də iki hakim partiya arasında əməkdaşlıq memorandumunun imzalanması tarixi əhəmiyyətə malik olmaqla bərabər, qarşılıqlı inam, hörmət və etimada əsaslanan səmərəli işbirliyinin genişləndirilməsi baxımından böyük önəm kəsb edir. Yeni mərhələdə görüləcək işlər ortaq maraqlarımızı təmin etməklə həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı və perspektivli olacaqdır".

YAP Mərkəzi Aparatının rəhbəri daimi təmasların gənclər arasında da səmərəli ünsiyyətin gücləndirilməsinə, mütəmadi olaraq qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılmasına mühüm töhfə kimi önəmini diqqətə çatdırıb.

Tahir Budaqov səfər zamanı göstərilən yüksək diqqətə görə nümayəndə heyəti adından Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürünü bildirib.

Sonra YAP İdarə Heyətinin üzvləri, millət vəkilləri Pərvin Kərimzadə, Hikmət Məmmədov, Azər Badamov, Ülviyyə Həmzəyeva, partiyanın Təftiş Komissiyasının üzvü, millət vəkili Elman Nəsirov səfər haqqında təəssüratlarını bölüşüblər.

ÇXR-in ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Din Tao Çinin Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verdiyini, iki ölkə liderlərinin səyləri nəticəsində Azərbaycan-Çin münasibətlərinin strateji xarakter daşıyaraq uğurla inkişaf etdiyini söyləyib. O, ÇXR-in Baş nazirin müavini Din Süesənin rəhbərlik etdiyi yüksəksəviyyəli nümayəndə heyəti və min nəfərədək digər iştirakçı ilə Azərbaycanın evsahibliyi ilə keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-da təmsil olunduğunu və Bakıda mühüm görüşlərin keçirildiyini xatırladıb. Din Tao bəzi qüvvələrin qarayaxma kampaniyası aparmasına və prosesə maneə törətmək cəhdlərinə baxmayaraq, Azərbaycanın bu mötəbər beynəlxalq tədbirə uğurla evsahibliyi etməklə dünyaya yeni müsbət nümunə təqdim etdiyini və COP29 çərçivəsində "Bakı Maliyyə Məqsədləri" sənədinin qəbul edilməsinin qlobal iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizədə tarixi əhəmiyyət daşıdığını bildirib. O, Azərbaycanın qlobal müstəvidə belə bir mühüm nailiyyətə imza atması münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik edib.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın önəmindən bəhs edən Din Tao YAP nümayəndə heyətinin səfərinin uğurlu olmasının böyük məmnunluq doğurduğunu diqqətə çatdırıb. O, Yeni Azərbaycan Partiyasının nümayəndələrinə təşəkkürünü bildirərək fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Görüşdə Çin Xalq Respublikasının ölkəmizdəki səfirliyinin üçüncü katibi Se Yilin də iştirak edib.

***Ü.XASPOLADOVA,***
***"Azərbaycan"***

# 2025-ci ilin büdcəsi dövlətimizin gücünü nümayiş etdirir

**Noyabrın 29-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin payız sessiyasında növbəti iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan komitə sədri Azər Əmiraslanov gündəliyə 2025-ci ilin dövlət büdcəsi zərfinə daxil olan 9 qanun layihəsinin ikinci oxunuşda müzakirəsinin daxil edildiyini bildirib. Komitə sədrinin təklifi ilə gündəlikdəki məsələlərin təqdimatları və müzakirəsi birgə aparılıb.

Komitə sədri birinci oxunuşda dövlət büdcəsi və büdcəyə daxil olan qanun layihələri barədə ətraflı məlumatın verildiyini və sənədlərin müvafiq dövlət orqanlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə Milli Məclisdə konstruktiv və işgüzar atmosferdə geniş müzakirələrinin keçirildiyini deyib.

Bildirilib ki, 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan layihələr Azərbaycan Prezidentinin müəyyən etdiyi strateji vəzifələrə və təşəbbüslərə uyğun olmaqla, dövlətimizin gücünü və qüdrətini, sosial siyasətinin effektivliyini, çoxşaxəliliyini bir daha nümayiş etdirir.

Makro-iqtisadi aspektlərdən söz açan komitə sədri qeyd edib ki, cari ildə müşahidə olunan pozitiv makro-iqtisadi meyillər gələn il dövlət büdcəsini səmərəli şəkildə icra etməyə imkan verəcək.

İqtisadiyyat nazirinin müavini Sahib Ələkbərov növbəti büdcə ilinə Azərbaycanın müsbət makro-iqtisadi göstəricilər şəraitində daxil olduğunu deyib. Vurğulanıb ki, iqtisadiyyatın artım və inkişaf meyilləri, ÜDM-in artım templəri, investisiya şəraiti və digər göstəricilər milli inkişaf prioritetlərindən irəli gələn sosial-iqtisadi hədəflərin reallaşdırılması üçün maliyyə təminatı yaradır.

Əmək və Əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev əhalinin sosial təminatının daha da gücləndirilməsinin Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin prioritet istiqamətlərindən biri olduğunu diqqətə çatdıraraq ildən-ilə dövlət büdcəsinin sosialyönümlü xərclərinin dinamik olaraq artdığını vurğulayıb.

Qeyd edilib ki, son 5 ildə sosial sahədə aparılmış dərin islahatlar nəticəsində böyük uğurlar əldə edilib. Dövlət başçısının təşəbbüsü və rəhbərliyi ilə 4 böyük sosial islahatlar zərfi icra edilib. Bu sosial islahatlar zərfinin illik xərci 7 milyard manat təşkil edir və 4 milyon vətəndaşımız bu islahatlar zərfindən bəhrələnir.

Büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı olacaq. Gələn ilin büdcəsində sosialyönümlü xərclərin 8,8 faiz artırılaraq 16,9 milyard manata çatması və dövlət büdcəsi xərclərinin 41 faizini təşkil etməsi sosial siyasətin prioritetliyini ifadə edir.

Əhalinin rifahının yaxşılaşdırılması, yoxsulluğun azaldılması, aztəminatlı ailələrin sosial təminatının gücləndirilməsi məqsədilə dövlət büdcəsində kifayət qədər vəsaitlər nəzərdə tutulub. Belə ki, müavinət, təqaüd, kompensasiya ödənişlərinə 1,9 milyard manat, ünvanlı sosial yardım proqramının həyata keçirilməsi üçün 457 milyon manat, haqqı ödənilən ictimai işlər proqramının icrası üçün 200 milyon manat vəsait ayrılıb. Növbəti ildə də əməkhaqqının və minimum pensiyanın artırılması, sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi üçün kifayət qədər vəsait nəzərdə tutulub.

Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva büdcə zərfi çərçivəsində Vergi Məcəlləsinə təklif olunan dəyişikliklərdə investisiya mühitinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi, sahibkarlıq subyektlərinin vergi yükünün azaldılması, vergi inzibatçılığının təkmilləşdirilməsi, dövlət-özəl tərəfdaşlığı çərçivəsində iri investisiyaların cəlb edilməsi, sənayeləşmə və nəqliyyat-logistikanın inkişaf etdirilməsi kimi istiqamətlər barədə məlumat verib.

Maliyyə Nazirliyinin Büdcə şöbəsinin müdiri Fazil Fərəcov büdcə layihəsinin əsas parametrlərini diqqətə çatdırıb, Hesablama Palatası sədrinin müavini Nəsir Sadıqov palatanın 2025-ci ilin dövlət büdcəsinin layihəsinə dair rəyini təqdim edib.

Gündəlikdəki məsələlərin müzakirəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov, komitə üzvləri Vüqar Bayramov və Aydın Hüseynov çıxış ediblər. Çıxış edənlər Azərbaycanın 2025-ci il büdcəsinin müstəqillik tariximizin ən böyük büdcəsi olmaqla ərazi bütövlüyümüzün və dövlət suverenliyimizin möhkəmləndirilməsi, əhalinin rifah halının yüksəldilməsi, sosial müdafiəsinin gücləndirilməsi üçün kifayət qədər maliyyə əsasları yaratdığını vurğulayıblar.

Müzakirələrin sonunda gündəliyin 9 məsələsi - "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında", "Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında", "İşsizlikdən Sığorta Fondunun 2025-ci il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında", "Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında", Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə, "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə, "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***"Azərbaycan"***

## Milli Məclisin iclasında

# Bir sıra qanunlara dəyişikliklər üçüncü oxunuşda təsdiq edildi

**Noyabrın 29-da Milli Məclisin növbəti plenar iclası keçirilib. Əvvəlcə cari məsələlər müzakirə olunub. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, parlamentin komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova, deputatlar Vüqar Bayramov, Jalə Əliyeva, Aydın Mirzəzadə, Bəhruz Məhərrəmov, Aydın Hüseynov, Azay Quliyev, Bəxtiyar Əliyev bir sıra məsələlər barədə öz fikirlərini bölüşüblər.**



Bildirilib ki, Azərbaycanda sosial təminatın daha da gücləndirilməsi ölkə Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasətin prioritet istiqamətlərindəndir. Deputatlar dövlət büdcəsinin sosialyönümlü xərclərinin ilbəil dinamik olaraq artırıldığını, Qarabağ və Şərqi Zəngəzurun qurulması üçün daxili mənbələr hesabına vəsaitin ayrıldığını, işğaldan azad olunmuş ərazilərin bərpasına xərclərin yönəldiyini söyləyiblər. Azərbaycanın 2025-ci ildə 10 milyard dollar həcmində sosialyönümlü xərclərinin Cənubi Qafqazın iki ölkəsinin birgə sosialyönümlü xərclərindən 2,5 dəfə çox olduğunu qeyd ediblər. Çıxışlarda seçicilərlə görüşlər zamanı aparılan söhbətlərdə vətəndaşların dövlət tərəfindən onlara göstərilən diqqət və qayğıdan razılığı ifadə olunub.

Müzakirələrdə Fransa telekanallarında Azərbaycana qarşı böhtan və iftiralarla dolu fikirlərin səslənməsinə münasibət bildirilib. Bunun Fransanın türk dünyasına qarşı qərəzli mövqeyinin nümayişi olduğu söylənilib. Qeyd olunub ki, Vətən müharibəsində qazanılmış Zəfərdən sonra həyata keçirilən quruculuq işləri, ölkəmizin dinamik inkişafı bəzi qüvvələri narahat edir, onlar Azərbaycana mane olmağa çalışırlar. Bu gün Azərbaycanın bölgədə və dünyada sülhün, əmin-amanlığın, təhlükəsizliyin bərqərar olması istiqamətində təqdirəlayiq addımlar atdığı vurğulanıb.

Millət vəkilləri, habelə son günlərdə Polşa prezidentinin Ermənistana səfəri ilə bağlı fikirlərini bildirərək, onun Azərbaycanla sərhəddə "binokl diplomatiyası"nın qəbuledilməz olduğunu deyiblər. Azərbaycanla Polşa arasında müxtəlif sahələrdə əlaqələrin olduğu, Polşa prezidentinin bu hərəkətinin isə təəssüf və təəccüb doğurduğu söylənilib.

Müzakirələr zamanı ölkəmizin evsahibliyi ilə keçirilmiş COP29-un mahiyyəti, hədəfləri və uğurlu nəticələri barədə də fikir mübadiləsi aparılıb. Bu tədbirin dövlətimizin beynəlxalq səviyyədə güclü mövqeyini bir daha nümayiş etdirdiyi bildirilib. Qeyd edilib ki, genişmiqyaslı və planlaşdırılmış böhtan kampaniyalarına baxmayaraq, ölkəmiz iqlim dəyişikliyi ilə mübarizə sahəsində tarixi nəticələr əldə etməyi bacarıb.

Deputatlar yüksək səviyyədə təşkil edilmiş konfransın dünya ölkələri arasında geniş əməkdaşlıq imkanları yaratdığını, tədbirdə mühüm təşəbbüslərin irəli sürüldüyünü söyləyiblər. Millət vəkilləri COP29 çərçivəsində Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə Parlament Görüşünün müvəffəqiyyətlə həyata keçirildiyini, burada qəbul edilmiş yekun sənədin əhəmiyyətini vurğulayıblar.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova iclasın gündəliyinə 15 məsələnin daxil edildiyini, ilk 3 məsələnin beynəlxalq sənədlərin təsdiq edilməsi barədə qanun layihələri olduğunu deyib. Qeyd edib ki, müvafiq Konstitusiya Qanununun tələbinə əsasən, bu qanun layihələri bir oxunuşda baxılıb qəbul ediləcək.

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında 14 sentyabr 2017-ci il tarixli Sazişə İkinci Qoşma"nın qəbul və təsdiq edilməsi, həyata keçirilməsinə icazə verilməsi barədə qanun layihəsinə dair məlumat verib.

Komitə sədri bildirib ki, dövlət başçısı İlham Əliyev tərəfindən təqdim edilmiş sənəd 1994-cü il sentyabrın 20-də imzalanmış və Ulu Öndərin xidmətləri sayəsində gerçəkləşən "Əsrin müqaviləsi" ilə başlanan işlərin davamı olaraq, həmin müqavilə çərçivəsində formalaşmış beynəlxalq konsorsiumun əsas iştirakçıları ilə birlikdə "yaşıl enerji"yə keçid enerjisi olan təbii qazın hasilatı və pay bölgüsü ilə bağlı məsələləri əhatə edir.

Layihədə 2024-cü il avqustun 1-də Bakı şəhərində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Azərbaycan (AÇG) Limited, BP Eksploreyşn (Kaspian Si) Limited, Ekvinor Abşeron AS, Ekson Azərbaycan Limited, İnpeks Sausvest Kaspian Si, Ltd., İtoçu Oyl Eksploreyşn (Azərbaycan) İnk., MOL Azərbaycan, Ltd., ONGC Videş Limited, Türkiye Petrolleri A.O. arasında imzalanmış 14 sentyabr 2017-ci il tarixli Sazişə İkinci Qoşmanın, habelə İkinci Qoşmanın əsas mətninə edilmiş iki Əlavə Bölmənin qəbul və təsdiq edilməsi və onların həyata keçirilməsinə icazə verilməsi barədə müddəalar ehtiva olunur.

Diqqətə çatdırılıb ki, qaz sazişi olaraq bu layihə Azəri-Çıraq-Günəşli hasilatın pay bölgüsü sazişinin Kontrakt Sahəsinin coğrafi hüdudları daxilində yerləşən, lakin kontraktla əhatə olunmayan Sərbəst Təbii Qaz Yataqlarındakı hasil edilməmiş qaz və maye karbohidrogenlərin işlənməsini nəzərdə tutur. Eyni zamanda tərəflər bu layihənin mövcud hasilatın pay bölgüsü sazişi əsasında həyata keçirilən layihə və onun əməliyyat prosesləri ilə bağlılığını nəzərə alaraq, qərara almışlar ki, layihə mövcud podratçı şirkətlərlə birgə işlənsin. İkinci Qoşma hazırlanarkən mövcud digər qaz layihələri sazişlərindəki (Abşeron və Şah Dəniz HPBS) əsas kommersiya və fiskal şərtlər əsas götürülmüş, eləcə də onların həyata keçirilməsinin müsbət təcrübəsindən istifadə edilmişdir.

Məsələ ətrafında çıxış edən deputatlar Bəhruz Məhərrəmov, Vüqar Rəhimzadə, Aydın Mirzəzadə, Bəxtiyar Əliyev sözügedən sazişin əhəmiyyəti, ölkə iqtisadiyyatının inkişafında rolu barədə fikirlərini açıqlayıblar.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov "Azərbaycan Respublikası Hökuməti ilə Səudiyyə Ərəbistanı Krallığı Hökuməti arasında diplomatik, xüsusi və xidməti pasport sahiblərinin qısamüddətli vizadan qarşılıqlı azad edilməsi haqqında Anlaşma Memorandumu"nun təsdiq edilməsi barədə qanun layihəsinin mahiyyətindən bəhs edib. Bildirilib ki, 27 sentyabr 2024-cü ildə Nyu York şəhərində imzalanmış memorandum dövlətlər arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün hər iki dövlətin vətəndaşlarının qarşılıqlılıq prinsipinə uyğun olaraq gediş-gəliş prosesinin asanlaşdırılması məqsədinə xidmət edir. 13 maddədən ibarət sənədə əsasən, hər iki dövlətin vətəndaşları diplomatik, xüsusi və xidməti pasportları təqdim etməklə 180 gün ərzində 90 gündən çox olmayaraq digər dövlətin ərazisinə vizasız daxil ola bilərlər. Bu müddətdən artıq qalmaq niyyətində olan şəxslər isə müvafiq qaydada viza və ya yaşayış hüququ verən sənəd almalıdırlar. Qeyd olunan müddəalar Həcc və ya Ümrə ziyarəti məqsədilə Səudiyyə Ərəbistanı Krallığına gedən Azərbaycan Respublikası vətəndaşlarına şamil edilmir.

Müzakirələrdə deputatlar Rizvan Nəbiyev, Ceyhun Məmmədov, Məlahət İbrahimqızı sənədin iki ölkə arasında əlaqələrin inkişafı baxımından vacibliyini qeyd ediblər.

Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Komitə sədri Səməd Seyidov daha sonra "Azərbaycan Respublikası Hökuməti ilə İndoneziya Respublikası Hökuməti arasında diplomatik və xidməti pasportların sahiblərinin vizadan azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini də təqdim edib. Diqqətə çatdırılıb ki, 27 sentyabr 2024-cü ildə Nyu York şəhərində imzalanmış və 11 maddədən ibarət olan saziş dövlətlər arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün hər iki dövlətin diplomatik və xidməti pasportlara sahib olan vətəndaşlarının gediş-gəliş prosesinin asanlaşdırılması məqsədinə xidmət edir. Razılaşmaya əsasən, tərəflərdən hər hansı birinin diplomatik və ya xidməti pasportlara malik olan vətəndaşlarının hər giriş tarixindən etibarən 30 gündən çox olmayaraq digər dövlətin ərazisinə girişi, tranziti, çıxışı və orada qalması üçün viza əldə etmələri tələb olunmur.

Deputat Aydın Mirzəzadə məsələ barədə fikir və təkliflərini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Spiker Sahibə Qafarova gündəliyin digər 9 məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib. O, növbəti iki məsələnin Azərbaycan Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə yaxın olduğunu deyib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihədə hər hansı dəyişikliyin olmadığını deyib.

Qanun layihəsində qanunsuz olaraq ağacları, kolları və ya digər yaşıllıqları kəsməyə görə "xeyli miqdar", "külli miqdar" anlayışlarının hədləri artırılır və ilk dəfə olaraq "xüsusilə külli miqdar" anlayışı müəyyən edilir, sanksiyalardakı cərimə cəzasının konkret pul məbləği ilə deyil, cinayət nəticəsində vurulmuş ziyanın müvafiq mislinədək miqdarda pul tənbehi ilə müəyyən olunması təklif olunur, ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətaları müəyyən edən müddəalar təkmilləşdirilir.

Sonra Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında" və "Yaşıllıqların mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. O, adıçəkilən qanunlarda nəzərdə tutulan dəyişikliklərlə bağlı heç bir əlavə təklifin olmadığını deyib.

Hər iki məsələ barədə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov rəhbərlik etdiyi komitənin müsbət rəy verdiyini söylədikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında" və "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib.

Bildirilib ki, sənəddə vətəndaşlara göstərilən tibbi xidmətlərin təkmilləşdirilməsi və keyfiyyətinin yüksəldilməsi, həmçinin əhalinin dərman vasitələri üzrə xərclərinin minimuma endirilməsi məqsədilə ambulator şəraitdə dərman vasitələrinin buraxılması şərtləri müəyyən edilir. Həmçinin icbari tibbi sığorta üzrə ambulator dərman vasitələrinin kompensasiya şərtləri, icbari tibbi sığorta çərçivəsində təminat verilən ambulator dərman vasitələrinin xidmətlər zərfi ilə müəyyən edilməsi, icbari tibbi sığorta fondu hesabına ambulator dərman vasitələrinin təminatı kimi məsələlər öz əksini tapıb.

Komitə sədri məsələnin ikinci oxunuşu zamanı aparılan müzakirələrdə söylənilən fikirlərə münasibət bildirib. O, irəli sürülən təkliflərə komitədə işçi qaydasında baxıldığını, habelə qanunvericilik təşəbbüsü subyekti ilə müzakirə olunduğunu və məqsədəmüvafiq hesab edilmədiyini bildirib.

Deputat Rəşad Mahmudov bəzi fikir və qeydlərini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Qrant haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsindən bəhs edib. O, sənədlə bağlı əlavə heç bir qeyd və təklif olmadığından onun səsə qoyulmasını xahiş edib. Layihə bələdiyyələrin maliyyə resurslarına çıxışının artırılması məqsədilə onlara qrant verilməsinin, o cümlədən dövlət tərəfindən qrant verilməsinin hüquqi əsaslarının yaradılması və bundan irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Komitə sədri Azər Əmiraslanov "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə də bağlı məlumat verib və layihəyə dair heç bir təklifin olmadığını deyib. Sənəddə daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması zamanı reyestrə daxil edilən bildirişdə göstərilən məlumatların sırasına daşınar əmlakın seriya nömrəsinin də əlavə edilməsi nəzərdə tutulub.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamran Bayramov "Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O, birinci və ikinci oxunuş zamanı məsələ barədə heç bir təklif irəli sürülmədiyindən onun üçüncü oxunuşda olduğu kimi səsə qoyulmasını xahiş edib.

Layihədə ümumilikdə 5 məcəllədə və 6 qanunda dəyişikliklərin edilməsi nəzərdə tutulur. Məsələ ilə bağlı Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Gənclər və idman komitəsinin sədr müavini Könül Nurullayeva bu komitələrin rəylərini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. Bildirib ki, layihədə qeyd olunan tələblər uşaq müəssisələrində xidmətlərin təşkili, yaşayış şəraiti, qidalanma, sağlamlığın mühafizəsi, təlim-tərbiyə və asudə vaxtın təşkili sahələrini əhatə edir. Təklif edilən dəyişikliyə əsasən, uşaq hüquqlarının həyata keçirilməsinə dair vahid tələb və meyarların əhatə dairəsi genişlənir, sistem şəklində formalaşır. Sənəd dövlət uşaq siyasətinin həyata keçirilməsində mühüm nəticələrə səbəb olacaqdır.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məsələ barədə bu komitənin müsbət rəyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) haqqında danışıb. O, layihənin komitədə birinci və ikinci oxunuşlarda geniş müzakirə olunduğunu, məsələ ilə bağlı komitəyə ünvanlanmış bütün təklif və sualların cavablandırıldığını, təqdim olunan sənəddə hər hansı bir dəyişikliyin olmadığını deyib.

Layihə sosial ödənişlərin təyin olunması və bunun hüquqi əsaslarının mütəmadi olaraq təkmilləşdirilməsi, vətəndaş məmnunluğunun artırılması məqsədilə hazırlanıb.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova məsələ barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Əminə Ağazadə "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, birinci və ikinci oxunuş zamanı məsələnin ətraflı müzakirə edildiyini, hər hansı təklifin daxil olmadığını deyib.

Layihədə dövlət qulluğunun xüsusi növünü tənzimləyən qanunlara ixtisas dərəcələrinin xüsusi, hərbi və diplomatik rütbələrinin nəzərə alınması ilə bağlı maddələr əlavə olunur. Dövlət qulluğunun xüsusi növünə işə qəbul olunan şəxslərin malik olduqları ixtisas dərəcələri, xüsusi, hərbi və diplomatik rütbələri müvafiq xüsusi rütbələrlə uyğunlaşdırılacaq.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, növbəti 2 məsələ ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və ikinci oxunuşda müzakirəyə təqdim edilir.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, birinci oxunuşda sənədin geniş müzakirə edildiyini söyləyib, layihədə hər hansı dəyişiklik olmadığı üçün onun səsə qoyulmasını xahiş edib.

Sənəd qanunsuz miqrantların saxlanılması mərkəzlərində əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerləşdirilməsi və saxlanılması qaydalarının təkmilləşdirilməsi, onların hüquq və mənafelərinin təmin edilməsi məqsədilə hazırlanıb. Dəyişikliklərdə qanunsuz miqrantların saxlanılması mərkəzlərində saxlanılan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin şəxsi təhlükəsizlik hüququ, yazışmaları, müraciətlərinin göndərilməsi, digər şəxslərlə əlaqələri, maddi-məişət şəraiti, mülki hüquq və ailə münasibətləri kimi məsələlərlə bağlı tənzimləmələr öz əksini tapıb.

Məsələ ətrafında müzakirələrdə çıxış edən deputat Pərvanə Vəliyeva öz fikirlərini bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsindən bəhs edib. O, birinci oxunuş zamanı məsələ barədə ətraflı məlumat verildiyini, geniş müzakirələrin aparıldığını, layihənin mahiyyəti üzrə təkliflərin olmadığını söyləyib.

Layihədə qanunun yeni redaksiyada təqdim edilmiş 9-cu maddəsində məişət zorakılığı ilə bağlı daxil olan müraciətlərə baxılma proseduru daha ətraflı şəkildə təsbit olunub. Sənəddə məişət zorakılığı barədə şikayətdə cinayət tərkibinin əlamətləri olmadıqda şikayətə baxılma müddəti, şikayətə baxmalı olan orqan, şikayətə baxılan zaman dəvət olunmalı şəxslərin əhatə dairəsi, o cümlədən vəkil, psixoloq, tərcüməçi və pedaqoqların xidmətindən istifadə kimi məsələlər ehtiva edilir.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova və İnsan hüquqları komitəsinin sədri Zahid Oruc sənədlə bağlı bu komitələrin müsbət rəy verdiklərini diqqətə çatdırıblar.

Müzakirələrdə deputat Nigar Məmmədova çıxış edərək bəzi fikir və qeydlərini açıqlayıb. Komitə sədri Əhliman Əmiraslanov qaldırılan məsələlərə münasibət bildirib.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin sonuncu məsələsinin "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu, sənədin birinci oxunuşda müzakirəyə təqdim edildiyini bildirib.

Məsələ barədə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verib. O qeyd edib ki, layihə "Enerji effektivliyi fondunun yaradılması və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 mart tarixli 13 nömrəli Fərmanının icrasının təmin edilməsi məqsədi ilə hazırlanıb. Diqqətə çatdırılıb ki, layihəyə əsasən, qanunun 16.2.1-ci maddəsində "enerji resurslarının tarif və qiymətlərində fonda ayrılması nəzərdə tutulan vəsait (enerji resurslarının satışından əldə olunan vəsait)" sözlərinin "enerji resurslarının satışından əldə olunan vəsait" sözləri ilə əvəz edilməsi təklif olunur.

Dəyişikliyin edilməsinə zərurət, qiymətlərinə dövlət tənzimlənməsi tətbiq olunmayan və istehsal, istehlak həcminə görə əhəmiyyətli paya malik olan və eləcə də istehsal və istifadəsi nəticəsində ətraf mühitə mənfi təsir göstərən enerji növlərinin satışından əldə olunan vəsaitdən enerji effektivliyi fonduna köçürmələrin edilməsi üçün hüquqi əsasın yaradılmasından ibarətdir.

Digər dəyişiklik qanunun 16.3-cü maddəsində "və enerji effektivliyi fondunun saxlanılması xərclərinin" sözlərinin çıxarılması ilə bağlıdır. Belə ki, Prezidentin müvafiq fərmanı ilə təsdiq edilmiş "Enerji effektivliyi fondunun vəsaitlərinin formalaşdırılması və istifadə Qaydası"nın 1.2-ci bəndində fondun vəsaitlərindən fondun saxlanılması xərclərinin maliyyələşdirilməsi üçün istifadə olunacağı qeyd olunmuşdur. Bununla əlaqədar olaraq, sözügedən fərmanın 3.1-ci hissəsində fondun enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə yaradıldığı qeyd olunmuş və onun vəsaitinin sərəncamçısı kimi Enerji Məsələlərini Tənzimləmə Agentliyi qismində Azərbaycan Respublikasının Energetika Nazirliyi müəyyən edilmişdir.

Məsələ ilə bağlı müzakirələrdə deputatlar Vüqar Bayramov, Soltan Məmmədov, Elçin Mirzəbəyli, Əlibala Məhərrəmzadə çıxış ediblər, fikir və qeydlərini bildiriblər.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*




# Qarabağ və Şərqi Zəngəzurun bərpası gələn il də prioritet olacaq

## Bu ərazilərin bərpasına ayrılacaq ümumi vəsaitin həcmi 23 milyard manata çatacaq

**Artıq Milli Məclisdə "2025-ci ilin dövlət büdcəsi" layihəsi birinci oxunuşda qəbul edilib. Növbəti ilin dövlət büdcəsi layihəsində Qarabağ və Şərqi Zəngəzurda aparılacaq quruculuq və bərpa işləri üçün 4 milyard manat nəzərdə tutulub. Bu isə bir daha göstərir ki, gələn il də büdcə siyasətinin qarşısında duran əsas çağırışlardan biri işğaldan azad edilən ərazilərin bərpa və yenidənqurma işləridir.**

### Dinamik inkişaf

İşğaldan azad edilən ərazilərə qayıdışı milli ideya kimi müəyyənləşdirən Prezident İlham Əliyev hələ zəfərimizin ikinci ildönümündə mədəniyyət paytaxtımız Şuşada təşkil olunan tədbirdə çıxışı zamanı vurğulamışdı ki, dünya təcrübəsində hələ belə bir nümunə yoxdur ki, ağır müharibədən çıxan bir ölkənin iqtisadiyyatı heç bir böhran yaşamasın, büdcəsi nəinki müharibədən əvvəlki səviyyədə, hətta ondan da yüksək olsun və davamlı olaraq artsın.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov 2025-ci ilin büdcə müzakirələri zamanı məlumat verib ki, Dövlət Neft Fondunun hətta transferləri nəzərə alınmasa belə, büdcə gəlirləri artım dinamikasına malikdir. Belə ki, transfersiz büdcə gəlirləri 2023-cü ildə 23,5 milyard manat, 2024-cü ildə 23,6 milyard manat olduğu halda, 2025-ci ildə 23,8 milyard manat proqnozlaşdırılır.

Azərbaycan dövləti büdcə gəlirlərini hər zaman ölkənin rifahı və inkişafı, əhalinin yüksək həyat şəraitinin təmini istiqamətinə yönəldir. Bu sayədə davamlı olaraq maaşlar, pensiyalar, sosial müavinətlər artır. Eyni zamanda qısa zamanda böyük səmərə və yüksək keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazinin yenidən qurulması, Qarabağda və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlər üçün daha yaxşı şəraitin yaradılması və onların dədə-baba yurdlarına qaytarılması dövlətimizin gündəliyində duran əsas məsələdir.

Bu il sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev söylədi ki, Qarabağın və Şərqi Zəngəzurun bərpası hər birimizin önəmli vəzifəsidir: "Əgər mən İkinci Qarabağ müharibəsindən sonra görülmüş işləri sadalamağa başlasam, onda gərək bir neçə saat sizin qarşınızda çıxış edim. Sadəcə olaraq, bir neçə rəqəmi sizin və ictimaiyyətin diqqətinə çatdırmaq istərdim. Müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır".

Vurğulandığı kimi, 2025-ci ildə daha 4 milyard manat bu istiqamətə yönəldiləcək.

Bütün bunlara görədir ki, cəmi dörd il əvvələ qədər bir həyat nişanəsinə belə rast gəlinməyən Qarabağ və Şərqi Zəngəzurun siması bu gün tamamilə dəyişib və nəhəng tikinti-quruculuq meydanına çevrilən bu yerlərimizə sürətlə qayıdış gerçəkləşdirilir.

### Qayıdış üçün möhkəm zəmin

Prezident İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək məqsədilə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"ı təsdiq edilib. Bu istiqamətdə görüləcək işlərlə bağlı mühüm yol xəritəsi olan Tədbirlər Planına əsasən, bərpa qrafikinə uyğun olaraq mərhələli formada inşa edilmiş evlərə ailələrin köçürülməsi nəzərdə tutulur. Həmçinin 2025-ci ilədək 10 270, 2026-cı ilədək isə 34 500 ailənin köçürülməsi gözlənilir.

Zəfərdən dərhal sonra genişmiqyaslı quruculuq işlərinə start verilən Qarabağ və Şərqi Zəngəzurda yol, enerji, su və digər kommunikasiya layihələri uğurla həyata keçirilir. Meqalayihələrin reallaşdırıldığı, nəhəng tunellərin salındığı bu yerlərdə hazırda iki beynəlxalq hava limanı tikilərək istifadəyə verilib - Füzuli və Zəngilan hava limanları. Laçın Beynəlxalq Hava limanının isə sürətli tikintisi aparılır. Bu ildən etibarən Xankəndidə Qarabağ Universitetinin fəaliyyətə başlaması ilə ümumilikdə bölgənin elmi inkişafının da təməli qoyulub.

Kompleks işlər görülərək qayıdış üçün möhkəm zəmin hazırlanan Qarabağ və Şərqi Zəngəzura 2022-ci il iyulun 19-dan etibarən keçmiş məcburi köçkünlərin davamlı olaraq qayıdışı həyata keçirilir.

İndiyədək 2333 ailə - 9010 nəfər dədə-baba yurdlarına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 220 ailə (823 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 203 ailə, 783 nəfər Cəbrayıl şəhərində məskunlaşıb.

Doğma yurdlarına dönən keçmiş məcburi köçkünlərə layiqli həyat şəraitinin yaradılması, məşğulluqlarının təmin olunması istiqamətində də mühüm işlər görülür.

Artıq Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məskunlaşmış və iqtisadi fəal şəxslərin 80 faizdən çoxunun məşğulluğu təmin edilib.

Prezident İlham Əliyevin şəxsi nəzarəti altında "Böyük qayıdışa dair I Dövlət Proqramı" sürətlə və uğurla icra edilir. Hər il bu ərazilərimizin bərpası və yenidən qurulması üçün milyardlarla manat vəsaitin ayrılması da göstərir ki, Qarabağ və Şərqi Zəngəzura qayıdış dövlət büdcəsinin birnömrəli maliyyə istiqamətidir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Cəbrayıl növbəti sakinlərinə qovuşdu

**"Biz bütün gücləri səfərbər etmişik və edəcəyik ki, qısa müddət ərzində Cəbrayılı və bütün başqa rayonlarımızı yenidən quraq, bərpa edək". Prezident İlham Əliyevin bu sözlərinin reallaşdığının, azad olunmuş ərazilərdə irimiqyaslı bərpa-quruculuq işlərinin yalnız ölkəmizin öz gücü hesabına həyata keçirilməsinin, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıtmasının şahidi oluruq.**

Görülən işlərin nəticəsidir ki, keçmiş məcburi köçkünlərin mərhələli olaraq yurdlarına qayıtmasına başlanılıb. Doğma yurdlarına qovuşan insanların sayı günü-gündən artır. İşğaldan azad edilmiş digər şəhər və kəndlərimiz kimi, Cəbrayıl da mütəmadi olaraq qayıdış karvanlarını qarşılayır.

### Daha 200 nəfər yurduna döndü

Yenidən qurulan Cəbrayıl şəhəri dünən növbəti köç karvanını qarşılayıb. Bu mərhələdə şəhərə 40 ailə - 200 nəfər qayıdıb. Uzun illərin həsrətindən sonra mərhələli olaraq dədə-baba yurdlarına qayıdan cəbrayıllıların sayı artıq 800 nəfərə çatıb.

30 ildir bu günün həsrətilə yaşayan Cəbrayıl sakini Səkinə Musayeva deyib ki, bir vaxtlar ömrünün vəfa etməyəcəyini, bu torpaqları bir də görə bilməyəcəyini düşünüb, xiffət çəkib. Amma indi başqa əhvali-ruhiyyədədir: "Şükür Allaha, torpaqlarımız geri alındı. Səbəbkarlar var olsun. Şəhidlərimizə Allah rəhmət etsin. O qədər ağır, o qədər çətin günlərimiz olub ki, dilə gətirməyə utanmışıq. Həmişə bu günü arzulamışam. Biz Cəbrayılda çox gözəl yaşayırdıq. Bundan sonrakı günlərimiz daha da gözəl olacaq. Allah kömək olsun prezidentimizə, ona ömür versin, bizə daha yaxşı günlər nəsib etsin".

Dədə-baba torpağına qovuşan keçmiş məcburi köçkün Yusif Kərimov hiss etdiyi sevinc və xoşbəxtliyi sözlə ifadə etməkdə çətinlik çəksə də deyir: "Mən Cəbrayılda anadan olmuşam. Ömrümün çoxu, uşaqlığım, gəncliyim burada keçib. Bu günü bizə nəsib edən vətən övladlarına minnətdaram. Allah şəhidlərimizə rəhmət etsin, qazilərimizə cansağlığı versin".

### 9000-dən çox insan torpağına qayıdıb

Dörd ildir ki, tarixi ədalət bərpa edilib, düşmənə lazımi dərs verilib. Bundan sonra Azərbaycan xalqı əbədi olaraq qalib kimi yaşayacaq. İşğaldan azad edilmiş ərazilərimizdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri Qarabağı və Şərqi Zəngəzuru cənnətməkana çevirəcək.

Prezident İlham Əliyevin müvafiq göstərişləri ilə həyata keçirilən məqsədyönlü və genişmiqyaslı işlər sayəsində azadlığına qovuşmuş torpaqlarımızda əhalinin dayanıqlı məskunlaşması təmin edilir. Keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı ilə bağlı qarşıya qoyulan hədəflər uğurla gerçəkləşdirilir.



Düşmənin viran qoyduğu şəhər və kəndlərimiz yenidən qurulduqca keçmiş məcburi köçkünlər torpaqlarına qovuşur. İndiyədək 2333 ailə - 9010 nəfər əzəli yurdlarına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 220 ailə (823 nəfər) Şuşa şəhərində, 46 ailə (179 nəfər) Xocalı şəhərində, 203 ailə (783 nəfər) Cəbrayıl şəhərində məskunlaşıb.

2026-cı ilin sonunda Böyük qayıdışın birinci mərhələsi bitəcək. O zamana qədər Qarabağ və Şərqi Zəngəzurda 34 min 500 ailənin təhlükəsiz məskunlaşması təmin ediləcək. Qüdrətli dövlətimiz qarşısına qoyduğu bütün məqsədlərə nail olduğu kimi, bunun da öhdəsindən layiqincə gələcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*









# İqtisadi inkişaf sosial məqsədlərə xidmət edir



**Əhalinin sosial müdafiəsi və məşğulluğunun təmin edilməsi, rifah halının və sosial təminatın artırılması, insanların həyat şəraitinin daha da yüksəldilməsi Azərbaycan dövlətinin başlıca vəzifəsidir.**

Prezident İlham Əliyevin sosial islahatlar proqramları, icra edilən mühüm layihələr və qərarlar məhz bu məqsədə xidmət edir. Həyata keçirilən tədbirlər, uğurlu nəticələr Milli Məclisdə geniş müzakirə olunan 2025-ci ilin dövlət büdcəsi layihəsində də aydın əks olunur. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun tərtib olunmuş büdcə layihəsini nəinki maliyyə, ilk növbədə siyasi əhəmiyyətli sənəd hesab etmək olar. Bu layihə dövlət rəhbəri cənab İlham Əliyevin siyasi fəaliyyətini iqtisadi müstəvidə aydın ifadə etməklə, həm də hökumətin bu sahədəki fəallığını bütün istiqamətlərdə dəyərləndirir.

Ölkədəki ictimai-siyasi sabitlik, birlik, sosial-iqtisadi inkişaf, daxili və xarici aləmdə qazanılan uğurlar, məhz həyata keçirilən mükəmməl siyasi kursun nəticəsidir. Bu gün Azərbaycan dünyanın iqtisadi cəhətdən inkişaf edən ölkələri sırasındadır. Hazırda respublikamızda ÜDM-in 4,7 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən (3.2-3.5) yüksəkdir. Beynəlxalq Valyuta Fondu gələn il Azərbycanda ÜDM-in 77 milyard dollara yüksələcəyini ehtimal edir.

2025-ci il dövlət büdcəsi gəlirlərinin keçən ilin müvafiq proqnoz göstəriciləri ilə müqayisədə 5,3 faiz çox proqnozlaşdırılması müsbət göstəricidir. Büdcə layihəsində təhsil xərclərinin 8,7 faiz, səhiyyə xərclərinin 7,1 faiz, kənd təsərrüfatı, mənzil və kommunal təsərrüfatı, ətraf mühitin mühafizəsi xərclərinin 7,2 faiz, sosial-müdafiə və sosial təminat xərclərinin 9,6 faiz artımla proqnozlaşdırılması Azərbaycan iqtisadiyyatının dayanıqlı və davamlı inkişafda olmasından xəbər verir.

Büdcədə müdafiə və milli təhlükəsizlik məsələlərinə daha çox vəsaitin ayrılmasının nəzərdə tutulması günün reallığından irəli gəlir. Ali maliyyə sənədi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Məclisin VII çağırış ilk iclasında səsləndirdiyi ordumuzu gücləndirmək, müdafiə sənayemizi inkişaf etdirmək, sərhədlərimizi möhkəmləndirmək, təhlükəsizliyimizi təmin etməklə bağlı çağırışının ifadəsi kimi qəbul edilməlidir. Müharibədə tarixi qələbə qazanmağımıza baxmayaraq, yenə də ölkəmizə qarşı təxribat, mina müharibəsi, böhtan, şantaj kampaniyası davam etməkdə, Ermənistan silahlanmaqdadır. ABŞ, Fransa, Avropa təcavüzkar dövləti müharibəyə hazırlayır. Belə bir vaxtda bütün imkanları təhlükəsizliyimiz üçün səfərbər etmək başadüşüləndir və bu, xalqın istəyi, tələbidir.

İşğaldan azad olunan ərazilərin yenidən qurulması və bərpası məqsədilə nəzərdə tutulan 4 milyard manat vəsait torpağa məhəbbətdən, insana qayğıdan qaynaqlanır. Artıq keçmiş qaçqın və məcburi köçkünlər öz ata-baba yurdlarına qayıdırlar, yeni bir həyata qədəm qoyurlar. Bu, böyük xoşbəxtlikdir və bu amal uğrunda qoyulan və artırıla biləcək hər hansı vəsait insanlığa töhfə, xidmətdir. Dövlət büdcəsində sosialyönümlü xərclər büdcə xərclərinin 41 faizini təşkil edir. Yoxsulluğun azaldılması, aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsi sosial-müdafiə və sosial-təminat xərcləri əvvəlki illərdən artıqdır ki, bu da dövlətimizin insanlara qayğısının əyani ifadəsidir.

Azərbaycan dövləti sosial məsələlərin həllinə daim böyük önəm verir. Son beş ildə dövlət büdcəsindən ayrılan vəsaitlərin həcminin mütləq ifadədə 1,6 dəfə artması bunun təsdiqidir. Dövlət büdcəsində növbəti ildə minimum əməkhaqqının və minimum pensiyanın artırılması, sosial müavinətlər və təqaüdlər istiqamətində əsaslı tədbirlərin görülməsi, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Ümumilikdə sosial paket 3 milyon insanı əhatə edəcək. Bu, milyonlarla insanın sosial vəziyyətini yaxşılaşdıran sosial qayğının ifadəsidir.

2025-ci ilin dövlət büdcəsinin gəlirlərinin 38 milyard 316 milyon manat, xərclərinin 41 milyard 367 milyon 600 min manat məbləğində nəzərdə tutulması iqtisadi inkişafımızın göstəricisidir. 2025-ci ilin dövlət büdcəsində kənd təsərrüfatı xərclərinin 1171,9 milyon manat nəzərdə tutulması və həmin vəsaitin 510,7 milyon manatının mövcud olan su ehtiyatlarından səmərəli istifadəsinin təmin olunmasına, müasir texnologiyaların tətbiq edilməsinə, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılmasına yönəldilməsi, həm də büdcədən toxumçuluğun, heyvandarlığın inkişafı üçün əlavə vəsaitlərin ayrılması aqrar sahəyə dövlətin qayğısı kimi dəyərləndirilməlidir. Belə bir qayğının nəticəsidir ki, cari ilin 9 ayı ərzində aqrar sənaye məhsullarının ixracının dəyəri dəfələrlə artıb, kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə ümumi dəyəri 11 milyard 407,1 milyon manat olub. Ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı artır, aqrar sektor ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasında başlıca rola malik, gəlir gətirən sahəyə çevrilir. Dünyada baş verən hadisələr - amansız müharibələr, qarşıdurmalar, iqlim dəyişikliklərinin yaratdığı problemlər - quraqlıq, su, qida çatışmazlıqları bəşəriyyəti imtahana çəkir və bu hallar Azərbaycana da təsir göstərməyə bilməz. COP29 kimi dünya əhəmiyyətli bir tədbirin ölkəmizdə uğurla keçirilməsi bunun ifadəsi idi və beynəlxalq aləm bir daha Azərbaycanın qüdrətinin, məharətinin, təşkilatçılığının şahidi oldu.

İqtisadiyyatımızın inkişafı, insanların sosial vəziyyətinin gündən-günə yaxşılaşması, beynəlxalq aləmdə dövlətimizin nüfuzunun yüksəlməsi qürurvericidir. Cənab İlham Əliyevin siyasi kursunun qələbə zəfərləri yeni nailiyyətlərə yol açır, dövlətimizi və xalqımızı ucaldır, yüksəlişimiz üçün yeni imkanlar yaradır. Ancaq ən vacib məsələ milli təhlükəsizliyimizi təmin etmək, ordumuzu gücləndirmək, müdafiə qabiliyyətimizi artırmaq, işğaldan azad olunan ərazilərin bərpasını sürətləndirmək və vətəndaşlarımızın qayğısına qalmaq, həyat səviyyələrini yüksəltməkdir.

2025-ci ilin büdcəsi qeyd olunan vəzifələrin öhdəsindən gəlmək üçün əhəmiyyətlidir və xalqın xoşbəxtliyinə, dövlətin inkişafına xidmətə yönəldilmişdir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

# Azərbaycandan dünyaya "yaşıl çağırış"lar




## COP29 təkcə qlobal iqlim tədbiri deyildi

### Həm də xalqımızı və ölkəmizi dünyaya təqdim etmək üçün növbəti fürsət idi

**Nə sirdirsə, hansısa böyük bir addım atmaq istəyəndə səni dəstəkləyənlərlə yanaşı, bu işi pozmaq istəyənlər də tapılır. Tutacaqları isə ağlagələn və gəlməyən "səbəb"lər olur. Yazılmamış bu "qayda" sadə məişət hadisəsindən tutmuş böyük dövlət tədbirlərinədək özünü göstərir.**

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıqlar ərəfəsində qlobal tədbirə "kəc" baxan, gözügötürməyən xarici qüvvələr, boykot etmək fikrinə düşənlər qalsın bir yana, daxildə də COP29-u həzm edə bilməyənlər özlərini açıq-aydın büruzə verdilər. Özlərini "müxalifət" adlandıran qərəzli kəslər var gücü ilə çalışdılar ki, hansısa bir neqativ "fakt" tapıb tədbirin üstünə kölgə salsınlar.

Təbii ki, onları belə nəhəng qlobal tədbirin ölkəmizə xeyir, nüfuz gətirən tərəfləri qətiyyən maraqlandırmırdı. Ekologiyanı qoyaq kənara, baxmayaraq ki, indiki vaxtda dünyanı ən çox rahatsız edən iqlim dəyişməsi və onun fəsadlarıdır, məgər COP29 ölkəmizin turizm sektoruna az fayda verdi?! İldə 5 milyondan çox turist qəbul etmək imkanı olan Azərbaycan həmin günlər 70 mindən çox əcnəbi qonağı qəbul etdi. Onlar iki həftə paytaxtdakı 300-ə yaxın hoteldə qaldılar. COP29 nümayəndələri ayrıca kirayə evlərlə də təmin olundular. Şəhərin taksi xidməti, ictimai iaşə şəbəkəsi əcnəbilərin xidmətində dayandı. Və bütün bunların xərcini Azərbaycan deyil, dünyanın dörd bir yanından gəlmiş qonaqlar özləri ödədilər. Necə deyərlər, öz ciblərinin pulu ilə həm bizim xidmət sektorumuza qazanc verdilər, həm də Bakını gəzdilər, şəhərimizin gözəlliklərini gördülər, ölkəmizi, xalqımızı tanıdılar, adət-ənənələrimizlə tanış oldular.

COP ingiliscə "Conference of the Parties", yəni Tərəflər Konfransı adlanır və adındakı 29 rəqəmi qlobal tədbirin sayını göstərir. COP-a evsahibliyi edən hər hansı ölkə boynuna böyük məsuliyyət götürmüş olur. Çünki bu, sıradan bir tədbir deyil. COP-da qlobal iqlim məsələləri müzakirə edilir. Ona görə də danışıqlar aparmaq üçün dünya liderlərini, hökumət rəsmilərini, alimləri, mütəxəssisləri, QHT nümayəndələrini və digər maraqlı tərəfləri bir araya gətirmək ev sahibindən böyük səriştə və təcrübə tələb edir. Bu baxımdan ev sahibi beynəlxalq əməkdaşlıq, investisiya və iqlim liderliyini nümayiş etdirmək fürsəti əldə etmiş olur.

Gələk bu fürsətdən istifadə etməyimizə. Azərbaycan xalqının qonaqpərvərliyindən yazmağa ehtiyac yoxdur - hamının qəbul etdiyi reallıqdır. Azərbaycanlılardan başqa "qonaq Allah qonağıdır" deyən başqa millət varmı, yoxmu bilmirik, amma biz qapımızı döyən hər kəsi evimizin başına keçiririk, yaxşı nə var ona veririk. Təsadüfi deyil ki, hələ keçmişdə ata-babalarımız ev tikərkən qonaq-qaranı da nəzərə alıblar. Hər evdə qonaq otağı olub, nənələrimiz, analarımız həmin otaqda ilin bütün fəsillərinə aid ayrıca yorğan-döşək, qab-qacaq saxlayıblar, mətbəxdə qəfil qonaq üçün ehtiyat ərzaq tədarük ediblər.

Bütün bu dəyərləri əsrlərdir qanında-canında daşıyan bir xalq necə dünyanın dörd yanından gələn COP29 iştirakçılarını - qonaqları soyuq qarşılaya bilərdi?! Axı COP29-un sayəsində Bakı iki həftə dünyanın diqqət mərkəzində oldu, ekoloqların nəbzi Azərbaycanda döyündü. Dövlətimiz dünya ölkələrini bir masa ətrafında toplayaraq bəşəriyyət üçün vacib olan iqlim müzakirəsinə moderatorluq etdi. Bütün bunlar təbii ki, yüksək mədəniyyət sərgiləməklə, milli adətlərimizin fonunda ortaya qonaqpərvərlik nümunəsi qoymaqla həyata keçirildi. Bu zamana kimi müxtəlif beynəlxalq tədbirlərə - idman yarışlarına, musiqi festivallarına, elmi konfranslara evsahibliyi edən Azərbaycan üçün COP29 növbəti qlobal missiya idi. Azərbaycan da həmin missiyasını yerinə yetirdi, özü də adına layiq səviyyədə. COP29-da dünyanın iqlim sarıdan gələcəyini müəyyən edəcək bir sıra mühüm qərarlar qəbul edildi. "Yaşıl keçid" üçün inkişaf etməkdə olan ölkələrə ildə 300 milyard dollar həcmində vəsaitin ayrılması barədə razılığa gəlindi. Bakıda reallaşan bu razılıq üçün 10 il zaman lazım olmuşdur.



COP29-un "yaşıl zona"sındakı Azərbaycan pavilyonu əcnəbilərin ən çox ziyarət etdikləri məkan idi. Xalqımızın milli-mənəvi dəyərlərini özündə əks etdirən xalçalarımız, kəlağayılarımız, qədim məişət əşyalarımız, gözəlliyi ilə gözoxşayan, qadınlara məxsus incə, zərif aksesuarlarımız haqqında bilgi əldə edən qonaqlar azərbaycanlı təmsilçilərin gülər üzünü, səmimi davranışını, mehriban təbəssümünü görəndə elə bil ki, özləri də dəyişirdi. Soyuqqanlı ingilisin, ciddi almanın, çılğın italyanın simasında yaranan xoş təbəssümü görmək mümkün deyildi. Hələ onu demirik ki, qəzet və saytlara, xəbər agentliklərinə, televiziyalara müsahibə verən hər bir əcnəbinin ilk sözü "Bakı çox gözəldir, insanları gülərüzdür, yeməkləri çox dadlıdır" olurdu.

Şübhəsiz, COP29-un iştirakçıları ölkələrinə xoş təəssüratla qayıtdılar. Onların özləri ilə apardıqları xoş ovqat Azərbaycan xalqının başucalığı, dövlətimizin uğurudur. Amma nə yazıq ki həmin uğuru gözardı edənlər də oldu. Halbuki COP29 təkcə qlobal iqlim tədbiri deyildi, həm də Prezident İlham Əliyevə və Azərbaycan dövlətinə etimad, inam və hörmətin göstəricisi idi. Dövlətimiz və onun lideri bu hörməti əməli işi, müstəqil siyasəti, prinsipial mövqeyi, beynəlxalq hüquqa olan sədaqəti ilə əldə edib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## COP29-un qərarları Paris İqlim Sazişinin tam icrasını təmin edəcək

### Qlobal istiləşmənin qarşısını yalnız beynəlxalq həmrəyliklə almaq mümkündür

**İqlim dəyişikliyi inkişaf səviyyəsindən asılı olmayaraq, bütün ölkələrə təsir edən ümumbəşəri problemdir. Bu, qlobal temperaturun artmasına, buzlaqların əriməsinə, dəniz səviyyəsinin qalxmasına, anomal hava şəraitlərinə, bioloji müxtəlifliyin, qida və su resurslarının azalmasına səbəb olur.**

Milli Okean və Atmosfer Tədqiqatları İdarəsinin (NOAA) məlumatlarına əsasən, oktyabr tarix ərzində müşahidə edilmiş ikinci ən isti ay olub. Belə ki, həmin ay ortalama temperatur göstəricisi 15,32 dərəcə təşkil edib. Bu isə ötən ilin eyni ayında müşahidə edilmiş ortalama temperatur göstəricisindən yalnız 0,05 dərəcə aşağıdır.

Oktyabrda Yer səthinin 12 faizində yüksək temperatur göstəricisi müşahidə edilib. Keçən ayın temperaturu Qrenlandiya, Mərkəzi və Cənubi Afrika, Mərkəzi Asiyanın bəzi regionları və Antarktidanın şərq regionunun böyük hissəsi istisna olmaqla, quru sahənin böyük hissəsində orta temperaturdan daha yüksək olub.

Mütəxəssislər planetin istiləşməsinin əsas səbəbini insan fəaliyyəti nəticəsində atmosferə ifraz olunan istixana qazları ilə əlaqələndirirlər. NOAA-nın məlumatları sayəsində müəyyən edilib ki, 2024-cü il tarix ərzində müşahidə edilmiş ən isti ildir.

İqlim dəyişikliyinin yaratdığı fəsadların qarşısının alınması istiqamətində təcili tədbirlər görülməsə, bəşəriyyətin və Yer kürəsinin gələcəyi üçün fəlakətlər qaçılmaz olacaq. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə, 3,6 milyard insan iqlim dəyişikliyinə yüksək dərəcədə həssas olan bölgələrdə yaşayır. 2030-2050-ci illər arasında qidalanma, malyariya, ishal və istilik stresi kimi iqlimlə əlaqəli amillərin hər il əlavə 250 min ölümə səbəb olacağı proqnozlaşdırılır.

Mütəxəssislər bildirirlər ki, iqlim böhranı ilə mübarizə aparmaq və onun dağıdıcı təsirlərinin qarşısını almaq üçün 2100-cü ilədək qlobal temperatur artımı 2 dərəcənin altında saxlanılmalıdır. Bu isə yalnız bir ölkənin, ayrı-ayrı fərd və ya təşkilatların əldə edə biləcəyi nailiyyət deyil. Bunun üçün beynəlxalq əməkdaşlıq, texnoloji inkişaf və sosial dəyişikliklər lazımdır. BMT-nin iqlim dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyaları da bu istiqamətdə böyük əhəmiyyət kəsb edir.

2015-ci ildə Fransada keçirilən COP21-də qəbul edilmiş Paris İqlim Sazişi qlobal istiləşməni sənayedən əvvəlki səviyyədən maksimum 1,5 dərəcəyə qədər məhdudlaşdırmağı nəzərdə tutur. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında məsuliyyətin bölüşdürülməsi məsələsinə xüsusi diqqət yetirilən saziş hər bir ölkənin iqlim dəyişikliyinə töhfəsini və onu azaltmaq üçün fərqli imkanlarını nəzərə alaraq ədalətli keçidin təmin edilməsini hədəfləyir. İnkişaf etmiş ölkələr maliyyə və texnologiya sahələrində inkişaf etməkdə olan ölkələrə dəstək verməyi öhdəlik kimi qəbul ediblər.

Azərbaycan da iqlim dəyişikliyi ilə bağlı Paris Sazişini imzalayan dövlətlər arasındadır. Üzərinə düşən öhdəlikləri yerinə yetirən ölkəmiz iqlim dəyişikliyinin yaratdığı fəsadların aradan qaldırılması, istixana qazı emissiyalarının azaldılması, bərpaolunan enerji mənbələrinin istifadəsinin artırılması və enerji səmərəliliyinin təkmilləşdirilməsi istiqamətində mühüm addımlar atır. COP29-un məhz Azərbaycanda keçirilməsi də bunun bariz göstəricisidir.

COP29-da qəbul edilmiş qərarlar qlobal iqlim siyasətində dönüş nöqtəsi kimi qiymətləndirilir. Emissiyaların azaldılması sahəsində atılacaq hər bir addım, xüsusilə kömür kimi yüksək karbonlu yanacaqlardan tədricən imtina edilməsi və bərpaolunan enerji mənbələrinə keçid strategiyaları həlledici rol oynayır. Mütəxəssislər, həmçinin meşələrin bərpası, dayanıqlı kənd təsərrüfatı metodlarının tətbiqi və təbiətin qorunması kimi təbii həll yollarının da vacibliyini qeyd edirlər.

Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. Bu tarixdən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir. Prezident İlham Əliyev ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "yaşıl enerji" zonası elan edib. Bu ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulur.

İqlim konfransının nəticələri dünya miqyasında iqlim dəyişikliyinə qarşı mübarizədə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. COP29-da qəbul olunan qərarlar Paris Sazişinin tam icrasına şərait yaradaraq, daha sağlam gələcək qurmağa xidmət edəcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




COP29 Baku Azerbaijan

**Azərbaycan dünyada tam müstəqil siyasət yürüdən dövlət kimi qəbul edilir. Ötən illərdə respublikanın milli inkişaf strategiyası, siyasi-iqtisadi, mədəni-mənəvi təkamül konsepsiyası, vahid ideologiyası formalaşmışdır. Olkəmizin apardığı daxili və xarici siyasət, beynəlxalq və regional qurumlardakı fəallığı, hamılıqla təsdiqini tapmış dəyər və prinsiplərə münasibəti onun dünyadakı yerini və rolunu müəyyən etmişdir. Böyük dövlətçilik nailiyyətlərinə imza atan Azərbaycanın xarici siyasət kursu isə artıq beynəlxalq aləmdə hamıya məlumdur. Ölkəmiz müstəqil xarici siyasət yürüdür, hər bir məsələdə öz milli maraqları əsasında formalaşmış qətiyyətli mövqe nümayiş etdirir.**




# Ermənistan silahlanmanı dayandırmasa...

## Xalqımızın birliyi, dövlətimizin gücü, Liderimizin qətiyyəti ilə hesablaşmalı olacaq

Azərbaycan uzun illərdir ki, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Bu imicini getdikcə daha da möhkəmləndirir. Dövlətimiz həyata keçirilən siyasətin effektivliyi, sosial-iqtisadi uğurları, regional və qlobal proseslərə təsir imkanları, təşəbbüskarı və əsas icraçılarından olduğu layihələrlə hazırda böyük bir coğrafiyanın çox güclü, nüfuzlu aktoru kimi qəbul edilir.

Xüsusi qeyd edilməlidir ki, artıq başa çatan COP29 kimi mötəbər tədbirin keçirilməsinin ölkəmizə həvalə edilməsi, onun yüksək səviyyədə təşkili Azərbaycanın beynəlxalq müstəvidəki böyük siyasi qələbəsi, irimiqyaslı diplomatik uğuru oldu. Dünya bir daha bizim imkan və bacarıqlarımızın, vətəndaşlarımızın intellektual səviyyəsinin, ümumilikdə isə insan potensialımızın gücünün və perspektivlərinin şahidinə çevrildi. İştirakçıların kütləviliyinə və beynəlxalq aləmin diqqətini özünə cəlb etməsinə görə COP29 ən uğurlu mötəbər əhəmiyyətli tədbirlərdən biri kimi tarixə düşdü.

Azərbaycan dövləti Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun gücü ilə əldə etdiyi tarixi Zəfər sayəsində Cənubu Qafqazda yeni reallıqlar yaradır. Əsrlər ərzində ilk dəfə bu bölgədə əbədi sülh, qarşılıqlı əməkdaşlıq, davamlı inkişaf üçün çox böyük imkanlar açılır. Bunları formalaşdırıb bütün Cənubi Qafqaz xalqlarına təqdim edən və hər kəsi böyük niyyətlərin gerçəkləşməsi, regionumuzun gələcək xoşbəxtliyi üçün birgə fəaliyyətə çağıran məhz Azərbaycandır. Bu cür imkanların vaxtında və düzgün dəyərləndirilməsi bəzən illər sonranın siyasi, iqtisadi, sosial-mədəni mənzərəsini müəyyən edir. Ona görə də Azərbaycan dövləti mövcud fürsətlərin itirilməməsinə, hansısa Qərb ölkələrinin təxribatçı ünsürlərinin maraqlarına görə bölgəmizin gələcəyinin yenidən risklər altında qalmamasına çalışır.

### "Heç kəs bizimlə rəqabət aparmaq gücündə olmayacaq"

Əfsuslar olsun ki, Azərbaycanın xoşməramlı cəhdlərinə maneə yaratmağa çalışan qara qüvvələr hər zaman olduğu kimi yenə də çoxdur. Ölkəmizin yaratdığı yeni tarixi reallıqları qəbul etmək istəməyənlər vəziyyəti öz xeyirlərinə dəyişmək kimi çirkin və təhlükəli planları ilə regionu qarışdırıb bulanıq suda balıq tutmağa çalışırlar.

Hazırda onların məqsədi Ermənistandan növbəti dəfə pozucu alət kimi istifadə etmək, bu respublika daxilində revanşizmi alovlandırmaq, hərbi təxribatlar hazırlamaqdır. Ermənistanda baş verənlər, rəsmi İrəvanın davranışları onların əsrlər boyu adət etdikləri "ənənələrə sadiqliklə" bu dəfə də başqalarının əlində oyuncaq vasitə olmağa həvəslə razılaşdıqlarını göstərir. Azərbaycan Prezidenti İlham Əliyev bu il noyabrın 8-də Zəfər parkının açılışındakı müraciətində bunları xüsusi vurğuladı: "Minsk qrupunun bütün həmsədrləri 30 il ərzində Ermənistanın arxasında dayanmışdı, biri pulsuz silah verirdi, biri pul verirdi, biri həm silah, həm pul verirdi, siyasi dəstək verirdi, bir məqsədlə ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlasınlar. Ona görə, təbii olaraq Azərbaycan vətəndaşlarının bəziləri narahat idi ki, müharibə yarımçıq qalacaq, biz öz istədiyimizə nail ola bilməyəcəyik, bizi kimsə dayandıracaq. Amma mən dedim, yox, heç kim bizi dayandıra bilməz, öldü var, döndü yoxdur. Sona qədər vuruşacağıq, ədaləti bərpa edəcəyik, beynəlxalq hüququ bərpa edəcəyik və Ermənistana onun yerini göstərəcəyik.

2020-ci il noyabrın 8-də tarixi Şuşa əməliyyatı demək olar ki, düşmənin belini qırmışdır. Ondan sonra cəmi bir gün keçdi və noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu və biz müharibəni dayandırdıq".

Ermənistanın daxili siyasətində revanşizm hissləri getdikcə üstünlük təşkil etməyə başlayır və bu, ümumilikdə regionumuzun təhlükəsizliyi üçün təhdidlər doğurur. Buna şərait yaradan əsas amillərdən biri Ermənistanın hərbi sahədə gücləndirilməsinə beynəlxalq dəstəyin göstərilməsidir. Xüsusilə Fransa bu istiqamətdə aktiv rol oynayır. Bu ölkə Ermənistanın silahlandırılması prosesində aparıcı aktorlardan biridir. Aparılan bu çirkin siyasət təkcə Fransanın iştirakı ilə məhdudlaşmır. ABŞ, konkret desək, artıq ömrünü başa vuran Bayden administrasiyası da Ermənistanın hərbi potensialını artırmaq istiqamətində addımlar atır. 2024-cü ilin 5 aprelində Brüsseldə keçirilən görüşdə ABŞ və Avropa İttifaqının Ermənistanla birgə hərbi pakt qurması məsələnin nə qədər təhlükəli olduğunu göstərir.

Yada salaq ki, həmin tarixdə Ermənistan-Avropa İttifaqı-ABŞ formatında keçirilən Brüssel görüşündə İrəvana sadəcə maliyyə yardımının edilməsi qərarı barədə rəsmi açıqlama verilsə də, görüşün guya sırf iqtisadi səciyyə daşıdığı barədə rəy yaradılsa da, apreldən sonra Ermənistana daşınan silah-sursatlar bunun dolayısı ilə hərbi pakt olduğunu göstərdi.

İndi bu məsələ yenidən gündəmə gəlib. Qərbin təhriki ilə məğlub ölkə sülh proseslərindən yayınaraq müharibəyə hazırlaşır. Bu ölkələrin Ermənistana silah yardımı ilk növbədə regional sabitliyi pozur. Azərbaycanla Ermənistan arasında sülh üçün indiyədək heç zaman olmadığı qədər əlverişli bir imkanın yarandığı vaxtda münasibətlərin yenidən gərginləşməsinə, qonşu ölkədə məqsədli şəkildə alovlandırılan revanşizm əhvalı fonunda yeni münaqişə riskləri doğurur. Əslində, Qərb Ermənistanı yeni münaqişələrə təşviq edir, Azərbaycanın təhlükəsizlik mühitinə birbaşa təhdidlər yaradır. Təhlükəli hallardan biri də Avropa İttifaqının bu dəstəyinin işğalçı mahiyyətli Ermənistanın təcavüzkar siyasətinin legitimləşdirməsinə, bu siyasətə beynəlxalq dəstəyin əldə olunmasına xidmətdir. Ona görə də Ermənistana hərbi yardımlar Azərbaycanın ərazi bütövlüyünə qarşı birbaşa təhdid kimi qəbul edilməlidir. Bu isə Ermənistan dövləti üçün tam faciə ola bilər.

Bölgədə belə bir hərbi paktın formalaşması Rusiya, Türkiyə və İran kimi regional güclərin maraqlarına da ziddir. Bu, bölgəmizdə geosiyasi rəqabəti daha da kəskinləşdirə və Cənubi Qafqazı böyük güclərin qarşıdurma meydanına çevirə bilər ki, belə bir halın ən böyük ziyanı sülh, sabitlik, əmin-amanlıq arzusu ilə gündəlik həyatını yaşayan insanlara dəyər. Belə bir dəstək Ermənistanı sülh danışıqlarından yayındırır, sülhyaratma prosesinə maneələr törədərək regionda uzunmüddətli sabitlik perspektivini təhlükə altına salır. Dövlətimizin başçısı Bakıda Zəfər parkının açılışı zamanı xalqımıza müraciətində də bu məsələyə toxunaraq demişdi: "Öz maraqlarını təmin etmək üçün, onların dostları sayılan bəzi Qərb dövlətləri onları qurban verməyə hazırdırlar ki, yenə də Cənubi Qafqazda ara qarışsın, yenə də qan tökülsün, yenə də onlar bulanıq suda balıq tuta bilsinlər. Hələ ki, gec deyil, ona görə Ermənistan bu silahlandırma siyasətindən əl çəkməlidir, buna son qoyulmalıdır, mən dəfələrlə bunu demişəm və onlar bilirlər ki, mənim sözümə diqqət yetirmək lazımdır. Hələ ki gec deyil, bundan əl çəksinlər, onlar heç vaxt bizimlə rəqabət aparmaq gücündə olmayacaqlar. Biz müharibə istəmirik".

### Ermənistanın süni sülhpərvər obrazı

Bu gün Paşinyanın reytinqi aşağı düşür və bunun qarşısını almaq üçün onun yeniliyə ehtiyacı var. Ermənistan hakimiyyəti bu yeniliyi hərbi əməliyyatlarda və Azərbaycan üzərində kiçik də olsa, qələbə qazanmaqda görür. Amma çox yanılır.

Digər tərəfdən, Ermənistanın arxasında duran Fransa, həmçinin Avropa İttifaqı aydın görürlər ki, Ukrayna cəbhəsində istədiklərinə nail ola bilmirlər, vəziyyət daha da ağırlaşır, Rusiya irəliləyir. Ona görə də Rusiyanın diqqətini başqa səmtə yönəltmək və onun sərhədlərinə yaxın yeni münaqişə ocağı yaratmaqla qüvvələrini bölməyə çalışırlar. Əslində, Ermənistanın yeni müharibə avantürası Qərbin növbəti planıdır. Burada Ermənistan hakimiyyəti ilə Qərbin maraqları üst-üstə düşür.

Ermənistanın hərbi sahədə inkişafına töhfə verənlər sırasında Hindistan da var. Hindistanın Ermənistanla hərbi əməkdaşlıq siyasəti, regionda balansın pozulmasına və yeni münaqişə risklərinin yaranmasına səbəb olur. Bu ölkənin BMT Təhlükəsizlik Şurasına üzvlük ambisiyaları isə bu siyasət fonunda xüsusilə ciddi suallar yaradır. Militarist addımlar atan və yeni münaqişə ocaqları yaratmağa çalışan bir ölkənin belə mühüm bir qurumda təmsil olunmaq iddiası beynəlxalq hüquq prinsipləri ilə qətiyyən bir araya sığmır.

Qərbin təhriki ilə Hindistandan silah alınması, Yunanıstanın "S300" raket komplekslərini Ermənistana vermək niyyəti Avropa İttifaqının ölkəmizə qarşı düşmən münasibətinin nəticəsidir. Bu silahlanma Cənubi Qafqaz regionunda vəziyyətin gərginləşməsinə, kövrək sülhün pozulmasına, yeni müharibənin başlanmasına aparır.

Bütün bunlara rəğmən Azərbaycan sülh prinsiplərinə sadiqdir və regionda əbədi sülhün təmin olunması üçün bütün imkanlardan istifadə etməyə çalışır. Amma baş verənlər fonunda Azərbaycan və Ermənistan arasında davam edən sülh prosesləri də bir çox hallarda birtərəfli şəkildə təqdim olunur. Belə ki, beynəlxalq ictimaiyyət tərəfindən Ermənistanın sülh tərəfdarı kimi göstərilməsinə cəhdlər müşahidə olunur. Bu, tarixi faktların birbaşa təhrif olunmasıdır. Ermənistanın Azərbaycan torpaqlarını 30 ildən çox işğal altında saxlaması, bir milyondan çox azərbaycanlının on illərlə qaçqın və məcburi köçkün vəziyyətində yaşaması, Azərbaycanın maddi-mədəni sərvətlərinin talan edilməsi faktları bu çağırışlarda nəzərə alınmır. Halbuki ədalət prinsiplərinin qorunması üçün sülhyaratma proseslərində mütləq bu məsələlər də nəzərə alınmalı və ədalətli yanaşma təmin olunmalıdır.

Azərbaycanın öz torpaqlarını azad etməsi beynəlxalq hüquqa uyğun şəkildə həyata keçirilən bir proses idi. Respublikamız öz huquqlarından istifadə edərək ərazi bütövlüyünə, dövlət suverenliyinə nail oldu. BMT Təhlükəsizlik Şurasının Ermənistan hərbi birləşmələrinin Azərbaycandan çıxarılması barədə illərlə havadan asılı qalmış dörd qətnaməsi ordumuzun gücü ilə yerinə yetirildi. Buna qədər ölkəmiz münaqişənin sülh yolu ilə, heç bir tərəfdən insan itkilərinə yol verilmədən həlli üçün Ermənistana dəfələrlə çağırış etdi. İllərlə aparılan sülh danışıqlarının heç birindən yayınmadı. Hətta Vətən müharibəsinin ilk günlərindən Ermənistanın labüd məğlubiyyəti artıq görünərkən yeni itkilərin baş verməməsi üçün ona qoşunlarını Azərbaycan ərzilərindən çıxarması, bununla bağlı qrafik verməsi və hərbi əməliyyatların dayandırılması çağırışlarını səsləndirdi. Amma Ermənistan rəhbərliyi, konkret olaraq ölkənin baş naziri Nikol Paşinyan və ətrafındakılar havadarlarının onlara kömək edəcəkləri barədə xam xəyallara qapılaraq bu çağırışlara məhəl qoymadılar. Yalnız Şuşa azad edildikdən sonra artıq dizlərinin yerə gəldiyini görüb faktiki kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldılar.

Bütün bu faktlar hər kəsə aydın ikən, Ermənistanın hazırda sülh tərəfdarı kimi təqdim edilməsi, Paşinyanın demokrat obrazının formalaşdırılması əsl mahiyyəti gizlətməyə xidmət edir. Son illərin prosesləri də bir daha təsdiqləyir ki, Köçəryan, Sarkisyan, Paşinyan və digər şəxslər arasında fərqlər yalnız zahiridir, onların hər biri eyni revanşist siyasəti davam etdirirlər. Paşinyan hökumətinin demokratiya adı altında həyata keçirdiyi siyasət də əslində eyni təcavüzkar mövqeyi davam etdirir.

Bu baxımdan Ermənistanın beynəlxalq aləmdə sülh tərəfdarı kimi təqdim olunması süni xarakter daşıyır. Beynəlxalq ictimaiyyətin Ermənistanın xalqımıza qarşı törətdiyi soyqırımı aktlarını, Azərbaycan torpaqlarında illərlə vandallıq etməsi, təcavüzkar siyasəti görməzdən gəlməsi regionda daimi sabitlik üçün ciddi maneədir.

### Qərbin çirkin planlarına qarşı qətiyyətli addımlar atılacaq

Azərbaycana qarşı Qərbin təhlükəli strategiyasını həyata keçirmək planı heç bir nəticə verməyəcək. Bunu unutmasınlar. Onlara ən tutarlı cavab ölkəmizin müstəqil siyasəti, inkişaf yoluna davam etməsi, getdikcə güclənərək qurduğu cavab strategiyasıdır.

Azərbaycan regionda sabitliyin qorunması və milli maraqlarının müdafiəsi istiqamətində ardıcıl və qətiyyətli addımlar atır. Ermənistanın və onun beynəlxalq tərəfdarlarının təzyiqləri qarşısında dövlətimiz heç bir halda güzəştə getməyəcək. Lazım olan istənilən halda Azərbaycan Ermənistanın hər hansı təxribatına layiqli cavab verməyə və regiondakı bütün planlarını pozmağa hazır və qadirdir. "Otuzillik işğal tarixi bizim yaddaşımızdan silinmir və bayaq dediyim kimi, heç vaxt silinməməlidir. Biz hər an yeni təxribata hazır olmalıyıq və hazırıq. Azərbaycan Silahlı Qüvvələri hər an təxribatı dəf etmək üçün hazır vəziyyətdədir. Əgər kimsə yenidən bizim gücümüzü sınamaq istəyirsə, yenidən məğlub olacaq, yenidən biabır olacaq. Çünki 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı, bizim Zəfərimiz təkcə Ermənistanın məğlubiyyəti deyil, onların arxasında duranların acı və alçaldıcı məğlubiyyətidir", - Azərbaycan Prezidenti deyib.

Ölkəmizin bu mövqeyi yalnız hərbi gücə deyil, həm də beynəlxalq hüququn prinsiplərinə əsaslanır. Dövlətimizin ədalətli mövqeyi regionda sülhün təmin olunmasının ən etibarlı təminatıdır. Beynəlxalq aləm bu reallığı qəbul etməli və regionda sabitliyin qorunmasına dəstək olmalıdır. Bədxahlarımız öz mənfur planları, cılız maraqları üçün regionumuzu qana çalxalamamalıdırlar. Anlamalıdırlar ki, ölkəmizi hər hansı təzyiqlərlə haqq yolundan uzaqlaşdırmaq mümkün deyil. Azərbaycanın hərbi və siyasi gücü, xalqının birliyi və dövlətinin qətiyyəti hər cür təhlükəli planların qarşısını almaq üçün kifayətdir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Təhsil və mədəniyyətin inkişafına dövlət qayğısının təzahürü

**Xalqın tərəqqisinə, uğurlu gələcəyinə yol açan təhsilin inkişafı, milli-mənəvi dəyərlərin qorunması və təbliği Azərbaycan dövlətinin prioritet istiqamətlərindəndir.**

Son illər ölkəmizdə təhsilə qayğı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi işi ümummilli səviyyəyə yüksəldilib. Respublikamızın bütün bölgələrində müasir tələblərə uyğun minlərlə yeni məktəb binası tikilib və ya təmir edilib. Geniş bazaya malik təhsil infrastrukturu yaradılıb. Bu sahədə əhəmiyyətli layihələr icra olunur, dövlət proqramları həyata keçirilir. Görülən işlər Azərbaycanın gələcək uğurlarını təmin edəcək, ölkəmizin adını yeni zirvələrə ucaldacaq bu günün şagirdlərinin daha yaxşı təhsil almalarına, savadlı olmalarına şərait yaradır.

Azərbaycanda mədəniyyət və incəsənətə dövlət qayğısı da yüksələn xətlə davam edir. Bu sahənin inkaşafı üçün də Prezident İlham Əliyev tərəfindən çoxsaylı fərman və sərəncam imzalanıb, bir sıra islahatlar həyata keçirilir. Dövlət başçısının sərəncamına əsasən, mədəniyyət ocaqlarının yubileyləri təntənə ilə qeyd olunur.

Görkəmli sənət adamlarının yubileyləri həmçinin Azərbaycan Prezidentinin fərdi təqaüdünün və mükafatlarının verilməsi haqqında sərəncamları dövlətimizin başçının mədəniyyətimizə, sənət adamlarımıza göstərdiyi diqqət və qayğının nümunəsidir. Prezident İlham Əliyev vurğulayıb: "Xalqımızı xalq kimi, millət kimi qoruyub saxlayan bizim ənənələrimiz olub, tariximiz olub, ədəbiyyatımız, ana dilimiz və mədəniyyətimiz olubdur. Mədəniyyət, ədəbiyyat, milli musiqi, ana dilimiz tarixi keçmişimizdir - biz bu sahələrə böyük diqqət göstərməliyik".

Dövlətimizin digər sahələr kimi təhsilin, mədəniyyətin inkişafına göstərdiyi diqqət və qayğının daha bir göstəricisi Milli Məclisdə birinci oxunuşda qəbul edilən "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında" qanun layihəsidi. Belə ki, gələn il təhsil, mədəniyyət sahələrinə ayrılan xərclər artırılacaq.

Diqqətə çatdıraq ki, növbəti ilin dövlət büdcəsi layihəsində təhsil xərclərinə 4946,1 milyon manat ayrılması proqnozlaşdırılır. Bu, 2024-cü illə müqayisədə 395,7 milyon manat və ya 8,7 faiz çoxdur. Valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, əlil olmuş şəxslərin və keçmiş məcburi köçkünlərin övladları olan tələbələrin, müharibə veteranlarının ali təhsil xərclərinin dövlət hesabına ödənilməsi üçün 41 milyon manat vəsait ayrılacaq.

2025-ci ildə mədəniyyət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti üzrə ayrılan vəsait cari illə müqayisədə 10,4 faiz artırılaraq 635,0 milyon manat təşkil edəcək.

Son illərin davamlı uğurları sayəsində dünyada nüfuzu yüksələn Azərbaycan yeni hədəflər müəyyənləşdirir və onlara doğru qətiyyətlə irəliləyir. Vətən müharibəsində qazandığımız Zəfər bu illərin ən böyük tarixi hadisəsi oldu. Müharibədən üç il sonra - 2023-cü ildə aparılan lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda separatizmin kökü kəsildi. Azərbaycan öz suverenliyini tam bərpa etdi.

Qalibiyyətlə qürur duymaq da, öyünmək də olar. Ancaqləngimək olmaz. Çünki əldə olunmuş nailiyyətləri qoruyub saxlamağın yolu yeni uğurlara imza atmaqdır. Azərbaycan məhz bu yolu tutub.

Azərbaycan Ordusu qəsbkar Ermənistan silahlı qüvvələrini məğlub edərək otuz ilə yaxın işğal altında qalan ərazilərimizi azad etdi. Təəssüf ki, işğalçılar həmin abad yerləri xarabalığa çevirmişdilər. İndi Azərbaycan o torpaqlara Böyük qayıdış proqramı həyata keçirir. Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma işləri postmüharibə dövrünün əsas prioritetlərindəndir. Erməni vandallarının dağıtdıqları, yerlə yeksan etdikləri kəndlərimizi, qəsəbələrimizi, rayonlarımızı, şəhərlərimizi dövlətimiz yenidən qurur. Qarabağın və Şərqi Zəngəzurun əhalisi uzun illərdən sonra doğma yurdlarına qayıdırlar.

Geniş və sürətli tikinti-bərpa, quruculuq işləri həyata keçirilən həmin ərazilərdə yeni təhsil və mədəniyyət ocaqları inşa olunur. Sevindirici haldır ki, dövlətimizin böyük diqqət və qayğısı ilə təhsil, mədəniyyət və incəsənət sahələrində həyata keçirdiyi yeniliklərin, uğurlu layihələrin reallaşdırıldığı ünvanlar sırasında indi Qarabağ və Şərqi Zəngəzur da var.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# İŞİMİZ, GÜZƏRANIMIZ

## Azərbaycanda əhalinin elə təbəqəsi yoxdur ki, dövlətin sosial tədbirlərindən kənarda qalsın

**Azərbaycanda əhalinin etibarlı sosial müdafiəsini təşkil etmək, genişmiqyaslı sosial infrastruktur layihələrini həyata keçirmək üçün geniş imkanlar mövcuddur və bunları reallaşdırmaq məqsədilə ardıcıl tədbirlər görülür, islahatlar aparılır. Prezident İlham Əliyev bu sahədə yaranan problemlərin aradan qaldırılmasına, sosial məsələlərin yüksək səviyyədə həllinə nail olmaq üçün siyasi iradə nümayiş etdirir: "Azərbaycanda sosial sahədə vəziyyət dünyanın aparıcı ölkələrindən geri qalmamalıdır".**



Ölkənin sosial sahəsinə cavabdeh olan mərkəzi icra orqanları öz fəaliyyətlərini məhz bu tələb səviyyəsində qurmağa çalışırlar. Onlar yaxşı bilirlər ki, sosial siyasətin kökündə insana qayğı, vətəndaşa diqqət, cəmiyyətə hörmət dayanır. Bu siyasəti dövlət institutları həyata keçirsə də, onun ümumi kursunu və məzmununu dövlət başçısı müəyyən edir. Ona görə də Prezident İlham Əliyev sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirir. Şəhid ailə üzvləri və qazilər, aztəminatlı ailələr, fiziki sağlamlığı məhdud olan insanlar və digər qruplarla bağlı Prezident vaxtaşırı qərarlar qəbul edir, onların sosial təminatının yaxşılaşdırılması ilə bağlı göstərişlər verir. Faktlara müraciət edək: postmüharibə dövründə şəhid ailələri və qazilərə ünvanlanan müavinət və təqaüdlər orta hesabla 2 dəfə artıb. Onlar Vətən müharibəsindən sonra 5 min 800, ümumilikdə 14 min 600 mənzillə təmin olunublar. Həmçinin qazilərə son iki ildə 528, Birinci Qarabağ müharibəsi də nəzərə alınmaqla, ümumilikdə 7 min 700 avtomobil verilib. 490 hərbçiyə yüksək texnologiyalı protezlər, 2232 müharibə əlilinə isə 61,1 min reabilitasiya vasitəsi təqdim edilib.

Azərbaycan dövlətinin son dövr həyata keçirdiyi sosial proqramların və bu sahəyə verdiyi önəmin nə dərəcədə əhəmiyyətli olduğu statistik rəqəmlərdə belə ifadə olunur: minimum pensiya 2,5 dəfə artırılaraq 110 manatdan 280, orta aylıq pensiya ümumi göstəricilərdə 2,4 dəfə artaraq 208 manatdan 494 manata yüksəlib. Yaşa görə orta aylıq pensiya 2,3 dəfə artırılaraq 234 manatdan 527, müavinətlərin və təqaüdlərin ümumi məbləği 5 dəfə artaraq 400 milyon manatdan 1,9 milyard manata çatıb. Ünvanlı dövlət sosial yardımı üzrə orta məbləğ isə 2,7 dəfə artırılaraq 175 manatdan 468, yaşayış minimumu 56 faiz artaraq 173 manatdan 270, ehtiyac meyarı 2,1 dəfə artaraq 130 manatdan 270 manata, xalis minimum aylıq əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbəti 2003-cü ildəki 11,7 faizdən 2018-ci ildə 26,5, bu ilin əvvəlində 41,1 faizə yüksəlib.

Xeyli dərəcədə diqqətçəkən bu statistik rəqəmlərin arxasında insan amili, vətəndaşın rifahı dayanır. Məsələn, minimum pensiyanın 2,5 dəfə artırılması xüsusilə yaşlı nəslin gündəlik dolanışığı, güzəranının yaxşılaşması deməkdir. Orta aylıq pensiyaların və müavinətlərin əhəmiyyətli dərəcədə yüksəldilməsi də yaşlı və ahıl vətəndaşlarımızın sosial problemlərinin həlli üçün atılan mühüm addımdır. Ünvanlı sosial yardımların orta məbləğinin dəfələrlə artırılması və ehtiyac meyarının yüksəldilməsi kimi tədbirlər isə əhalinin aztəminatlı təbəqəsinin yaşayış şəraitini yaxşılaşdırmaq və onları daha layiqli həyat səviyyəsinə çatdırmaq məqsədini daşıyır. Bu sadalananlar yalnız maliyyə göstəricilərini deyil, həm də dövlət-vətəndaş münasibətlərində inamın və güvənin, eləcə də sosial bərabərliyin gücləndirilməsi yöndə əldə edilən uğurları əks etdirir. Bu da o deməkdir ki, Azərbaycan əhalisinin rifahı sosial siyasətin prioriteti olaraq bu günün deyil, həm də gələcək illərin strategiyasını əhatə edir.

Mütəxəssislər Azərbaycanda yeni iş yerlərinin açılmasının daimi xarakter aldığını vurğulayırlar. Bu da təsadüfi deyil. Həqiqətən ölkədə məşğulluq proqramları uğurla həyata keçirilir. Prezident İlham Əliyevin imzaladığı fərman və sərəncamlar nəticəsində bu istiqamətdə mühüm irəliləyişlər əldə edilib. Bundan əlavə, təkcə son illər 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi həyata keçirilib. Yeri gəlmişkən, qeyd edək ki, gələn il də yeni sosial paket reallaşdırılacaq. Bu sosial paketin pensiyaların indeksləşdirilməsi ilə birlikdə 3 milyon insanı əhatə etməsi gözlənilir. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Milli Məclisin Əmək və sosial siyasət, İqtisadi siyasət, Sənaye və sahibkarlıq komitələrinin birgə iclasında gələn ilin büdcə zərfi müzakirə olunan zaman deyib: "Gələn il həm minimum əməkhaqqı, həm minimum pensiyanın artırılması, eyni zamanda sosial müavinətlər və təqaüdlər istiqamətində addımların atılması, pensiyaların indeksləşdirilməsi planlaşdırılır. Düşünürəm ki, dövlət büdcəsi və icmal büdcə parlamentdə təsdiq olunduqdan sonra onun parametrləri təsdiq ediləcək".

Sosialyönlü siyasətin bütün bu sadalanan və sadalanmayan gələcək hədəfləri 2025-ci ilin büdcə layihəsində də geniş əks olunub. Bu günlər Milli Məclisdə müzakirə edilən 2025-ci ilin büdcə layihəsi əhalinin sosial rifahını daha da yaxşılaşdırmaq, iqtisadi dayanıqlığı təmin etmək və vətəndaşlara yönəlik siyasəti gücləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Layihədə sosial təminatdan tutmuş, məşğulluq və idarəetmə islahatlarına qədər bir çox prioritet nəzərə alınıb. Sosial təminatın gücləndirilməsi baxımından büdcədə həssas qruplara, şəhid ailələrinə və müharibə əlillərinə yönəli proqramların miqyasının daha da genişləndirilməsi planlaşdırılır. Bu, yalnız maddi dəstək tədbirləri ilə məhdudlaşmır, həm də onların yaşayış şəraitini yaxşılaşdırmağa, cəmiyyətə inteqrasiyasını artırmağa xidmət edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Qarabağda və Şərqi Zəngəzurda məşğulluğun təmin olunması üçün işəgötürənlərlə gələcək əməkdaşlıq müzakirə edilib



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində daha bir qrup işəgötürənlə görüş olub. Görüşdə Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, "Təmiz Şəhər" ASC, "Azərişıq" ASC, "Azərenerji" ASC, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin nümayəndələri iştirak edib.**

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev işğaldan azad edilmiş ərazilərimizə köçürülən sakinlərin dayanıqlı məşğulluğunun təmin olunması məqsədilə icra olunan aktiv məşğulluq proqramları barədə məlumat verib.

Qarabağ və Şərqi Zəngəzurda sakinlərin məşğulluq tədbirləri ilə əhatə olunması, həmçinin onlar üçün peşə hazırlığı kurslarının təşkili işlərində işəgötürənlərlə davamlı əməkdaşlığın həyata keçirildiyi bildirilib. İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən işəgötürənlər üçün tətbiq olunan güzəştlər diqqətə çatdırılıb.

Həmin ərazilərdə məskunlaşan və məskunlaşması nəzərdə tutulan vətəndaşların məşğulluğunun təmin olunması sahəsində görülmüş işlərdən bəhs olunub. İşəgötürənlərlə birgə bu istiqamətdə tədbirlərin daha da gücləndirilməsi və səmərəliliyinin artırılması, gələcək əməkdaşlıq məsələləri müzakirə edilib.

## Masallıda əmək yarmarkası keçirilib

**Masallı şəhərindəki Heydər Əliyev Mərkəzində Dövlət Məşğulluq Agentliyinin Lənkəran-Astara regional məşğulluq filialı tərəfindən əmək yarmarkası keçirilib.**



Yarmarkada iştirak edən 19 işəgötürən müxtəlif sahələr üzrə 127 vakansiya təqdim edib. Bu vakansiyalar arasında təhsil, tibb, kənd təsərrüfatı, tikinti və xidmət sahələri üzrə iş yerləri var idi. 180-dən çox işsiz və işaxtaran təklif edilən vakansiyalarla tanış olmaqla yanaşı, işəgötürənlərlə birbaşa ünsiyyət qurub, potensial iş imkanlarını müzakirə ediblər. Nəticədə xeyli sayda rayon sakini işlə təmin olunub.

***S.CAVADOV,***
***"Azərbaycan"***

## Aqrar Biznes Festivalının növbəti ünvanı Lerik olub

**Lerikdə Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə Aqrar biznes festivalı keçirilib. Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, Aqrar İnnovasiya Mərkəzinin direktoru Anar Cəfərov, Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Jalə Hacıyeva və fermerlər iştirak ediblər.**

Rayon Mədəniyyət mərkəzinin qarşısındakı meydanda düzənlənən festivalda fermerləri maraqlandıran müxtəlif kənd təsərrüfatı təyinatlı məhsullar nümayiş olunub, ayrı-ayrı qurumların mütəxəssisləri dövlət və özəl sektorun əməkdaşlığı çərçivəsində fermer və sahibkarlara göstərilən dəstək barədə məlumat veriblər.

Çıxış edən Ə.Abbasov ölkənin bütün regionlarında olduğu kimi, Lerikdə də kənd təsərrüfatının inkişafına diqqət yetirildiyini və belə tədbirlərin təqdirəlayiq olduğunu diqqətə çatdırıb, fermerlərin maarifləndirilməsi istiqamətində rayonda görülən işlərin mühüm əhəmiyyət daşıdığını və aqrar sahəyə öz töhfəsini verəcəyini vurğulayıb.



A.Cəfərov isə bölgələrdə keçirilən Aqrar Biznes festivallarının əsas məqsədinin regionlarda yaşayan fermerlərin kənd təsərrüfatı məhsul və texnologiyalara əlçatanlığının təmin edilməsi olduğunu bildirib, fermerlərin aqrar innovasiyalara və maliyyə mənbələrinə çıxışını əlçatan edən bu festivallarda əməkdaşlıq imkanlarından danışıb.

J.Hacıyeva da çıxış edərək aqrar sahədəki yeniliklərlə tanış olmaq, istehsalçılarla birbaşa əlaqə qurmaq, təcrübə mübadiləsi aparmaq imkanı baxımından bölgələrdə keçirilən belə tədbirlərin fermerlər, eyni zamanda sahibkarlar üçün əhəmiyyətindən söz açıb.

Festival çərçivəsində fermerlərə aqrar sahənin prioritet istiqamətlərinə uyğun təlim də keçirilib. Sərgi bölməsində isə müxtəlif kənd təsərrüfatı təyinatlı məhsullar, bitki mühafizə vasitələri, müxtəlif bitki və tərəvəz toxumları nümayiş olunub.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## 171 ölkə ilə ticarət, 4,8 milyard dollarlıq müsbət saldo

**İqtisadi inkişafda istehsal və ixrac əsas rol oynayan amillərdir. Bu iki amildən birində problem yarananda iqtisadi fəallıq aşağı düşür. Koronavirus pandemiyası dövründə bunu gördük. İstehsal və ixracda yaranan çətinliklər ümumilikdə qlobal iqtisadiyyatda tədarük zəncirinin qırılmasına səbəb oldu.**




Hazırda müxtəlif regionlarda gedən müharibələr, qlobal səviyyədə ölkələr arasında baş verən siyasi çəkişmələr beynəlxalq səviyyədə iqtisadiyyata mənfi təsir göstərir. Beynəlxalq maliyyə qurumlarının açıqladığı statistik göstəricilərə görə, dünya üzrə bir çox iqtisadi indekslər, o cümlədən xarici ticarət dövriyyəsi aşağı düşüb. Belə vəziyyətin nə qədər davam edəcəyi isə məlum deyil. Çünki qütbləşən dünyada siyasi proseslər yaxşıya doğru getmir, əksinə, daha da gərginləşir və əhatə dairəsi genişlənir.

Hər bir dövlət yaranmış belə vəziyyətdən çıxış yolları axtarır. Bunun üçün ənənəvi tərəfdaşlarla əlaqələri genişləndirir və ya yeni tərəfdaşlar tapmağa çalışır. Sözsüz ki, ölkəmizdə də dünyada baş verən proseslər diqqətlə izlənir və lazımi tədbirlər görülür. Bunun sayəsində Azərbaycanın xarici ticarətdə elə bir ciddi problemi yoxdur. Etibarlı tərəfdaş kimi ticarət əlaqələrimiz olan bütün ölkələrlə idxal-ixracımız davam edir. Bunu açıqlanan statistik rəqəmlərdən də görmək mümkündür.

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, cari ilin yanvar-sentyabr aylarında ölkəmizin hüquqi və fiziki şəxsləri dünyanın 171 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmişdir. 118 ölkəyə məhsul ixrac, 161 ölkədən idxal edilmişdir. Bu dövrdə gömrük orqanlarında qeydə alınmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri də nəzərə alınmaqla xarici ticarət dövriyyəsinin dəyəri 34 milyard 173,9 milyon, o cümlədən ixracın dəyəri 19 milyard 530,7 milyon, idxalın dəyəri 14 milyard 643,2 milyon dollar təşkil etmiş, nəticədə 4 milyard 887,5 milyon dollarlıq müsbət xarici ticarət saldosu yaranmışdır.

Dövlət Gömrük Komitəsinin məlumatında qeyd edilir ki, 9 ay ərzində xarici ticarət dövriyyəsinin 88 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, İsrail, Almaniya, ABŞ, Avstraliya, Hindistan, Çexiya, Xorvatiya, Birləşmiş Krallıq, Gürcüstan, Yunanıstan, İran, Bolqarıstan, Portuqaliya, Rumıniya, Ukrayna, Belarus, İsveçrə, Türkmənistan, Koreya və Yaponiya ilə aparılmışdır.

Hesabat dövründə idxalda maşınların, mexanizmlərin, elektrotexniki avadanlıq və aparatların, qiymətli və ya azqiymətli daşlar, qiymətli metallar, onlardan hazırlanan məmulatların, nəqliyyat vasitələrinin, mineral məhsulların, kimya sənayesi məhsullarının, azqiymətli metallar və onlardan hazırlanan məmulatların, hazır məhsulların, içkilər və tütün məmulatlarının, bitki mənşəli məhsulların, toxuculuq materialları və məmulatlarının, plastik kütlə və ondan hazırlanan məmulatların dəyəri daha çox olmuşdur. Bir çox məhsulun idxalı isə xeyli azalmışdır. Bunun bir səbəbi tələbatın azalması ilə bağlı olsa da, əsas səbəbi həmin məhsulların ölkədə istehsal edilməsidir. Bu isə həm qiymətlərin aşağı düşməsini təmin edir, həm də ölkədən valyuta axınının qarşısını alır.

İxracın strukturunda isə xam neft, təbii qaz və neft-qaz məhsullarından savayı, meyvə və tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, pambıq lifi və ipliyinin, alüminium və ondan hazırlanan məmulatların, qara metallar və ondan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, bitki yağlarının payı üstünlük təşkil etmişdir. 9 ayda ötən ilin eyni dövrü ilə müqayisədə qeyri-neft-qaz sektoruna aid məhsullardan meyvə, təzə tərəvəzin, tütünün, bitki yağlarının, meyvə və konservlərin, marqarinin, qida üçün yararlı qarışıqların, pambıq lifi və mineral gübrələrin ixracı xeyli artmışdır. Sözsüz, bu, ölkədə qeyri-neft-qaz, o cümlədən aqrar sektorun inkişafı üçün icra edilən islahatların nəticəsində mümkün olmuşdur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## DOST RİM daha 3 beynəlxalq mükafata layiq görülüb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi (DOST RİM) daha 3 beynəlxalq mükafat qazanıb.**

DOST RİM 100-dək ölkədən qurumların qatıldığı "FinTech Awards 2024" müsabiqəsində qalib gələrək "İlin rəqəmsal innovatoru" adına layiq görülüb.

DOST RİM, həmçinin Böyük Britaniyada yerləşən "Global Banking&Finance Review" beynəlxalq qurumunun builki "Global Banking&Finance Awards" müsabiqəsində uğur əldə edib. Mərkəzin sosial ödənişlərin proaktiv təyinatı layihəsi münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib və "Texnologiya liderliyi mükafatı" kateqoriyası üzrə "Azərbaycanın ən yaxşı texnologiya idarəetməsi komandası-2024" mükafatına yiyələnib.

Müsabiqədə ABŞ, Böyük Britaniya, İtaliya, Belçika, Almaniya, Türkiyə, BƏƏ və s. daxil olmaqla 100-ə yaxın ölkədən qurumlar yer alıb.

DOST RİM növbəti mükafatını "Acquisition International" korporasiyasının (Böyük Britaniya) müsabiqəsində qazanıb. Mərkəz sosial ödənişlərin proaktiv təyini mexanizmi müsabiqəsinin münsiflər heyətinin yüksək qiymətini alıb və həmin beynəlxalq korporasiyanın "2024-cü il üzrə proaktiv sosial ödəniş texnologiyalarını idarə edən qurum" adına layiq görülüb.

## Şəmkirin bağlarından 43,5 min ton xurma yığılıb

**Göstərilən yüksək aqrotexniki qulluq nəticəsində Şəmkirin xurma bağlarında bol məhsul yetişmişdir.**

1883 hektar xurma bağının hər hektarından 150-170 sentner məhsul götürən təsərrüfat sahibləri alıcı sarıdan da problemlə üzləşmirlər. Təsərrüfat sahibləri məhsulu elə bağlarında satırlar.



Cari il bağlardan 43 min 546,8 ton xurma yığılıb. İstehsal olunan məhsulun əhəmiyyətli hissəsi xarici bazarlara ixrac olunur.

Qeyd edək ki, Şəmkir rayonunda aqrar sektorun mühüm sahələrindən olan meyvəçiliyə maraq ilbəil artır. Hazırda rayonda 5 min hektardan çox meyvə və giləmeyvə bağı var.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***





# Ədəbiyyat





# "Dünyanı dərk etməkdə bizə kömək edən həm də ədəbiyyatdır"

**Atatürk Mərkəzinin direktoru, Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədri, VI çağırış Milli Məclisin üzvü, filologiya elmləri doktoru, Əməkdar elm xadimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Türk dünyasının tanınmış alimi, Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsində Ümumi dilçilik kafedrasının müdiri, 2022-ci ildən ADA Universitetində "Azərbaycançılıq" kursunu tədris edən akademik Nizami Cəfərovun bu il 65 yaşı tamam oldu. Akademik Nizami Cəfərovun yaradıcılıq yolu çoxşaxəlidir. Görkəmli elm xadimi bu günə qədər Azərbaycan dili tarixi, ümumi türkologiya, Azərbaycan ədəbiyyatı tarixi, Azərbaycan türkcəsinin milliləşməsi və azərbaycanşünaslığın əsasları və inkişafı tarixinə, qədim türk və türk xalqları ədəbiyyatı tarixi və müasir ədəbi proseslə bağlı bir-birindən dəyərli əsərlər yazıb.**

Akademikin indiyə qədər işıq üzü görmüş "Azərbaycan mədəniyyəti məsələləri", "Azərbaycanşünaslığa giriş", "Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-kulturoloji əsasları", "Azərbaycan: Dil, Ədəbiyyat və Mədəniyyət", "Azərbaycanşünaslıq məsələləri", "Heydər Əliyev və Azərbaycan", "Azərbaycanşünaslığın əsasları", "Atatürkün Azərbaycan siyasəti", "Azərbaycan xalqının tarixi və tərcümeyi-halı", "Ümummilli Lider: Azərbaycandan Türk dünyasına", "Sözümüzün Ali Baş Komandanı", "Mir Cəlalın milli ideyaları", "Türkologiyanın müasir problemləri", "Səməd Vurğun və Səmədoğlular", "Ədəbiyyatdan siyasətə", ADA Universitetində oxuduğu mühazirələr əsasında nəşr olunmuş "Azərbaycanşünaslıq mühazirələri" və başqa dəyərli kitabları azərbaycanşünaslığın ədəbi-mədəni və elmi-nəzəri əsaslarını müəyyən edən və dəyərləndirən əhəmiyyətli tədqiqatlardır. Akademikin təfəkkürünün, düşüncələrinin məhsulu olan bu əsərlər həm sadə oxucular, həm də elm adamları tərəfindən böyük maraqla qarşılanır.

Azərbaycanşünaslığa böyük töhfələr vermiş görkəmli elm xadimi Nizami Cəfərov 500-dən çox elmi əsər yazıb. Bu əsərlərdən 50-dən çoxu xarici ölkələrdə işıq üzü görüb. Görkəmli elm xadimi N.Cəfərov rus, ingilis və fars dillərini bilir. "Şöhrət" ordenli Nizami Cəfərov hələ Elmlər Akademiyasında, "Ədəbiyyat və incəsənət" qəzetində işlədiyi vaxtlardan ciddi araşdırmalar aparmış və bir-birindən dəyərli əsərlər yazaraq ədəbiyyatımızı, elmimizi və dilimizi daha da zənginləşdirmişdir.

İnanırıq ki, Azərbaycan ədəbiyyatına, Azərbaycan dilçiliyinə, Azərbaycan ədəbi düşüncəsinə böyük töhfələr vermiş akademik Nizami Cəfərov bundan sonra da yazacağı yeni elmi əsərləri ilə oxucuların daha çox sevgisini qazanacaqdır.

Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Nizami Cəfərovla müsahibəni oxucularımıza təqdim edirik.

## Azərbaycan ədəbi dilinin formalaşmasında şifahi xalq ədəbiyyatının rolu əvəzedilməzdir

*- Nizami müəllim, neçə illərdir Azərbaycan ədəbi dilinin keşiyindəsiniz. Ana dilimizin bugünkü durumunu necə dəyərləndirərdiniz?*

- Azərbaycan ədəbi dili XVI əsrin əvvəllərindən, yəni Şah İsmayıl Xətainin yaratdığı bütöv Azərbaycan dövlətinin, onu Səfəvilər dövləti də adlandırırıq, tarix səhnəsinə çıxmasından başlayır. Və bu dilin əsasında çox qədim əsrlərdən etibarən türkcənin diferensiasiyası, bir az da təfsilatına varsaq, coğrafi, etnoqrafik, siyasi və s. şərtlər altında ardıcıl olaraq bölünməsi nəticəsində məhz Azərbaycan ərazisində təşəkkül tapmış tayfa dilləri - dialektlər dayanır... Sual oluna bilər ki, XVI əsrə qədər Azərbaycan ədəbi dili yox idimi? Əlbəttə, Türkmənistanı hələ bir tərəfə qoysaq, Azərbaycanla Türkiyə üçün ümumi olan bir ədəbi dil vardı: ilk növbədə "Dədə Qorqud" eposunun dili ki, sonralar yazıya da alınmışdı... Yunus Əmrənin, Nəsiminin, Füzulinin, bir sıra tərcümələri və s. möhtəşəm ədəbi dil təcrübələri.

Ancaq bunların heç biri birbaşa "Azərbaycan ədəbi dili" adlandıra biləcəyimiz hadisə deyil. Və müasir Azərbaycan ədəbi dilini bunların heç birinin birbaşa varisi saymaq olmaz. Keçən əsrin 30-cu illərində, yəni təxminən yüz il əvvəl həm fonetik, həm leksik, həm də qrammatik baxımdan formalaşmış, yaxud stabilləşmiş müasir Azərbaycan ədəbi dili bugünkü inkişaf səviyyəsinə görə, əgər "tarixəqədərki dövr"ü nəzərə almasaq, ilk növbədə, Xətai, Vaqif, Mirzə Fətəli, Sabir, Mirzə Cəlil, Ə.Haqverdiyev, N.Nərimanov, Ü.Hacıbəyov, F.Köçərli... ikinci növbədə, C.Cabbarlı, S.Vurğun, S.Rüstəm, R.Rza, S.Rəhimov, Ə.Vəliyev, Mir Cəlal, M.İbrahimov, İ.Əfəndiyev... üçüncü növbədə isə, B.Vahabzadə, H.Arif, İ.Şıxlı, İ.Hüseynov (Muğanna), M.Araz, N.Həsənzadə, Anar, Elçin... kimi "dil yaradıcıları"na minnətdardır. Bununla belə, unutmaq olmaz ki, həm ümumən Azərbaycan ədəbi dilinin, həm də müasir Azərbaycan ədəbi dilinin formalaşmasında şifahi xalq ədəbiyyatının, xüsusilə dastanları, qoşmaları, bayatıları ilə birlikdə aşıq yaradıcılığının əvəzedilməz rolu vardır.

Bu gün Azərbaycan dilində əlli milyondan çox insan danışsa da, ədəbi dilin heç də bütün əhali üçün əlçatan olmaması (xüsusilə Cənubi Azərbaycanda) xalqın ümumi mədəni səviyyəsinə öz təsirini göstərməyə bilməz. Azərbaycan Respublikasına gəldikdə isə, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə uzun illər ölkədə həyata keçirilmiş dil quruculuğu siyasəti indi də uğurla davam etməkdə, Azərbaycan dilinin dünya dilləri içərisindəki mövqeyini yüksəltməkdədir.

*- Bu gün Ana dilinin işlənməsi ilə bağlı ən çox narazılıqlar teleradio verilişləri haqqındadır. Sizcə, bu sahədə nöqsanların qarşısını almaq üçün hansı tədbirlər görülməlidir?*

- Əlbəttə, dünyanın bütün dillərində olduğu kimi, bizim dilimizdə də yazı dilinin normaları şifahi dilin normalarından daha mükəmməldir. Şifahi dilin populyarlığı çox hallarda onun normalılığına xələl gətirir.

Yazı çox sürətlə bu və ya başqa sahələrdəki peşəkarların ixtiyarına keçdiyi halda, danışıq dili, adətən, qeyri-peşəkarlığın sərəncamında qaldığına, hər kəs üçün "özünüifadə meydanı" olduğuna görə müəyyən müzakirələr, mübahisələr doğurur.

Mən deməzdim ki, Azərbaycan teleradio məkanı bütövlükdə dilimizin ədəbi normalarını pozmaqla məşğuldur, ancaq haqlı narazılıqlar da mövcuddur ki, bu, ilk növbədə, teleradio verilişləri aparıcılarının müasir tələblərə uyğun peşəkarlıq məktəbi keçməmələrindən irəli gəlir. Əgər bizdə bu cür məktəblər yetərincə olsaydı, aparıcılıq fikrinə düşənlər həmin məktəbləri keçsəydilər, problemlərimiz də az olardı. Təəssüf ki, bizim teleradio aparıcılarımız tək-tək (və çox təəssüf ki, yalnız öz istedadlarının gücünə!) yetişirlər, məktəb görməyən istedad isə uzun zaman davam gətirib ənənə yarada bilməz.

Aristotel deyirdi ki, nümunəvi nitqdə üç xüsusiyyət bir-birini tamamlamalıdır: birinci, loqos; ikinci, etos; üçüncü, pafos... Birincisi, nitqdə məntiq olmalıdır; ikincisi, sözün ağır-yüngülünü seçməlisən ki, əxlaqi-mənəvi harmoniya zədələnməsin; üçüncüsü isə ifadəlilik gözlənilməlidir ki, nitqin təsir gücünü artırsın.



## Həm dil ədəbiyyatı yaradır, həm də ədəbiyyat dili...

*- Bəzən dilin tarixi ilə ədəbiyyat tarixini eyniləşdirirlər. Necə düşünürsünüz, ədəbiyyat dili yaradır, yoxsa dil ədəbiyyatı? Ümumiyyətlə, ədəbiyyatın inkişafında dilin rolunu necə qiymətləndirirsiniz?*

- Çox maraqlı paradoksdur... Dil insan üçün, cəmiyyət üçün ədəbiyyatdan müqayisə olunmayacaq qədər mühüm hadisədir, bununla belə, ədəbiyyatı zəngin olmayan xalqın dili çox zəif, çox cansıxıcıdır. Ona görə də biz dilimizin normalaşmış, mükəmməlləşmiş formasına məhz "ədəbi dil" deyirik, halbuki bu ad altında təkcə bədii ədəbiyyatın yox, elmin, publisistikanın və rəsmi-işgüzar sənədlərin də dilini başa düşürük.

Deməli, həm dil ədəbiyyatı yaradır, həm də ədəbiyyat dili... Əgər diqqət yetirsəniz, "Azərbaycan ədəbiyyatı tarixi" dərslikləri ilə "Azərbaycan ədəbi dili tarixi" dərslikləri mövzu, hətta ideya-məzmun baxımından səsləşir. Hər iki halda söhbət "Kitabi-Dədə Qorqud"dan, Nəsimidən, Füzulidən, "Koroğlu"dan, Vaqifdən, Mirzə Fətəlidən, Sabirdən... gedir... Ədəbiyyat tarixi dərsliklərində şairin, yazıçının dil-üslub xüsusiyyətləri onun mənsub olduğu ədəbi cərəyanın çox mühüm cəhəti kimi təqdim edilir, ədəbi dil tarixi dərsliklərində isə norma-üslub göstəriciləri arxasında dayanan ideya-estetik enerji təhlilə cəlb edilir. Bütün bunlarla bərabər, "ünsiyyət vasitəsi" olan dillə "söz sənəti" olan ədəbiyyatın fərqini hamımız bu və ya başqa şəkildə anlayırıq.

Ədəbiyyatın inkişafında dilin roluna gəldikdə isə, heç şübhəsiz, musiqidə səs, rəssamlıqda rəng kimi ədəbiyyatda da söz öz-özlüyündə yalnız materialdır. Və sözün (dilin!) ədəbiyyat olması üçün yaradıcı şəxsiyyət (Füzuli, Vaqif, Mirzə Cəlil...) lazımdır. Allaha şükür ki, Azərbaycan ədəbi dili formalaşdığı gündən həmişə bir-birindən qüdrətli bu cür dil dühalarının ixtiyarında olmuşdur.

*- Bir dilçi alim kimi sizin "Azərbaycanşünaslığa giriş" kitabınız hansı ehtiyacdan yarandı, bu qiymətli əsər dilimizə, ədəbiyyatımıza, ictimai düşüncəmizə nələr verdi?*

- "Azərbaycanşünaslığa giriş"ə verdiyiniz qiymətə görə minnətdaram. Azərbaycanşünaslığa aid mənim bir neçə kitabım çıxıb. Həm dil, həm ədəbiyyat, həm də tarix məsələlərinin nəzərdən keçirildiyi bu kitabları yazıb nəşr etdirməkdə məqsədim Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi azərbaycançılıq ideologiyasının elmi əsasları barədəki mülahizələrimi bildirmək idi. Və təbii ki, mən tək deyildim, bizim bir çox ziyalılarımız Ulu Öndərin rəhbərlik etdiyi milli dövlət (və millət!) quruculuğu proseslərini izləyir, araşdırır, müəyyən ümumiləşdirmələr aparırdılar.

"Romantik mütəfəkkir" Əli bəy Hüseynzadənin məşhur triadasına əsaslanan azərbaycançılıq məfkurəsi Heydər Əliyev dövrünə qədər keşməkeşli bir yol keçmiş, təbəddülatlara məruz qalmış, gah türklük, gah müsəlmanlıq, gah da müasirlik irəli çıxaraq triadanın "harmoniya"sını pozmuşdu... Əli bəy Hüseynzadə, heç şübhəsiz, triadanı müəyyən edərkən bütün türk dünyasının reallıqlarından çıxış etsə də, onun əsas istinad mənbəyi Azərbaycan idi. O dövrdə Azərbaycan türk dünyasının diferensiasiyasının ən səciyyəvi nümunəsi sayıla bilərdi... Mirzə Cəlilin "Anamın kitabı"nı xatırlayın. Dahi azərbaycançı nə deyir? Deyir ki, türklük tükçülüyə, müsəlmanlıq müsəlmançılığa, müasirlik kosmopolitizmə çevriləndə elə hərc-mərclik yaranır ki, cəmiyyət öz milli yekcinsliyinə şübhə eləməyə başlayır.

Azərbaycançılığın milli bir ideologiya kimi "simasızlaşdırılma"sının çox maraqlı bir faktı da var. Keçən əsrin 30-cu, 40-cı, 50-ci illərində Azərbaycanda Azərbaycan mövzusu son dərəcə böyük pafosla işlənirdi. Səməd Vurğun Azərbaycanın ən böyük azərbaycançısı idi. Və dahi şairin bu səmimiyyətinə mən hələ də şübhə etmirəm. Ancaq Səməd Vurğunun (və Azərbaycan sovet ədəbiyyatının!) həmin azərbaycançılığında nə türklük, nə müsəlmanlıq, nə də beynəlmiləl mənada müasirlik vardı.

Yəqin mənimlə razılaşarsınız ki, biz milli məsələdə Ulu Öndərin başladığı işlərin araşdırılmasının hələ ilk mərhələlərindəyik.

## Füzuli - tezis, Vaqif isə antitezisdir

*- Ötən əsrin 80-ci illərində yazdığınız "Füzulidən Vaqifə qədər" adlı silsilə məqalələriniz o dövrdə böyük maraqla qarşılandı. Həmin silsilə məqalələr sonrakı tədqiqatlarınızda hansı rolu oynadı?*

- Mən həm orta məktəbdə, həm də universitetdə çox böyük müəllimlərdən dərs almışam... Orta məktəb müəllimlərim daha çox Vaqifdən danışırdılar, universitet müəllimlərim isə Füzulidən... Əlbəttə, Füzuli Vaqifdən daha böyük şairdir. Necə ki türk dünyası Azərbaycandan böyükdür... Müqayisə hər nə qədər şərti olsa da, mən bu şərtilikdə ədəbiyyat, ümumən milli ideya-estetik təfəkkür tariximizin dialektikasını (geniş mənada isə metafizikasını!) gördüm. Gördüm ki, Füzuli - tezis, Vaqif isə antitezisdir. Yəni eyni bir mədəniyyətin tarixi kontekstində Füzuli bir etnokulturoloji yaradıcılıq "kompleksi"nin sonu, Vaqif isə başlanğıcıdır.

O vaxtlar bunu mən çox böyük bir kəşf hesab edirdim. Sonralar gördüm ki, F.Köçərlidən başlayaraq belə kəşflər ürəyimiz istəyən qədərdir. Ancaq Şah İsmayıl Xətaidən başlayıb Vaqifdə öz zirvəsinə çatan Azərbaycan İntibahı barədə dediklərim məni get-gedə daha dərindən düşündürməkdə davam edir.

*- Bəzən tənqidçilərdən "xalq dili" ifadəsini eşidirik. Deyirlər ki, filan yazıçı xalq dilində yazır. Nədir bu "xalq dili"?*

- Şah İsmayıl Xətai "Qış getdi, yenə bahar gəldi..." deyə öz milli ədəbi dil prinsipini bəyan edəndən bəri bizdə "xalq dili" anlayışı var ki, məhz İntibah dövründə - XVI-XVIII əsrlərdə bütün tarixi Azərbaycan ərazisində özünün "nədən ibarət olduğu"nu göstərib. Məsələn, "Alagözlü, sərvboylu dilbərim, Həsrətin çəkdiyim canan, bəri bax" deyən Vaqifin, "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım" deyən Mirzə Cəlilin, "El bilir ki, sən mənimsən" deyən S.Vurğunun dili xalq dilidir. Ancaq ərəb, fars dilləri ilə "zənginləşdirilmiş", yaxud "rusca zibillənmiş" bir Azərbaycan dili də vardı ki, artıq tarixin arxivinə verilmişdir.

Bu günə gəldikdə isə, əslində, bütün yazıçılar xalq dilində yazırlar. Və Azərbaycan yazıçısının "xalq dili"ndən başqa bir "dil"i yoxdur... Söhbət yalnız ondan gedə bilər ki, həmin bu "xalq dili" yazıçının öz fərdi üslubunu, stilizasiya (yaradıcılıq!) imkanlarını da nümayiş etdirsin.

*- İllər keçsə də, dahi Nizami Gəncəvinin fars şairi olması haqqında iddialar səngimir. Hərçənd İran ədəbiyyatşünaslarından biri vaxtilə yazmışdı ki, "Nizamidən türk ətri" gəlir. Siz araşdırmanızda bu məsələyə necə yanaşırsınız?*

- Firdovsi nə qədər türk şairidirsə, Nizami də o qədər fars şairidir. İranı bir dövlət olaraq yer üzündən silmiş Makedoniyalı İskəndərin dühasını həm bir sərkərdə, həm bir dövlət başçısı, həm də bir peyğəmbər kimi tərənnüm edən Nizamini hansı ağıllı adam fars şairi (yaxud fars!) hesab edə bilər?

Nizaminin bir türk-Azərbaycan şair-mütəfəkkiri olduğunu göstərən o qədər səbəblər var ki, bu gün kiminsə onu fars şairi adlandırması ya məlumatsızlıqdan, ya da hansısa konyunktur məqsədlərdən irəli gəlir. İran-fars nizamişünaslığı heç vaxt olmayıb, Azərbaycan-türk nizamişünaslığı isə həmişə olub. Və bu gün dünya nizamişünaslığının önündə gedir... Onu da xatırlatmalıyam ki, akademik Nərgiz Paşayevanın təşəbbüsü (və rəhbərliyi) ilə Oksfordda yaradılmış Nizami Gəncəvi adına Qafqaz və azərbaycanşünaslıq Mərkəzi neçə illərdir bütün akademik aləmə sübut edir ki, Nizami azərbaycanlıdır. Və Nizaminin xələfləri onu heç kimə güzəştə getmək fikrində deyil... Və bir də çoxdandır ki, Azərbaycan nizamişünasları Nizami Gəncəvinin türkcə şeirlərini axtarır, hərdənbir nə isə də "tapırlar". Ancaq unutmaq olmaz ki, Nizaminin bizə məlum dili məhz "türkcənin farscası"dır.

## Ədəbiyyatın xilasedici gücünə inanmaq elə də asan deyil

*- Ədəbiyyatımızın bu günü haqqında fikirlərinizi də bilmək istərdik. Yazıçılarımız zamanla ayaqlaşırmı? Çağdaş ədəbiyyatımız müasir Azərbaycan insanının obrazını yarada bilirmi?*

- Bugünkü Azərbaycan ədəbiyyatının ən məhsuldar nümayəndələri hələ ki "klassiklər"dir: N.Həsənzadə, Anar, Elçin, K.Abdulla, A.Məsud... Xalq şairi, yaxud yazıçısı adını almağa namizəd "gənclər" də kifayət qədərdir... Sözün həqiqi mənasında gənclərə gəldikdə isə mən fikir deməyə bir az çətinlik çəkirəm. Deyəsən, ədəbiyyat öz mövqelərini bütün dünyada olduğu kimi, get-gedə publisistikaya tərk edir... Və müasir Azərbaycan insanının obrazını yaratmaq məsuliyyəti isə ədəbiyyatdan çox publisistikanın sərəncamına keçir.

*- Bəzən "yaxşı ədəbiyyat" ifadəsi də eşidirik. Sizcə, nədir yaxşı ədəbiyyat?*

- Yaxşı ədəbiyyat, əlbəttə, zövq verəverə düşündürən, dünyanı dərk etməkdə bizə kömək edən ədəbiyyatdır. Və bu cür ədəbiyyatın etnoqrafik, yaxud milli hüdudları yoxdur. Qəribə görünsə də, biz öz ədəbiyyatımızın təəssübünü çəkdiyimiz qədər də dünyanın ən müxtəlif xalqlarının yaxşı ədəbiyyatından (buna "böyük ədəbiyyat" da deyilir) heç bir qısqanclıq göstərmədən mənəvi güc alırıq.

*- Bu gün ədəbi tənqidin böhran yaşadığı deyilir. Siz bu fikirlə razısınızmı?*

- Məşhur "nə deyilirsə, düz deyilir" məntiqi ilə yanaşsaq, əlbəttə, bu fikirlə razılaşmaq lazım gəlir. Ancaq "ədəbi tənqid" anlayışının öz sosializm realizmi "interpretasiya"sını itirdiyi bir dönəmdə biz "tənqid"in "təhlil"lə əvəz olunduğunu, ədəbi tənqidin ədəbi təhlilə çevrildiyini görürük. Məncə, bu, böhran deyil. Ədəbiyyat haqqında elmin çox mühüm bir sahəsinin siyasi-ideoloji iddialardan əl çəkib öz həqiqi işi ilə məşğul olmağa başlamasıdır.

*- Jan Pol Sartr deyirdi ki, mən ədəbiyyatın dünyanı xilas etmək gücünə hələ də inanıram. Siz necə, buna inanırsınızmı?*

- Əlbəttə, hər şeyin - dinin, siyasətin, iqtisadiyyatın... insanı hədəf alaraq "bütün cəbhəboyu" onun üzərinə yeridiyi bir dünyada ədəbiyyatın xilasedici gücünə inanmaq elə də asan deyil, ancaq bütün bu sahələrin get-gedə daha konyunktur miqyas alan təsirlərilə müqayisədə ədəbiyyat çox-çox uzaqlardan olsa da, adamı özünə çəkir...

***Müsahibəni qələmə aldı:***
***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

## Bəstəkar Sevda İbrahimovanın 85 illiyi ilə bağlı kitab sərgisi açılıb



**Milli Kitabxanada açılan sərgidə Xalq artisti, professor Sevda İbrahimovanın həyatı, yaradıcılığı, elmi fəaliyyəti haqqında kitablar, müxtəlif janrlı not-musiqi əsərləri, filmlər və tamaşalar üçün bəstələdiyi not məcmuələri, dövri mətbuatda çap olunan məqalələr və s. Azərbaycan və xarici dillərdə ədəbiyyatlar nümayiş olunur.**

Sərgi bir həftə davam edəcək.

Qeyd edək ki, Sevda İbrahimova 1939-cu il noyabrın 28-də Xalq yazıçısı Mirzə İbrahimovun ailəsində anadan olub. Azərbaycan Dövlət Konservatoriyasının Piano (M.Brennerin sinfi) və Bəstəkarlıq (Q.Qarayevin sinfi) fakültələrində təhsil alıb.

Sevda İbrahimova iki operanın ("Nənəmin nağılları", "Biri vardı..."), beş fortepiano konsertinin, orqan, tar və orkestr üçün konsertlərin, kantataların, kamera-instrumental və vokal kompozisiyalarının, fortepiano solo üçün çoxsaylı silsilənin, uşaqlar üçün müxtəlif janrlı əsərlərin, filmlər və tamaşalar üçün musiqilərin müəllifidir. Əsərləri ABŞ, Fransa, İsveç, Almaniya və digər ölkələrin konsert salonlarında ifa edilib.

O, N.Gəncəvi, M.Şəhriyar, S.Vurğun, B.Vahabzadə, M.Araz, H.Ziya, R.Zəka, M.Dilbazi, H.Bülluri və başqa şairlərin sözlərinə qəlbəyatan mahnı və romanslar bəstələyib. Nəğmələri tanınmış müğənnilərin ifalarında ürəklərə yol tapıb.

Sevda İbrahimovanın Azərbaycan mədəniyyətinin inkişafındakı səmərəli xidmətləri qiymətləndirilib. O, bir çox mükafatlara və təltiflərə, o cümlədən 1989-cu ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülüb. 1994-cü ildə professor elmi adını alıb. 2005-ci ildə isə ona "Azərbaycanın Xalq artisti" fəxri adı verilib.

Görkəmli bəstəkar Sevda İbrahimova 2022-ci il iyulun 17-də, ömrünün 83-cü ilində vəfat edib.

## Misirdə "Şuşa - Qafqazın mədəniyyət beşiyi" kitabı nəşr olunub

**Misirin paytaxtı Qahirədə Mərkəzi Asiya və Qafqaz işləri üzrə tədqiqatçı Əhməd Abdo Tarabikin "Şuşa - Qafqazın mədəniyyət beşiyi" kitabı nəşr olunub.**




Misirli tədqiqatçının kitabı Şuşanın qədim tarixindən, onun mədəni və memarlıq incilərindən bəhs edir. Misirli müəllif kitabında Şuşanın sənətkarlıq həyatına, qədim ticarət əlaqələrinə də toxunaraq qeyd edir ki, Şuşada toxuculuq və zərgərlik, eləcə də xalçaçılıq sənəti böyük inkişaf yolu keçmiş, Azərbaycanın hüdudlarından kənarda da məşhurlaşmışdır.

Kitabda qeyd olunur ki, 2020-ci il noyabrın 8-də düşmən işğalından azad edilən şəhərdə geniş bərpa və yenidənqurma işlərinə başlanılıb. Şəhərdə məscidlər, kilsə, muzeylər, sərgi salonları, abidələr təmir edilir.

Eyni zamanda kitabda Şuşanın 2021-ci ildə "Azərbaycanın mədəniyyət paytaxtı", 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı", 2024-cü ildə isə "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi və bu çərçivədə təşkil edilən tədbirlərdən bəhs edilir.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 1 may (Cümə axşamı günü) tarixli 170-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Pəncşənbə, 30 rəcəbül-mürəccəb sənə 1337.
1 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

Pəncşənbə [cümə axşamı] gününə təyin edilən Məclisi-Məbusan iclası mayısın 1-i münasibətilə gələn bazar ertəsi mayısın 5-nə təcil [təxir] edildiyi və müzakireyi-yövmiyyə [müzakirə gündəliyi] həman qərar üzrə qaldığı elan olunur.

*T-119*

## ZƏHMƏT (MƏSAİ) BÜROSU

Bakı Şəfqət Bacıları İttifaqı şəfqət bacılarını gecə işlərinə, iynə vurmağa, masaj etməyə müərriflik edir [tövsiyə edir, zəmanət verir]. İttifaq öz işçilərinin işlərinə cavabdehdir. Xahiş edənlər bu adresə müraciət edə bilərlər: Budaqovski və Malakanski küçələrin küncündə, nömrə 16/22, mənzil 6. Konkanın mənzili. Telefon nömrə 14-08. Büro bütün gün açıqdır.

*8755*

## ELAN

Ticarət və Sənaət Nəzarəti [Ticarət və Sənaye Nazirliyi] bununla elan edir ki, Nəzarət sabiq "Natsional" mehmanxanasındadır. (Olqinski və Lalayevski küçələrin küncündə).

Nazir qəbul edir: Seşənbə [çərşənbə axşamı], çaharşənbə [çərşənbə] və şənbə günləri saat 11-dən 2-yədək. Telefon nömrə 40-35. Müavini-nazir: Hər gün saat 11-dən 2-yədək. Telefon nömrə 51-35. Müdir isə hər gün saat 11-dən 1-ədək. Telefon nömrə 40-00.

Dəftərxana müdiri (imza)

*T-120*

## ELAN

İngiltərə-Qafqaziya bankir kantorasının açılması mayıs ayının 15-ədək təxir edilmişdir.

*8739*

Azərbaycan Cümhuriyyətinin Məsai (Zəhmət) Nəzarəti [Nazirliyi] əmələlərə [fəhlələrə], xidmətçilərə və iş sahiblərinə elan edir ki, bu tarixdən Nəzarət nəzdində müvəqqət hakəm [arbitr] təşkilatının dəftərxanası işə başlamışdır. Bu barədə "Azərbaycan" qəzetəsinin 4 mart tarixli 47-ci nömrəsində elan edilmişdir. Dəftərxana Məsai Nəzarətinin sabiq binasında Naberejnı küçədə [Seyid] Mirbabayevin evindədir (həyətdə 4-cü mərtəbədə). Telefon nömrə 56-11. Dəftərxana səhər saat 9-dan 3-ə qədər açıqdır.

*Məsai Nəzarəti*
*T-118*

## ELAN

Cümə günü may ayının 2-də Spasski küçədə 137 nömrəli evdə, 18 nömrəli odada [otaqda], Əlihüseyn Əliyevin mənzilində, saat 9-da Şəki Həmvətənlər Cəmiyyətinin ümumi iclası olacağından, Bakıda müqim [yaşayan] bilümum [bütün] şəkililərin məzkur [deyilən] mənzilə təşrif gətirmələri rica olunur.

*Müvəqqəti Komissiya*

May ayının 2-də, cümə günü saat 10-da, Şəhər Dumasının salonunda "Cəmiyyəti-Maarifi-İraniyan" [İranlılar Maarif Cəmiyyəti] barəsində məlumat veriləcəkdir. Binaənileyh [ona görə], ümum iranlıların məzkur vaxtda təşrif gətirməkləri rica olunur.

*Heyəti-müvəqqətə*
*8752*

## DRAMA

**Hökumət Teatrosunda axşam tamaşası**

Cümə günü şabanül-müəzzəm ayının 1-də 1337 sənə (mayın 2-də 1919-cu il-də) Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli Qardaşlarının Müdiriyyəti Müdiriyyətin aktyorları Ələkbər Hüseynzadə, Camal Paşayev və Əliislam Dadaşovun şərəfinə (benefisinə) bu mövsümdə axırıncı dəfə olaraq təntənəli bir surətdə mövqeyi-tamaşaya qoyulacaqdır Şəmsəddin Sami bəyin **"Gaveyi-ahəngər"** nam əsəri. Biletlər imdidən benefis qiymətinə teatrın kassasında satılmaqdadır. Tamaşa başlanacaq axşam saat 8-in yarısında.

*T-116*

## ELAN

Bakı Şəhər İdarəsi bununla elan edir ki, mayıs ayının 4-də saat 12-də Təsərrüfat şöbəsi dəftərxanasında şəhər afişa sütunları və afişa yapışdırılmasını icarəyə verməkdən ötrü torq [tender] təyin olunubdur. Şəraiti [şərtləri] yuxarıda zikr olunan şöbə dəftərxanasında oxumaq olar.

*T-117*

## AZƏRBAYCAN MÜSƏLMAN TƏLƏBƏLƏR KOMİTƏSİ TƏRƏFİNDƏN

1919 sənəsi may ayının 3-də Denikin canavarları hücumundan xanimanı dağılan dağıstanlıların nəfinə [xeyrinə] **"Dağıstan günü"** tərtib verilib, cəbələrlə [qutularla] para toplanacaqdır. Şəhərin bir neçə nöqtələrində bu günə dair nitqlər irad ediləcəkdir [nitqlər söylənəcəkdir].

Bulvarda bəsalətli [qəhrəman] Azərbaycan ordusunun musiqi dəstəsi çalacaqdır.

Həmçinin "İttihad" məktəbinin, Tağıyev fabrikası işçilərinin musiqi dəstələri dəvət olunmuşdur. Mərkəzi qərargah Parlaman mülkündə "Hümmət" fraksiyonu odasında vaqedir [yerləşir]. (Telefon nömrə 47-32).

Tələbələr Komitəsi "Dağıstan günü" hamı vətəndaşların beqədri-qüvvə [gücü çatdığı qədər] Dağıstan qəhrəmanlarının yetimlərinə müavinətdə bulunmasını rica və təmənna edir.

*T-121*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

"Azərbaycan" qəzetəsinin 1919 sənəsi 14 aprel tarixli 157-ci nömrəsinin rəsmi qismində 100 manatlıq kağız pulların Maliyyə Nəzarəti tərəfindən elan edilən təsvirinə əlavə:

Elan edilən təsvirə əlavə olaraq, Maliyyə Nəzarəti bu aşağıdakı hissələri də qeyd etməyi lazım ədd [hesab] edir:

1) 100 manatlıq kağız pulun dal tərəfində daxili mütəsaviüləzlaların [bərabərtərəflilərin] dörd küncündə, iki liter [tipoqrafiya hərfi] yuxarı və dörd rəqəm aşağı künclərdə çap edilmişdir.

2) Pulun dal tərəfi təsvirində deyilmişdi ki: amma soldan türkcə "1335", halbuki türkcə "1335-ci il" lazımdır.

3) Aşağı yazıda: "Sərf olunurlar" əvəzinə "sərf olunur".

4) Yazının təsvirində konturasız vinetka [haşiyə] üzərində türkcə "yüz" yazı əvəzinə, türkcə "100" rəqəmidir.

5) Səkkizguşəli ulduzun yazı təsvirində türkcə "yüz manat" əvəzinə türkcə "100" rəqəmidir.

6) On altı parçalı dövrənin təsvirində deyilir ki, millər arasında xırda rəqəmlərlə rusca "yüz", ətraf millərdə də türkcə rəqəm, mərkəzi millər arasında isə "rublə" yazılıdır. Bunun əvəzində isə böylə olmalıdır: "Rublə" ancaq sol mərkəzi millər arasında vardır. Sağda isə "100" rəqəmi yazılmışdır.

7) Pulun üz tərəfində tünd qəhvəyi dairənin təsvirində sol dairədə "yüz" yazısı əvəzinə, sol dairədə "100" rəqəmi olmalıdır.

Gələcəkdə buraxılacaq yüz manatlıqlarda seriya nömrələri əlavə ediləcəkdir: ikinci seriya və qeyrə.

*Maliyyə naziri:*
*Əliağa Həsənzadə*

## ƏMƏLƏ BAYRAMI!

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsi fəhlələrə xitabən böylə bir müraciətnamə nəşr etmişdir:

Millətdaşlar, yoldaşlar!

Hürriyyət hər camaatın zülüm və məhkumiyyət altında olan zəhmətkeş xalqının inqilabı nəticəsində hasil olmuş bir nemətdir.

Avropanın mədəniyyəti bizlərə nisbət iləridə olan hürriyyətləri böyük inqilablar, bu inqilabları doğuran böyük və insaniyyətə aid ali fikirlər nəticəsində kəsb edilmişdir [qazanılmışdır].

Bir vaxt iləri getmiş Avropa millətlərinin əmələləri [işçiləri] bütün dinlərin də vəd eyləmiş olduğu səadətə yetişmək, dünyanı gördüyümüz bu məşəqqətli halından döndərib bir cənnət halına sala bilmək üçün buna qane olmuşlardı ki, kapital zülmündən qurtarmaq üçün bəsdir ki, insan fərd və şəxs etibarı ilə azad olsun. Bu azadlıq olduqdan sonra, artıq, zəhmətkeş sinifi asanlıqla öz düşməni olan varlı siniflərlə rahatca mübarizə edə bilər.

Fəqət, təcrübə bunun çox uzaqda olduğunu göstərdi. Hələ böyük dünya müharibəsi digər böyük bir həqiqəti dəxi meydana qoydu. Anlaşıldı ki, yalnız şəxs azadlığı bəs deyildir. Bu azadlıq bir dərəcəyə qədər Böyük Fransa İnqilabı nəticəsində hasil olmuşdu. Halbuki gözlənən qardaşlıq əmələ gəlməmişdi. Bu dəfə böyük müharibə bildirdi ki, şəxslərdən əlavə, millətlər də azad olmalıdırlar. İsbat olundu ki, siniflərlə bərabər millət də vardır. Anlaşıldı ki, nə qədər dünyada bir millət o biri millətə hakim isə, sinif azadlığı da təbii yol ilə gedə bilməz!

Fransa inqilabından hasil olan ən böyük qazanc insanların hüququnun elanı olmuşdu.

Dünya müharibəsi ilə Rusiya inqilabından hasil olan qazanc dəxi millətlərin hüququnun elanı oldu.

Bəşəriyyət o hüququ da, bu hüququ da inqilabçı fədakarlığı nəticəsində hasil eyləmişdir. Onun üçün də bu gün ki, Avropa hürriyyətpərvər əmələlərinin təsis eylədiyi bir əmələ bayramıdır – biz bütün əmələləri, bu – insanın və millətin hürriyyəti yolunda hamıdan daha ziyadə bir rəşadətlə mübarizə edə bilən fədakar xalqı səmimiyyətlə təbrik ediriz.

Bu gün ki, azad və müstəqil bir millətik, azad bir vətəndaş olmaq nemətinə nailiz və bu nemətləri əlimizdə möhkəm saxlamaq istər isək, dünya hürriyyətçiliyinin bir əlaməti olan bu gündə bayram saxlayıb da bütün zəhmətkeşlərlə bərabər şad olalım.

Əmələ yoldaşlar!

Hər millət öz milliyyəti dairəsində azad və müstəqil olarsa, o zaman başqa millətlərlə daha asanlıqla ittihad və ittifaq edə bilər. Buna görə də bu ilki əmələ bayramı Azərbaycanın birinci istiqlal ili ilə təsadüf eylədiyindən, ayrı bir qiymətə malikdir.

Bu gün Azərbaycan-türk əmələsi də meydana çıxmalı, "Yaşasın dünyanın azadlığı!" deyən yoldaşlarına "Millətlər azad olmayınca dünya azad olmaz!" deməli, "Yaşasın müstəqil Azərbaycanın azad əmələ bayramı!" nidasını bütün dünyaya eşitdirməlidir.

Yaşasın əmələlərin amalı!
Yaşasın millətlərin ittifaqı!
Yaşasın Azərbaycan Xalq Cümhuriyyəti!
Yaşasın müsavat!

*Türk Ədəmi-Mərkəziyyət*
*"Müsavat" firqəsi*
*Tətil Komitəsi*

## DAĞISTAN GÜNÜ

Bir şəxs, bir qövm, bir millət və bir məmləkətin həyatında öylə dəqiqələr olur ki, daima gözləri dost gəzər, hər dəqiqə mədəd gözlər. Böylə dəqiqələrdə ən sönük "ləbbeyk" sədası, ən ufaq bir imdad əli böyük bir qüvvəti-qəlb hasil edər.

Hal-hazırda növzad [yeni doğulan] Dağıstan Cümhuriyyəti, hürriyyətpərvər şimallı qardaşlarımız eyni vəziyyətdədirlər. Yeni təşəkkül etmiş müstəqil Dağıstan milli müqəddəratını yenicə əllərinə almış olan dağıstanlı qardaşlarımız, hələ dövlət aparatını tamamilə düzəltməyə fürsət bulmamış olan cavan dindaşlarımız şimaldan heykəli-istibdadın ağır təzyiqi, qara əks-inqilabın şiddətli axıntısına məruz qalmışlardır.

Nikolay generalları qara qüvvələri başlarına toplayaraq hürr və müstəqil yaşamaq istəyən Qafqaziya qartallarının qanadlarını qırmaq, azad Qafqaziyanın şirinzəban [şirindil] quşlarını dübarə qəfəsə salmaq, azad dağıstanlıları yenidən istibdada əsir və hürriyyət səfası əvəzinə onları əsarət cəfasına qərq etmək istəyirlər.

Təbii, Dağıstanın vəziyyəti ağırdır. Bu misillü əhvalda [bu kimi hallarda] adətən göz gəzər, dost axtarar. Dağıstanın bugünkü halında ona kömək əli uzatmaq hamıdan ziyadə azərbaycanlıların borcudur. Həm ədasına [borcun qaytarılmasına] çalışır da. Hökumət və Məclisi-Məbusanımız var qüvvələri ilə Dağıstana hər növ yardım edəcəklərini bildirmişlərdir, lazım olan paranı verirlər, fraksiyalar könüllü əsgər dəstələri yığırlar, ilx.

Fəqət hər işdə hökumət ilə bərabər camaat özü də çalışmalıdır. Camaat öz tərəfindən dəxi dağıstanlı qardaşlarına: "Qorxmayın, möhkəm durun, qara qüvvəni yaxın buraxmayın! Biz dəxi dalınızda duracaq, hər növ kömək edəcəyiz!" - deməli və sözünə əməl etməlidir.

Biz əminiz ki, hürriyyət və istiqlal uğrunda qanına bələşən dağıstanlıları hürriyyətpərvər azərbaycanlılar yalnız buraxmazlar və hər vasitə ilə onlara imdad edərlər.

Böylə köməkdən biri və vasitələrdən birisi olmaq üzrə, cavan tələbələrimiz mayıs ayının 3-də "Dağıstan günü" quraraq cəbə [qutu] ilə ianə yığacaqlardır.

Həmişə böylə ittifaqlarda [hallarda] hümmət və həmiyyət göstərmiş olan Bakı camaatı bu gün dəxi həmiyyət və səxavətlərini ibraz etməli [göstərməli] və dağıstanlı qardaşlarının köməyinə qardaş hümməti ilə çıxmalıdırlar.

*Xəlil İbrahim*

## DAĞISTAN GÜNÜ

Hörmətli Bakı əhalisinə!

İllərdən bəri Nikolay boyunduruğu altında çapalayıb duran Qafqaziya millətləri üçün qocaman dağların arxasından göz açmaqda olan hürriyyət günəşindən iki sənədir ki, keçir. Başqa millətlərlə bərabər, elani-istiqlaliyyət etmiş Şimali Qafqaziya qartallar yuvaları irticanın qara qüvvələri tərəfindən tarümar olur. Azad Çeçenistan və İnquşistanın müqəddəs torpaqları qızların, anaların qızıl qanları ilə suvarılır. Alçaq denikinlərin qanlı, çirkli dırnaqları Dağıstanın simin [gümüşü, gümüş kimi ağ] bədənini yaralayır.

Qardaşlar! Bu gün Dağıstan unudulmaz. Bu gün deyil, əsrlərlə Şimali Qafqaziya dağlılarının ölməz adları tarixin mümtaz [seçkin] səhifələrindən silinməyəcəyi kimi, sizin xatirinizdən də silinməyəcək. Qafqaziyada qanad açmış mərmər sinəli hürriyyət pərisinin bağrına qəddar çarizmin kəskin xəncəri dayanmış. Bu gün Şimali Qafqaz ayaqlar altına düşərsə, yarın hürriyyətdən, istiqlaliyyətdən əsər belə qalmayacağı gün kimi aşkardır.

Vətəndaşlar! Dağıstana kömək etmək günüdür. Bu gün ona yardım etməyən vətən övladı, gələcək nəsillər tərəfindən lənətlərlə yad olunacaq. Bu gün bizim burada rahat yaşamamıza səbəb Şimali Qafqaziyanın göstərdiyi igidlik olmuşdur. Bu gün Dağıstan məğlub olarsa, yarın bizim də məqhur [qəhr] olacağımız təbiidir.

Şimali dağlılara canla, malla müavinət [kömək] etmək, onları göz bəbəyi kimi qorumaq, onların dağılan yurdlarına, atasız balalarına, anasız qızlarına, oğulsuz analarına dayaq olmaq, seylab kimi axan göz yaşlarını silmək bizim birinci vəzifəmizdir. Yoxsa, onlara hücum etməkdə olan canavarlar ətrafımızda olan quzğunların da baş qaldırmasına kömək edəcək, hürriyyət və azadlıqdan nam və nişan qoymayacaqdır.

Haydi, qardaşlar! Dağıstanın imdadına qurşanalım, heç olmazsa, cüzi para ilə onların ac-yalavaclarını ölümdən qurtaralım. Fəqət bu gün, yalnız bu saat, ancaq bu dəqiqə kömək, kömək, kömək olar. Əks halda, qarşımızda açılacaq uçurumlar hamımızı birdən udacaq, artıq peşmanlıq da fayda verməyəcəkdir.

Vətəndaşlar! Azəri-türk tələbəsinin sabahkı qədəmini, öhdəsinə aldığı ağır və müqəddəs vəzifəni var qüvvəmizlə qarşılamalısınız ki, o tifaqı nifaqa mübəddəl olmuş [çevrilmiş] qardaşlarımız qarşısında məyus qalmaya.

*Azərbaycan Müsəlman*
*Tələbələrinin Bakı komitəsi*

## MÜRACİƏTNAMƏ

Azərbaycanlı vətəndaş və qardaşlar!

Şimali Qafqaziyada azadlıq sevən dağıstanlılar öz atababalarının vəsiyyətinə və istiqlal əsaslarına sadiq qalaraq, irticapərəst Denikin və kampaniyası qüvvəsi ilə müharibə edirlər. Dağıstanlıların öz istiqlaliyyətlərini müdafiə etmələri azərbaycanlıları da ayıltmalıdır və düşündürməlidir ki, qaranlıq və zülmət nümayəndəsi olan Denikin Azərbaycan istiqlalına rəhm etməz. Hər bir müsəlmanın müqəddəs vəzifəsidir ki, vaxtı ilə öz dağıstanlı qardaşlarına müavinət eyləsin.

Beynəlfirəq [Partiyalararası] Komissiya dağıstanlılara müavinət üçün Azərbaycan könüllü dəstəsi düzəldir. Bu dəstə də təcrübəli zabitlərin təhti-idarəsində [idarəsi altında] olacaqdır.

Vətəndaşlar!

Könüllü dəstələrinə yazılınız. Parlaman imarətində Beynəlfirəq Komissiyada səhər saat 10-dan 2-yədək, axşam 5-dən 7-yədək könüllülər qəbul edilir.

*Beynəlfirəq Komissiya*

## YOL ƏSNASINDA GÖRDÜKLƏRİM

Keçən sənə avqust ayında Bakıdan çıxıb altı aydan bəri əhvalından xəbərimiz olmadığı vətənimiz olan Axıskaya getdik.

Axıska o vaxt türklərin əlində idisə də, istiqbalı [gələcəyi] pək vəxim [təhlükəli] idi. Əhali arasında bir çox şayiələr dövran edirdi, müharibə hazırlıqları görülürdü.

Türklər geri çəkilmək üzrə hazırlıqlar görür, yerli əhalilər qızğın bir hərəkatla müharibə tədarükü görürlərdi. Zamanın böylə qarışıq bir vaxtına təsadüf etdiyimizə peşman olduqsa da, iş işdən keçmişdi. Artıq, gələcək günləri düşünməkdən başqa çarə qalmamışdı.

Bakıya da qayıtmaq mümkün deyildi; çünki sərhəddən keçmək lazım idi. Orada çox deyilsə də, az-az müsadimələr [toqquşmalar] hər vaxt eşidilirdi.

Məlum ki, Bakı hadisəsini keçirmiş bir insan, bir daha o hadisələri görməyə davam edəmməzdi. Ona görə Axıskada oturmaq qabil olammadı. O vaxtlarda İstanbul yolu açıq idi; İstanbula getmək, həm orada sakin olmaq, həm çocuqları məktəbə vermək fikriylə İstanbula getdik. Orada ünas [qadın] cəmiyyəti-xeyriyyələriylə görüşdük, ələlxüsus "Əsirgəmə dərnəyi" adlanan ünas cəmiyyəti-xeyriyyəsiylə görüşdük ki, o cəmiyyətə beş sənə bundan əvvəl də üzv yazılmışdıq. Şimdi də üzvlük haqlarını verib təzədən qeyd edildik və bir qaç dəfələr iclaslarında bulunduq. Xanım əfəndilər bizim üçün bir ziyafət də verdilər. Bu cəmiyyət beş sənədən bəri xeyli tərəqqi etmiş və çox işlər də görmüşdü. O cəmiyyətə Əhməd bəy Ağayevin hərəmi [həyat yoldaşı] Sitarə xanım da daxildir. Həmçinin Ənvər paşanın böyük həmşirəsi [bacısı] Hasənə xanım da iştirak edir.

Cəmiyyətin vəzifəsi; bikəs çocuqları yığmış və Balkan müharibəsində Anadolu hərbzədələrini [müharibədən zərər görənləri] toplamış, onlar üçün iş evi açmışdır; dairəyə pambıq götürürlər, oradan hazır süfrələr, dəstmallar, işləmə pərdələr, qaryola [çarpayı] taqımları, əlbisəlik qumaşlar, tikilmiş və tikilməmiş parçalar, hazır koftalar çıxarırlar ki, pambığı əyirmək, bükmək, toxumaq, biçmək, tikmək, naxış işləmək – cümləsi orada qızların əlindən çıxır. Müdirə və müəllimələri həpsi türk xanımlarıdır.

Bizim Azərbaycan heyəti o "Əsirgəmə dərnəyi"ndən bir çox şeylər almaqla, cəmiyyətə böyük bir müavinətdə bulunmuş oldular. Cəmiyyət də onun müqabilində ərzi-təşəkküratda bulunmaqla bərabər, heyətin şərəfinə böyük bir ziyafət tərtib etmək istədilər. Fəqət heyət, vaxtlarının müsaid olmadığını söylədikləri üçün ziyafət olmadı.

Bir çox məktəblər də gəzdik, ələl-xüsus qız məktəblərini; o cümlədən Sultan Muradın hərəmi Bəzmiələmin kəndi adına bina etdirmiş olduğu məktəbi ki, şimdi də onun adı ilə çağırılır: "Bəzmiələm Validə Sultanisi". O məktəbə də getdik, müdirəsi Xədicə xanımla müdiri Arif bəy əfəndinin göstərmiş olduqları nəzakətlərə heyran olduq. Zatən nəciblikdə türklər ad qazanmışlarsa da, bəziləri insanı heyran buraxacaq dərəcədə nəzakət sahibləri olduqlarını gözlərimizlə gördük. Bir gün sabahdan axşama qədər gəzdikdə ancaq məktəbin bir cüzi şeylərini gördük. O məktəbdə ələn [hal-hazırda] 1400 xanım qız mövcuddur ki, səkkiz yüzü "leyli", qalanı isə "nəhari"dir. Siniflərdə dərs əsnasında bulunduq, ən çox nəzər-diqqətimizi cəlb edən şey axırıncı sinifin dərslərinə baxmaq üçün sinifə girdikdə bu dərsin fransız lisanı olduğu anlaşıldı. Qızların önündə fransız kitabları olduğu kimi, dərs verən müəllimələri də – türk xanımı, müəllimələrə məxsus olan yerində oturmuş, türk qızlarına türk müəlliməsi fransız dərsi verirdi. Məktəbin dəftərinə o günün müşahidatını [müşahidələrini] qeyd etməklə məktəbdən çıxdıq.

Sonra "Təfəyyüz" məktəbinə getdik. Müdirəsi Naqiyə xanımla və müəllimələriylə görüşdük, ismiylə iftixar etməyə layiq olan məşhurə ədibəmiz Xalidə [Ədib] xanım əfəndi də o məktəbdə həftədə bir dəfə dərs verirdi.

İştə, bu vaxtlarda idi ki, Bakıdan Azərbaycan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] İstanbula varid oldular [gəldi]. Bakının işləri düzəldiyini xəbər aldıq. Artıq dərəcə şad olmaqla bərabər, Bakıya gəlmək istədik, fəqət bu dəfə ingilislərdən izin almaq lazım idi. Cənab Əlimərdan bəy Topçubaşov bizə azərbaycanlı olduğumuza dair bir vəsiqə verdi. O vəsiqəni ingilislərə verdik. Onlar bu vəsiqəyə qənaət etməyib, bizdən pasportumuzu aldılar və bir çox suallar daha qeyd edib, 15 frank da para aldılar. Cavabını on gündən sonra verəcəklərini söylədilər. Bunların on gün dedikləri tam 44 gün çəkdi.

Mən hər gün heyəti-mürəxxəsə ilə və [Ağaoğlu] Əhməd bəylə görüşürdüm. Əhməd bəyin tövqifində [həbsində] də orada idim. Əhməd bəy hənuz səhhəti-tam kəsb etməmişdi [tam sağalmamışdı]. Doktorların tənbihatına görə daha evdən çıxmayırdı. Bir gün məmurlar gəlib Əhməd bəyi qayət nəzakətlə müdiriyyətə çağırdılar. Əhməd bəy xəstəliyini söylədi, məmurlar getdilər. Bir qaç saatdan sonra həmin məmurlar bu dəfə müdiriyyət tərəfindən yanlarında bir doktor olduğu halda gəldilər. Doktor, Əhməd bəyi müayinə edib tamamən səhhətdə olmadığını söylədi və buna dair raport yazdı. Bu dəfə məmurlar raportu götürüb getdilər. Ertəsi günü məmurlar örtülü fayton gətirib Əhməd bəyi müdiriyyətə götürdülər.

Ailəsi gedib Əhməd bəylə görüşürdülər. Mən İstanbuldan çıxan günlərdə ailəsini Əhməd bəylə görüşməyə daha buraxmayırdılar. Mən orada ikən iki dəfə isticvab [sorğu-sual] etmişdilər: nərədə dünyaya gəldiyini, nərədə təhsil gördüyünü, Türkiyəyə nə üçün getdiyini və orada İttihad və Tərəqqi firqəsinə nə vaxt daxil olduğunu təhqiq yolu ilə bir taqım suallar verildər.

Əhməd bəylə tövqif olunanlar [tutulanlar] 23 şəxs idi ki, bunlar əvvəlki tövqif olunmuşların yanına götürülməyib, Hərbiyyə Nəzarəti nəzdində "Bəkirağa bölüyü"ndə ayrıca yaşayırdılar.

Azərbaycan heyəti-mürəxxəsələri mən İstanbuldan çıxdığım aprelin 4-ündə hələ İstanbulda idilər. Mən onlarla aprelin 3-də görüşdüm. O günü fransızlardan Məhəmmədhəsən bəy Hacınski, Ceyhun bəy Hacıbəyov və [Məhəmməd] Məhərrəmov isimləriylə izin kağızı gəlmişdi! Heyət bir qaç dəfə təkrar müraciət etdiyi üçün bu dəfə artıq müraciətə lüzum görməyib yola düşmək fikrində idilər.

Bəndəniz Batuma gəldikdə, əvvəlcə Axıskaya gedib pədərimi [atamı] görmək və sonra Bakıya gəlmək istəyirdim. Fəqət Batuma gəldikdə, orada bir qaç axıskalı adamlar gördüm. Bunlardan əlavə doktor Mahmud bəy Əfəndiyevlə, Yusif əfəndi Talıbzadə ilə görüşdüm. Onlar mənim Axıskaya getmək fikrimi eşitdikdə, o fikirdən dönməyimi məsləhət gördülər. Axıskalılar Axıskanın və ətraf kəndlərin halını ağlanacaq bir halda təsvir etdilər ki, hələ də bu vəhşilik davam etmək üzrə imiş.

Təəccüb burasıdır ki, iki aydan bəri davam edən bu qan ocağını bir düşünən, bir çarəsinə qalan yoxdur! Görənlər söyləyirlər ki, zavallı kəndlilər iki ay bundan əvvəl itirmiş olduğu çocuğunu hələ daha bulammayır, ah və nalə ilə dağları-daşları gəzib, kimi çocuqlarını, kimi ana-bacısını arayırmış.

Bir çox ailələr qabaqlarında naxoşları olduğu halda hücum səsi eşitmiş, qaçmışlar. Bir daha nə o xəstəsini və nə o xəstənin ölüsünü belə bulammamış. Mal getmiş, əşya qarət edilmiş, parasını soymuşlar, evlərini yandırmışlar. Hər il bu vaxtlar öküzləri yanında, tarla başında toxum əkən kəndlilər bu gün toxumdan da məhrum, öküzlərindən də məhrum, əlləri qoyunlarında, dağlarda, meşələrdə zarıyıb gəzirmişlər. O biri tərəfdən aclıq təsiriylə, ya qorxu təsiriylə, rahatsızlıq, kirlilik təsiriylə, nədənsə, cürbəcür xəstəliklər hökmfərma olduğunu [hökm sürdüyünü] söyləyirlər. Gözüylə görənlər söyləyirlər ki, cənazələr karvan kimi düzülmüş, ardı-arxası kəsilməyir. Bir evdə üç-dörd yüz can yığışmış, imrari-həyat edir [ömür sürür]. Xəstələr bir-biri üstə yatır, izdiham o qədər çoxdur ki, ölüsü ölən öz ölüsünü bulammayır. Bir qaç səlamət qurtaranlar da varsa, onlar da o yanda-bu yanda başlarını səlamət qurtarmaq üçün vaxt keçirirlər. Əgər Axıskanın halı bir müddət də böylə qalarsa, insan adına heç kimsə qalmaz.

Batumda bu əhvalatları eşitdikdə və Batumun gündən-günə bahalığını gördükdə, daha orada qalammayıb Bakıya gəldim.

Batum ətrafdan gələn qaçqınlarla doludur. Hər gün Krım və Odessa tərəfindən matorlarla, qayıqlarla qaçqın ailələr daşınırlar. Gələnlər üçün nə evlərdə, nə otellərdə boş otaq bulunmayır. Hər şeyin qiyməti qalxmışdır. Axşamlar saat 8-dən sonra gəzmək mümkün deyil. Ev soymaq, adam öldürmək kimi şeylər tez-tez vaqe olur...

*Şəfiqə Əfəndizadə*

## DOĞRU YOL

Son vaxtlarda müəllimlər hökumətin laqeydliyinə xəbərdarlıq üçün üç günlük tətil elan etdikləri məlumdur. Bu tətilin mahiyyəti nədən ibarət olduğunu anlatmaq icab edir [lazım gəlir].

Ölkəmizdə bulunan bütün azərilər bu gün bir ideal bayrağı altında birləşmişlərdir: müstəqil hökumətə çatmaq, həmişəlik yaşamaq həpimizin qəti muradı olmuşdur. Bu muradlardan birincisinə bir dərəcəyə qədər nail olmaq üzrəyiz. İkinci muradımız da, yəni həmişəlik olaraq müstəqil yaşamaq ixtiyarı özümüzə, lap özümüzə aid bir məsələdir.

Burasını bilməliyiz ki, bir hökumətin həmişəlik yaşaması üçün bir çox şərtlər lazımdır: hökumət tanıyan el, el tanıyan hökumət bulunmalıdır. Millət və vətən hissi ilə doymuş əsgər, məmur və əfrad [fərdlər] olmalıdır. Həpsi də tərəqqi yolunu bilib, dalınca gedə bilməlidir. İştə, bir dövlət ancaq bu surətlə həmişəlik yaşaya bilər.

Böylə dövlət düzəltmək üçün bol-bol nüfus [əhali], ərazi və sərvət lazım deyil. Elm və əsaslı tərbiyə, əxlaq yeganə və başqa səbəblərdir ki, mətin bir dövlət təşkil edə bilər.

Cahil əhalidən əmələ gələn bir dövlət çamurla tikilən daş evlər kimidir. Varlıq göstərsə də, əbədilik sifətini daşıyammaz. Əfradı tərbiyə və elm çimentosu ilə dövlətə yapışdırmaq lazımdır ki, hər gün və hər dəqiqə rəsanətə [möhkəmliyə] doğru birər addım atsın. Bunun üçün millətini yaşatmaq istəyən bir hökumət və hökuməti saxlamaq istəyən bir el, gecə və gündüz bütün varlığı ilə, qeyrəti ilə çalışıb millət içindən cəhaləti və cahilləri qaldırmalıdır.

Bununla demək istəməyiriz ki, sinni [yaşı] keçmiş bütün əfradı hökumət oxutmalıdır, yaxud qırıb ortamızdan çıxarmalıdır. Xayır! Bizim təhsil və tərbiyə zamanımız keçdi, fəqət nasıl olsa da genə ictimai mövqeyimiz, qiymətimiz vardır. Çinar ağacı kimi yıxıldığımız zaman böyük zərərlərimiz olsa da, bəzən faydalı kölgəmiz də olur. Nasıl olsa da qalmalıyız. Məmafih [bununla belə], zaman kəndisi bizi dünyadan çıxaracaqdır.

Hökumət çalışmalıdır ki, bizdən sonra gələcək övladlar bizim ruhumuzda, bizim qafamızda yerimizi işğal eyləməsinlər. Əks təqdirdə genə cahil hökumət halında inqiraza [süquta] məhkum bir tikişdə qalmış olacağız. Şimdi, əfradı nasıl, kimlə və hangi vasitə ilə təlim və tərbiyə edəcəyiz? Nəyə, nərəyə və kimə qiymət verəcəyiz? Bunu aşağıdakı misalı söylədikdən sonra söyləyəyim.

Fransızlar Sedan müharibəsinə girmədən bir sənə əvvəl idi. Hərbiyyə büdcəsi müzakirə edilirdi. O zaman Hərbiyyə naziri, büdcəsinə böylə bir müqəddimə yazmışdı:

*"Yanımızda başımıza endirmək xəyalı ilə çəkic qaldırmış düşmənlər vardır. Fransızlar bütün varlığı ilə müdafieyi-vətən və millət hərbinə hazır olmalıdır. Bütün ağızlar daima şu virdi [duanı] yapmalı: Əsgərə mövqe! Əsgəri iaşə! Biz ancaq bu fədakarlıqla düşmən qarşısında vətən və millət saxlaya biləcəyiz."*

Bir sənə sonra almanlar Sedan müharibəsini başladılar. O zaman Hərbiyyə naziri Parlamentoda dedi ki:

*"Fransızların hümmətindən əsgərimizin qulaq torbasına qədər bütün təchizatı yerindədir. Yüzdə yüz qələbə bizim tərəfimizdədir."*

Fəqət nəticə düşünüldüyü kimi çıxmadı. Yüzdə iki yüz hərb almanların qələbəsi ilə nəticələndi. Fransızlara sənələrlə bu milləti keyləşdirən yumruqlar endi.

Bu məğlubiyyətin səbəblərini meydana qoyan bir fransız mühərriri [yazıçısı] deyir ki:

*"Alman müəllimləri hərbi biz qazandıq deyə bağırırlar. Bağırsınlar, çünki haqlıdırlar. Doğrudur, onlar doğrudan-doğruya hərbə girişməmişlərdir. Lakin behaqq [həqiqətən] əsgər ruhlu əfrad yetişdirmişlərdir. Bizə bu haraydan böyük hissələr düşür. Anlaşıldı ki, tərbiyeyi-əxlaqiyyə və zehniyyədən məhrum əhali və əsgər, Mehdi də olsa, işə yaramazmış. Hərbiyyə naziri bir zaman fransızlara birər vird təlim etmişdi:*

*Əsgərə mövqe! Əsgəri iaşə!*

*Bu virdi biz, düşmən Sedanda ruhundan atəşlər yağdırarkən də təzkar edirdik [yada salırdıq]. Hətta milyardlarla təzminat yükü ilə uyuduğumuz zaman genə bu virdlə sayıqlayırdıq. Şimdi hərbiyyə də, hökumət də və millət də – həpsi o virdi dəyişməlidir. Fransız virdi deyil, alman virdini təzkar etməlidir: Hər qüvvət üçün müəllimə müraciət, müəllimə mövqe, müəllimi iaşə!"*

Biz azərilər Sedan məğlubiyyətinə mübtəla deyiliz; fəqət önümüzdə, dalımızda nə qədər istiqlal düşmənlərimiz vardır. Böyük qüvvətə malik olmamız icab edir [lazımdır]. Bunun üçün ən adi fərdlərimizdən ən yüksək təbəqələrimizə qədər, həpimiz bu xüsusda eyni düstura müraciət etməliyiz: Müəllimi iaşə, müəllimə mövqe!

Buna qənaətlə inanmalıyız ki, istiqbali-istiqlalımızı [istiqlalımızın gələcəyini] müəllimlər çiyninə götürməzsələr, yaşayammayacağız. Vicdanlı, qüdrətli, zəkalı müəllimlər bizim hər dərdimizə dərman edəcək təbiblərdir. Onlar məişət dərdi kimi süfli [alçaq, aşağı] bir taqım xəyallarla vaxt keçirməməlidirlər. Dağdağasız [təlaşsız, dərdsiz] bir zəka ilə hər daim tərbiyədə bulunub, tərbiyə ünsürü aramalıdırlar. Bu məsləkdə öylə şərəf və öylə sərvət və öylə məişət rahatlığı olmalıdır ki, millətin bütün zəkalı, ideallı, yaxud hərisi-sərvət [sərvətə həris] gənclərini miqnatıs [maqnit] kimi çəkməlidir.

Şimdiki Fransa müəllimə bu cürə baxan bir heyətin məhsuludur. Artıq manəhnü-fihə [danışdığımız mövzuya] keçirəm:

Müəllimin qiyməti bu qədər böyük ikən, biz buna nə mövqe veririz? Onun iaşəsi üçün nə qədər aylıq sərf ediriz? Bu vaxta qədər nəhayəti 500 rublə maaş! Bundan sonra da çoxu 1000 rublə, deyilmi? Halbuki, Nuxu ictimasında [yığıncağında] yapılan büdcə cədvəlinə görə, dörd baş külfətin ən adi həyatı üçün 3000 rublə belə kafi gəlməyir. Dəmək ki, məsarifin mədaxil altıda birini, yaxud üçdə birini belə ödəməyir. Büdcədə açılan bu qədər açıqlıq nə ilə, hangi xəzinə və maməlaklə [mal-mülklə] qapana bilər? Bir halda ki, beş dənə kitabından başqa heç bir sərvətə malik deyildir.

Bunun üçün bu gün müəllim firqəsi hökumətin ən səfil məmurlarındandır. Şərəfi-məslək və heysiyyətini bunlar qədər itirən bir məmur yoxdur. Çarşıdan borclu əlindən keçə bilməyənlər içində mütləq müəllim də vardır. Bir baqqal tərəfindən tərzil olunan [alçaldılan] adamlar cərgəsində müəllimlər də mövcuddur. Çılpaq və cındır gəzən şəxslər arasında müəllimlər də bulunur. Səfil qalan çocuqlar, qadınlar, müəllim yavruları, müəllim bacı, ana və qarılarıdır [arvadlarıdır]. İştə, bizdə millətin gələcəyini çiyninə götürən tayfanın halı bu dərəcədə ağırdır.

Artıq böylə səfil həyata hangi mələk və peyğəmbər-xisal [mələk və peyğəmbər xislətli] həvəslənər, hangi müqtədir zəka yanaşmaq istər? Yaxud hangi zəkalı, məlumatlı bir müəllimdə bu məişətlə bərabər iqtidari-elmi [elm qüdrəti] qalar, tədris və tərbiyə məhərəti görünər? Bu yolu tutmaq ancaq mövcud müəllimləri məhv etmək deyildir, gələcəyin müəllimləri[ni] də diksindirməkdir [iyrəndirməkdir]. Maarifin qabağına böyük xəndəklər qazmaqdan başqa bir şey olmayan bu yol, millətin gələcəyində nə qorxunc uçurumlar hazırlayar.

Əgər bu uçurumları müəllimlər eynəlyəqin [öz gözləri ilə] görməsəydilər, susardılar. Çünki, dövrümüzdə elmli bir firqə üçün rahat və məişət yolları çox-çoxdur. Gedərdi, qazanar və dolanardılar. Nə çarə ki, nə susmağı, nə çəkilib getməyi şani-elmlərinə müəllimlər sığdırammayırlar. Bunu istiqbala xəyanət ədd [hesab] edir, tətil əxbarı [xəbərdarlığı] eyləyirlər. Zərər yoxdur, bu tətil bir çoxlarının ancaq başlarının üzərindən keçəcəkdir. Fəqət, genə millət imdadına ərbabını dəvət edəcəkdir.

Müəllimlər o iç tarla sahibinə bənzərlər ki, köy tarlalarına kənardan düşən odu söndürmək üçün haray təpirlər. Tarlası olanlar imdada gəlirlər; həm kəndi tarlalarını qurtarırlar, həm də onlarınkını!

*Müəllimlər İttifaqı*

## TÜRKİYƏYƏ VERİLƏN ŞƏRAİTİ-SÜLHİYYƏ

Aldığımız məlumata görə, Müttəfiq dövlətlər tərəfindən şəraiti-sülhiyyə olmaq üzrə Türkiyəyə aşağıdakı məvaddı haiz bir sülhnamə təklif edilmişdir:

1) İstanbul Türkiyə paytaxtı qalmaq üzrə porto-franko (açıq qapı) elan olunacaq.

2) Batum, Qars və Ərdahan vilayətləri Türkiyəyə qaytarılacaq, yalnız, Batum sərbəst şəhər elan olunacaq.

3) Hicaz, Şamat (Suriya) və İraq (Bağdad, Mosul və Bəsrə vilayətləri) xəlifənin himayəsi altında birər ərəb əmiriyi halını kəsb edəcəklər.

4) 25 il müddətinə Türkiyə üzərində idarəcə ingilislər, əsgərlikcə fransızlar və iaşəcə amerikalılar tərəfindən üçlü bir kontrol təsis olunacaq.

5) Türkiyə dəmir yolları 25 illik bir müddətlə İngiltərə idarəsində qalacaq.

6) İzmir vilayəti ilə Van vilayəti siyasətən Türkiyə sultasında qalmaqla bərabər, 15 il müddətlə Fransa idarə və kontroluna tabe olacaqdır.

7) Bəhri-səfiddəki [Ağ dənizdəki] Osmanlı cəzirələri [adaları] Türkiyəyə iadə olunacaq.

8) Kipr cəzirəsi ilə Misir xidivliyi İngiltərəyə qalacaq.

9) Trablusqərb qəti surətdə İtaliyaya keçəcək.

10) Türkiyədəki ermənilərlə yunanlılar müsavati-hüquqa malik olub, kəndilərinə milli-mədəni muxtariyyət təmin olunacaq.

11) Türkiyə qüvayi-əsgəriyyəsi [hərbi gücü] 50 mindən artıq olmayacaq.

12) Türkiyə Azərbaycan işlərinə müdaxilə etməyəcək.

Fövqəlzikr şəraitin [yuxarıda deyilən şərtlərin] türklər tərəfindən qəbul edilmədiyi rəvayət olunmaqdadır.

*Ədəbi sütunlar*

## KOR-SOQQUR

- 1 -

Dünya üzünə gəldiyi halən neçə ildir,
Yer-göy nasıl imiş, buna agah deyildir.
Parlaq günəşindən deyil agah səmanın,
Gündüzləri də həp gecədir tifli-əmanın.
Bir cift işıqdan belə məhrum şu bədbəxt,
Dünya ona başdan-başa bir aləmi-zülmət.
Dər-pərdədir onca bütün aləmdəki əşya:
Görməz ki, nədir şəmsi-ziyapərvəri-dünya,
Görməz şu lətafətli, təravətli baharı,
Fəhm eyləyəməz məzhəreyi-rəngnisarı.
Təmyiz edəməz hüsn ilə çirkinliyi əsla,
Yoxdur gözü görsün ki, nədir ruyi-dilara.
Bilməz necədir ruyi-pədər, çöhreyi-xahər,
Bədbəxt çocuq həsrəti-rüxsareyi-madər.
Bir milləti-ə'ma da həman kudəkə bənzər,
Görməz ki, nədir ərz həyatındakı fərlər.
Fəhm eyləyəməz çöhreyi-gülrəngi-həyatı,
Bilməz ki, nədir rəng ilə ahəngi-həyatı.
Bu parlaq əvalimdə yaşar zülmətə məhkum,
Görmək özü bir ne'mət ikən, ne'mətə məhrum.
Varkən bu qədər nurü-ziya rəhgüzərində,
Dərk eyləyəməz, çünki işıq yox nəzərində.
Görməz ki, nədir əyri və ya doğru olan yol,
Möhtac yaşar gözləri sönmüşlər, əmin ol!
Ənzarı olanlar olur ə'malara rəhbər,
Mənalı baxışla bunu gör, anla, bəradər!
Rəhbər olamaz gözlülərə gözsüz olanlar,
Qanuni-təbiət budur aləmdə pədidar!..

*Bakı, 27 nisan 1919*
*Əbdülsəlimzadə Məhəmməd Hadi*

## SÜLH ƏTRAFINDA

İngilislər və fransızlar Almaniyadan nə qədər pul tələb edəcəklərini təxmin etməmişlərdir. Fəqət qəviyyən [möhkəm] ümid etmək olar ki, Almaniyadan tələb ediləcək məbləğ əfkari-ümumiyyənin [ictimaiyyətin] gözlədiyi qədərdən az olacaqdır. Amerika nümayəndələri fikir edirlər ki, Almaniyadan o qədər pul tələb etməli ki, Almaniya bunu vermək iqtidarında olsun. Bu təklif Almaniyadan heç bir vaxtda alınması mümkün olmayan məbləği tələb etməkdən əlverişlidir.

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 1 may (Cümə axşamı günü) tarixli 170-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Fransız qəzetələri zənn edirlər ki, xəsarətləri [kompensasiyanı] almaq məsələsi yeni sərhəd məsələlərindən tez həll ediləcəkdir. Zahirən Polşa 3 milyon almanların Dansiq dairəsinə daxil edilmələrindən narazıdır.

## TELEQRAF XƏBƏRLƏRİ

Paris - İtaliyanın böyük bir gəmisi Venedikdən Trablusa [Tripoliyə] 2 min nəfər sərnişin apararkən minaya toxunmuşdur. Bir çox ölən və 100 nəfər yaralanan vardır.

Berlin – Almaniya-Avstriyada olan fransız fövqəladə səfiri Vyanada qəzetəçilərə demişdir ki, Almaniya-Avstriya Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] idxal ediləcəkdir.

**Bolşeviklərə qarşı**

Paris - Havas ajansı xəbər verir ki, dörd Müttəfiq baş komandanları və bir general Dördlər Şurasına dəvət edilmişlərdir ki, bolşevizmin Qərbi Avropaya keçməsinə qarşı tədbirlər ittixaz edilsin [tədbirlər görülsün]. Layihədə təklif edilir ki, Baltik dənizi ilə Qara dəniz arasında yaşayan Müttəfiqlərin və Müttəfiqlərə dost olan qitələrin [yerlərin] hamı təbəələri səfərbərliyə alınsınlar və sonra bunlar bolşeviklərə qarşı çıxsınlar.

**Xəzər dənizində müharibə**

Aprelin 28-də İngiltərə ərkani-hərbindən [hərbi qərargahından] rəsmi surətdə xəbər verilir ki, aprelin 25-də Hacı-Tərxan [Həştərxan] yaxınlığında, uzaq bir məsafədə İngiltərənin müsəlləh [silahlı] “Zoroaster” və “Venture” gəmiləri ilə düşmən gəmiləri arasında müharibə olmuşdur.

Aprelin 25-də İngiltərə gəmiləri Volqa yaxınlığında kəşfiyyatda bulunub, düşmən gəmiləri olduğunu kəşf etmişdir. Düşmən gəmiləri müharibədən imtina edib, top atəşi məntəqəsindən kənar durmuşlardır.

**Türkiyə və Gürcüstan**

İstanbuldan xəbər verirlər ki, Türkiyənin Avropa müharibəsinə daxil olması haqqında təəccüblü hallar kəşf edilmişdir. Belə məlum olur ki, Türkiyə müharibə elan edənə qədər, Ənvər paşa rus əsgərlərinin geri çəkilməsini kəsməkdən ötrü Qafqaziyada əməliyyatda bulunmaq haqqında Gürcüstan ilə müahidə [saziş] imza etmiş imiş. Brest-Litovsk müahidənaməsində Gürcüstana verilən Türkiyə-Gürcüstan imtiyazatı bununla təfsir [izah] edilir.

**Amerikanın şəraiti**

Amerika mənbələrindən alınan Paris xəbərlərində deyilir ki, Müttəfiqlər bitərəf dövlət kontrolları təhtində [altında] Rusiyaya ərzaq göndərməyə razı olmuşlar. Bu şərtlə ki, bolşeviklər düşmənanə hərəkatı qət etsinlər [kəssinlər].

**Bolşeviklərin məğlubiyyəti**

Bükreşdən [Buxarestdən] xəbər verirlər ki, Dnestr nəhrinin şərqi sahilində bolşevik əsgərləri ilə romaniyalılar arasında dəhşətli müharibə olmuşdur. Bolşeviklər məğlub olmuşlardır. Ağır yaralananların miqdarı artıqdır.

**Foş sülh haqqında**

Müsahibə əsnasında general Foş “Deyli meyl” qəzetəsinin müxbirinə demişdir ki, bizim sülhümüz məğlubların deyil, qaliblərin sülhü olmalıdır. Reynə çatmaqla biz orada qalmalıyız. Burası Fransa və İngiltərə üçün yeganə qorxusuz bir yoldur.

## QƏZETƏLƏRDƏN

**Hacı-Tərxanda**

Keçən gün, Staro-Tereçnidən “Xanhüseynov” adlı bir paroxod gəlib 400-dən ziyadə sərnişin gətirmişdir. Bu sərnişinlərin çoxu qaçqınlardır. Bunların arasında Hacı-Tərxandan [Həştərxandan] qaçanlar da vardır. Sərnişinlərdən biri bu yaxınlarda Hacı-Tərxanda olan hadisələr haqqında böylə bir maraqlı əhval nəql eyləyir:

Aprelin 8-də Hacı-Tərxan fəhlələri aclıqdan müsəlləh [silahlı] bir surətdə Qırmızı ordu əleyhinə qalxmışlar. Məhəlli [yerli] əhali də fəhlələrə mülhəq olmuşdur [qoşulmuşdur]. Bir neçə gün şəhərdə və ətrafında qanlı müharibə davam etmişdir. Əvvəlcə üsyan edənlər qalib gəlmişlərsə də, 4-cü gün bolşeviklər gəmilərdən şəhəri top atəşinə tutmuşlar. İğtişaş çox müşkülatla yatırılmışdır. Bir çox dinc əhali mütəzərrir olmuşdur [zərər çəkmişdir]. Hal-hazırda bir çox adamlar həbs edilib güllələnməkdədirlər.

Sərnişinlərin rəvayətinə görə, Kizlyardan Tixoretskə qədər dəmiryolu Könüllü ordu və Müttəfiq dövlət əsgərləri tərəfindən işğal edilib, dəmiryolu hərəkatı vardır. Tixoretskdən Rostova qədər bolşeviklərlə bilafasilə [fasiləsiz] müharibələr olmaqdadır. Bolşeviklər bilaaram [aramsız] Tsaritsın tərəfindən qüvvə almaqdadırlar.

Staro-Tereçni, Novo-Tereçni, Bryanskaya Kosa, Kizliyar və Çeçen adası Müttəfiq dövlət əsgərləri tərəfindən işğal edilmişdir.

**Bolşevik kazaklar**

Kazaklar Orenburq tərəfdə Dutov dəstələrinin hərəkətini görüb, Şura Hökumətini müdafiə etməyə başlamışlardır. Qırmızı ordu əsgərləri ilə bərabər müharibələrdə iştirak etmişlərdir.

**Kolçak ilə mübarizə**

Petroqradın mütəşəkkil füqərayi-kasibəsi [proletariatı] Kolçak ilə nə tövr mübarizədə buluna biləcəyi məsələsini həll etməkdən ötrü Petroqrad Həmkarlar İttifaqı Şurası tərəfindən mayın 2-də ümum quberniya füqərayi-kasibəsinin konfransı vaqe olacaqdır. Bu axır günlərdə Finlandiya təriqi [yolu] ilə Almaniyadan 300 min hərbi əsir qaçıb gəlmişdir. Bunların hamısı Kolçak ilə mübarizədən ötrü Qırmızı orduya yazılmağı qərara almışlar.

**Polşanın tələbatı**

Polşa iddiasının nəticəsi olaraq Polşa tələbatına artıq güzəşt edilmişdir. Dansiq şəhəri Polşa gömrükxana ittifaqına daxil ediləcəkdir. Dansiq körpülərindən, doklarından və qeyri nəqliyyat vəsailindən [vasitələrindən] azad bir surətdə istifadə etmək işi Polşa üçün təmin ediləcəkdir. Şərqi Prussada Almaniyaya azad keçəcəyinə vagüzar ediləcəkdir.

## ZAQAFQAZİYA KONFRANSI

Keçən gün Şurayi-Vükəla rəisi [Baş nazir] Tiflisdən, Məhəmməd Yusif Cəfərovdan böylə bir teleqraf almışdır:

“Bu gün aprelin 26-da Zaqafqaziya Cümhuriyyətləri Konfransının birinci iclası vaqe olmuşdur. Mərasimi-təbrikatdan sonra heyəti-rəyasət intixabı [rəyasət heyəti seçkisi] başlanmışdır. Heyəti-rəyasətə hər cümhuriyyətdən bir nümayəndə daxil olmuşdur. Azərbaycan Hökuməti tərəfindən heyəti-rəyasətdə Fətəli xan Xoyski iştirak edir. Bu gün heyəti-rəyasətin iclası vaqe olub konfrans iclaslarının məramnaməsi, nakaz [nizamnamə] və məsələlərin baxılması qanunu müzakirə edilmişdir.

Yekşənbə [bazar] günü aprelin 27-də Gürcüstan Xariciyyə Nəzarəti mənzilində Zaqafqaziya Konfransı açıldı. Gürcüstan, Ermənistan və Azərbaycan nümayəndələri orada isbati-vücud [iştirak] edirdilər. Gürcüstan Xariciyyə naziri Y. P. Gegeçkori sədarət edirdi. Mümaileyh [adı çəkilən şəxs], işbu nitq ilə iclası açmışdır:

*– Zaqafqaziya Konfransı qayət qarışıq və əhvali-siyasiyyənin kəskin bir zamanında açılır. Müharibə nəticəsi olaraq əsasından təzəlzül etmiş [sarsılmış] Avropa hələ müvazinəyə gəlməmişdir. Ola bilər ki, bundan sonra da əhval dəxi də qarışacaqdır. İştə, böylə bir zamanda Zaqafqaziya millətləri nümayəndələri cəmləşmişlərdir və məqsədləri də budur ki, ümumi bir dil tapıb müttəhid [birgə] çalışmaq üçün zəminə hazırlasınlar.*

*Gürcüstan Hökuməti müəyyən surətdə bəyan edir: Zaqafqaziyada yaşayan millətlər mənafeyinin bir-birinə zidd olmasına baxmayaraq, onların ən mühüm və həyati mənafeyi tələb edir ki, birləşsinlər. Bu da, əlbəttə ki, mümkündür.*

*Konfrans ümumi bir dil tapmalı, ümumi mənafeyi nəzərdən qaçırtmamalıdır. Zaqafqaziya millətlərinin istiqlaliyyətini xətrə [təhlükə] gözləyir. O xətrə nə yerdən gələrsə, heç şübhəsiz ona Zaqafqaziya millətləri müttəhidən [birgə] cavab verməlidirlər. Gürcüstan Hökuməti ümid edir ki, Zaqafqaziya millətlərinin birləşməsi nəticəsi olaraq Zaqafqaziya cümhuriyyətlər[i] miyanında [arasında] siyasi və iqtisadi ittifaq əqd etmək [imzalamaq], ümumi bir cəbhə yaratmaq mümkün olacaqdır. Hərgah, bu olarsa, o zaman gələcəyinə ümidlə baxmaq olar.*

Bu ruhda Ermənistan Xariciyyə naziri Tiqranyan, Azərbaycan nümayəndəsi Fətəli xan Xoyski nitq irad etmişlər [nitq söyləmişlər].

S. Tiqranyan qeyd eyləmişdir ki, əvvəl də Zaqafqaziyada birlik yox idi. Rusiya zahiri surətdə Zaqafqaziya millətlərini birləşdirmişdi. Belə ki, Zaqafqaziyada öz hökmranlığını möhkəmləşdirmişdi. Rusiya hökmranlığı düşdükdən sonra, birlik də düşmüşdü. Şimdi ilk dəfə olaraq Zaqafqaziyanın müstəqil millətləri etiraf edirlər, birlik lazımdır. Böylə etiraf Zaqafqaziya millətlərinin birləşməsinə və mötəlif [bir-birinə uyğunlaşmış, birgə] bir həyat aparmalarının mümkün olacağına rəhndir [əsasdır; təminatdır].

İclasın qalan hissəsi divani-rəyasət intixabına və nizamnamə təsdiqinə həsr edilmişdir.”

## DAĞISTAN ƏHVALI

Dağıstan Hökuməti Baş vəkili [Baş naziri] Pşemaxo Kotsev işbu əmrnaməni nəşr eyləmişdir:

*“Dağıstanda vaqe fövqəladə hallar ciddi tədbirlər ittixazına [tədbirlər görülməsinə] bizi vadar edir.*

*Bütün Dağıstan qitəsi [ərazisi] idareyi-əsgəriyyə [hərbi rejim] altında elan edilir. Bu axır vaxtlarda qarət və yağmagərlik [talançılıq] fövqəladə artmışdır. Hökumət məmurları bu qarətgərliyə qarşı ciddi tədbirlər ittixazı əvəzinə, ancaq kağız üzərində vaqe olan hadisələri xəbər verirlər. Hər halda, bu işlərin qarşısına tədbirlər ittixaz edilməyir. Bu əhvala müsaidə etmək olmaz.*

*Mən bütün məmurlara əmr edirəm, böyükdən kiçiyə qədər, anarşiya, oğurluq, quldurların, qarətçilərin işlərinə qarşı ciddi tədbirlər ittixaz etsinlər.*

*Cinayətkarlar cinayət yapdığı yerlərdə tutulduqda, orada qətl edilməlidirlər. Müəyyən bir işi olmayan şəxslər həbs edilib Dağıstan Cümhuriyyəti torpağından çıxarılmalıdırlar. Bu cinayətlərlə mübarizədən aciz olan məmurlara təklif edirəm ki, istefa versinlər. Onsuz da bu cür məmurlar qulluqdan kənar ediləcəkdirlər.*

*Təklif edirəm ki, səlaməti-vətən üçün böyük fəaliyyətlər göstərilsin. Məmurların fəaliyyəti kağızlarda yazılan əxbar [xəbərlər] ilə deyil, hüsnniyyət və gözəl fəaliyyətləri ilə ölçüləcəkdir. Bütün camaatı asudəliyi saxlamağa dəvət edirəm və təvəqqe edirəm, hökumət məmurlarına müavinət [kömək] edəsiniz.*

*Pşemaxo Kotsev”*

**Müharibənin davamı haqqında Dağıstan Hökumətinin verdiyi məlumatı**

Dağıstan Hökuməti rəisi Kotsevin sifarişinə görə, Azərbaycan Hökuməti nəzdində olan Dağıstan siyasi nümayəndəsi Əlixan Kantemir aprelin 26-da hamı hökumətlərə və Müttəfiq komandanlığına böylə bir məlumat göndərmişdir:

*“Cənab nazir!*

*Dağıstan məsələsi haqqında Qroznıya cəm olmuş konfransda Dağıstan Hökuməti nümayəndələri ilə Könüllü ordu nümayəndəsi Denikin arasında saziş hüsula gəlməyibdir. General Denikin qan tökülməsinə bais olan öz əvvəlki tələbatında israr edib, Dağıstan millətlərini onun əmrinə tabe olmaq təkidatında bulunmaqla bərabər, təqib etdiyi məqsədlər mövcibincə [əsasında] Dağıstan Hökumətinin davamını qeyri-müvafiqədd [hesab] etmişdir. Şimali Qafqaziya Hökuməti-Cümhuriyyəsi, Dağıstan Hökuməti müqəddəratının ancaq beynəlmiləl qayda üzrə qəti surətdə həllini və general Denikinin əsgəri təşkilat başında durması ilə bərabər rus millətinin hökumət nümayəndəsi olmadığını və beynəlmiləl əhəmiyyəti haiz olan [daşıyan] məsələlərin həllinə vəkil edilmədiyini nəzərə alıb, Könüllü ordu əleyhinə müharibəni davam etdirmək qərarını qəbul edib, Dağıstan Cümhuriyyətinin təcavüzkaranə və qanunsuz bir surətdə işğal edilən yerlərini Könüllü ordudan xali etməyə [boşaltmağa] çalışacaqdır.*

*Kamali-ehtiramla Əlixan Kantemir”*

**Müttəfiqlərin Dağıstan Hökumətinə müraciəti**

Dağıstan Hökuməti rəisi Kotsev Müttəfiq dövlət komandanlığı nümayəndəsindən aşağıdakı məzmunda bir məktub almışdır:

*“Dağıstan Hökumətinin Şurayi-Vükəla rəisi [Baş naziri] Kotsev cənablarına bu əhvalatı Dağıstan Hökumətinə xəbər verməyə məmur edilmişəm. Denikin İngiltərənin təklifinə görə əməliyyatda davam etməməyə razı olub, Dağıstana hücum etməyəcəkdir. General Lyaxov əzl ediləcəkdir [qovulacaqdır]. General Denikin çeçenlər, inquşlar, balkarlar və osetinlərlə öz arasında tərzi-rəftarı [rəftar tərzini] təyin edib, hökumətin istiqlaliyyət və sərhədi məsələsini həll edəcək. Sülh Konfransının təlimatını gözləyərək sülh bərpa edilmişdir. Bunun müqabilində Dağıstan Hökuməti Quryevi möhkəmlətməyə vasitə olduğuna görə Petrovsk [Mahaçqala] bəndərini [limanını] Könüllü ordunun istifadəsinə vagüzar etməlidir [tapşırmalıdır]. General Prjevalski general Denikinin təlimatına görə öz qüvvəsini Petrovskda azaldacaqdır. Bu lüzumiyyət bir az müddət davam edəcəkdir. Çünki bu, tədriclə olacaqdır. Şəhərlərdə və kəndlərdə Dağıstan Hökumətindən bolşeviklər əleyhinə təcili hərəkat gözləyirlər. Dağıstan hökumətinin hərəkatına baxıb rəftar olunacaqdır. Polkovnik Roulendson göndərilmişdir inandırsın ki, Dağıstan Hökumətinin arzusuna əməl edilir. Əlavə olaraq sizə elan edirəm ki, general Prjevalski üzərinə ola biləcək hər bir hücum İngiltərə komandanlığı tərəfindən düşmənanə hərəkət təfsir ediləcəkdir. Xahiş olunur bu məktubun vüsulunu [çatdığını] xəbər verəsiniz.*

*Petrovskda olan İngiltərə əsgərləri komandanı polkovnik (imza)”*

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Maliyyə nazirinin Nəzarət cənbindəki [Nazirlik nəzdindəki] Gömrük Vergiləri şöbəsi təşkili haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Maliyyə nazirinin məruzəsini təsviblə [bəyənməklə], tapşırılsın ki, təsdiq üçün Məclisi-Məbusana idxal edilsin.

- Maliyyə nazirinin Azərbaycandan aparılacaq balıq və balıq istehsalatına [məhsullarına] yeni gömrük təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinin məruzəsini təsviblə tapşırılsın ki, təsdiq üçün Məclisi-Məbusana idxal etsin. Fəqət işbu təshihat [düzəlişlər] olmalıdır:

1) Kürü netto [xalis kütlə] putuna 40 əvəzinə 100 manat.

2) Yapışqan və viziqa - 30 əvəzinə 50 manat.

3) Qızılbalıq və şəmayı təzə və duzlanmış - 20 əvəzinə 50 manat.

4) Təzə balıq - 2 əvəzinə 3 manat; kürü - 2 əvəzinə 5 manat.

- Maliyyə nazirinin hərbi xidmətdən azad olunmuşlardan hərbi naloq [vergi] alınmaması barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinin layihəsini təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin artırılmış ticarət və sənaət şəhadətnamələrindən alınan şəhər vergisini 50 faizə qədər artırmaq barəsindəki məruzəsindən sonra qət edilmişdir:

Maliyyə nazirinin layihəsini təsviblə, təsdiq üçün Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin vergi müfəttişliyi vəzifəsi təsisi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin məruzəsini təsviblə tapşırılsın ki, təsdiq üçün Məclisi-Məbusana idxal etsin və o vaxtadək onun 15000 manat məsarifi 20 milyon fonddan verilsin.

- Maliyyə nazirinin müavin təyini haqqındakı məruzəsindən sonra qət edilmişdir:

İzrail-Mark Mixayloviç Abezqauz Maliyyə naziri müavinliyinə təyin edilsin.

- Maarif nazirinin Zəngəzur və Qaryagin qəzaları xalq məkatibi [məktəbləri] müfəttişi Atamanakisin əzl edilməsi [işdən azad edilməsi] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Mümaileyhi [adı çəkilən şəxsi] noyabrın 1-dən etibarən əzl edilmiş hesab etməli.

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin dövləti mədaxil mənbələri haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirlərə tapşırmalı ki, ən yaxın zamanda dövləti mədaxil mənbələri haqqında və onların artırılması barəsində məlumatı havi [ehtiva edən] layihələr təqdim etsinlər.

- Ədliyyə nazirinin 169-cu, 171, 172, 177-ci maddələrin dəyişməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin məruzəsini təsviblə, Məclisi-Məbusana idxalı tapşırılsın.

- Ədliyyə nazirinin 1462-ci maddənin dəyişməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirin məruzəsini təsviblə, təsdiq üçün Məclisi-Məbusana idxalı tapşırılsın.

- Maliyyə nazirinin 2-ci müavin dəvətinə icazə verilmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Nazirə 2-ci müavin və 2 müşavir çağırmağa icazə verilsin.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin oyun (qumar) kağızı çap etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ümuri-Xeyriyyə və Nafiə nazirinə oyun kağızları buraxmağa izin verilsin.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Məsai Nəzarəti [Əmək Nazirliyi], Neftçilər İttifaqı İdarəsini nisanın 19-da Ədliyyə Nəzarətinə dəvət edib neft mədənləri fəhlələrinin yeni məvacibləri haqqında müşavirədə bulunmuşdur.

- Baş Fabrika müfəttişi Məsai Nəzarətinə məlum etmişdir ki, Bələdiyyə İdarəsi xidmətçilərə əlavəni mayısın 1-dək verməyi qəbul etmişdir. Bunun rübü [dörddə biri] pasxa bayramı münasibətilə verilmişsə də, bu vaxtadək mabaqisi [qalanı] verilməmişdir. Xidmətçilər rica edirlər ki, mabaqisi də şimdi verilsin.

- Məsai Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən Binəqədiyə Şollar suyu vermək haqqında təşəbbüsatda bulunmuşdu. Bələdiyyə İdarəsi xəbər vermişdir ki, Binəqədi-Şollar su yolu “Binəqədi vodoprovodu” [su kəməri] nam [adlı] xüsusi bir cəmiyyətin malıdır. Keçən sənə iyun əvailindən [əvvəllərindən] etibarən həman cəmiyyət fəaliyyətini dayandırmışdı. Şimdi isə, yenidən Bələdiyyə İdarəsi ilə müqavilə əqd etmişdir [imzalamışdır]. Bundan sonra, Binəqədiyə Şollar suyu veriləcəkdir.

- Məsai Nəzarəti Vükəla Şurasına [Nazirlər Kabinetinə] müraciətən rica etmişdir ki, Bələdiyyə İdarəsi həqiqətən paraya möhtac olduğundan, istiqraz [borc] barəsindəki təşəbbüsatına əncam verilsin.

- Əkin vaxtları yaxınlaşdığından, Şamaxı qəzası qaçqınları əkin işlərinə başlamalıdırlar. Halbuki toxumları yoxdur. Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] naziri Ticarət və Sənaye Nəzarətinə müraciətən rica etmişdir ki, Şamaxı nahiyə müffətişinə 6000 putdan az olmamaq şərti ilə toxumluq buraxılsın. Fəqət kontrol təyin etməlidir ki, toxum əkilsin.

- Ümuri-Xeyriyyə və Nafiə naziri Rəisi-vükəlaya [Baş nazirə] müraciətən məlum etmişdir ki, qaçqınlar miyanında [arasında] bir çox ziyalılar vardır. Bunlar xüsusən sabiq mülkədarlara mənsubdurlar ki, hadisatdan sonra böylə bir halda qalmışlar. Bunlara, başqalarına edilən müavinət kafi deyildir. Binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə naziri Rəisi-vükəladan rica etmişdir ki, Vükəla Şurası bunlara borc vermək məsələsinə izin versin. Borc xüsusi qayda üzrə vəqti-müəyyənədək [müəyyən edilmiş vaxtadək] qaytarılmalıdır. Nəzarət işbu işdən ötrü 300. 000 manat istəmişdir.

- Zəngəzur qaçqınları Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə bir çox ərizələr verərək, əkin işlərinə başlamalarını və öz yurdlarına köçmələrinə müavinətdə bulunmağı rica etmişlər. Ümuri-Xeyriyyə və Nafiə naziri Qarabağ general-qubernatoruna müraciətən rica etmişdir ki, bu barədə məlumat toplanılsın. Hərgah, qaçqınlar yaylaqlara getməzsələr, o vaxt nerədə onları sakin etmək olacaqdır? Zira, yayda şimdiki yerlərində qalmaları bir çox xəstəlik artıra bilər.

- Ümuri-Xeyriyyə və Nafiə naziri Ağdamdakı müvəkkilinə teleqrafən məlum etmişdir ki, Zəngəzur qaçqınlarına heç bir müavinət edilməyir. Ümuri-Xeyriyyə və Nafiə naziri işbu işi Behbudova həvalə edir. Müşarünileyh [adı çəkilən şəxs] təcili surətdə Zəngəzura gedərək məhəllində [yerində] lazımi müavinətdə bulunmalıdır.

Nazir bəyan etmişdir ki, layiqli köməkçiləri işə cəlb etmək mütəmənnadır [arzuediləndir]. Bununla bərabər, Zəngəzurda iaşə məntəqələri güşad edildiyini [açıldığını] bildirmişdir.

Böylə bir teleqram da Qarabağ general-qubernatoruna göndərilmişdir. Teleqramda denilir ki, Behbudova müavinətdə bulun[ul]sun.

Müşarünileyhə [adı çəkilən şəxsə] bir milyon yarımdan ziyadə para göndərilmişdir.

Bərdə anbarına xərclənmiş 100000 manat buraya daxil deyildir.

- Məsai Nəzarəti Tağıyev fabrikası komitəsinə məlum etmişdir ki, Nəzarət Ticarət və Sənaye Nəzarətində hər fəhlə başına 20 arşın bez buraxılması barəsində təşəbbüsatda bulunmuşdur. Bezin 4 arşını əski qiymətlə, mabaqi [qalan] 16 arşını isə firma sahibinin təyin edəcəyi qiymətlə buraxılacaqdır. Məsai Nəzarəti fəhlələrə təklif etmişdir ki, işə şüru etsinlər [başlasınlar].

## KAĞIZ QƏHƏTLİYİ

Bir neçə gün bundan irəli Bakının naşir və mətbəəçiləri yığılıb kağız məsələsini məhəlli-müzakirəyə qoymuşlardır [müzakirəyə çıxarmışlar].

Maarif Nəzarətinin binagüzarlığı [sərəncamı] ilə kağız anbarlarından mətbəəçilərə daha kağız buraxılmadığı üçün nəşriyyat işləri müşkülə düşmüşdür. Bunu nəzərə alaraq mətbəəçilər qət etmişlər ki, hökumətə müraciət edib kağızın ədalətlə mətbəələr arasında təqsim edilməsi [bölünməsi] barəsində bir qərardad istəsinlər. Buna dair hökumətin üç günün ərzində bir binagüzarlığı olmazsa, məsələni sosialistlər vasitəsilə Parlamana idxal etsinlər.

Mətbəəçilərin fövqəladə bu təşəbbüsatı bizə sübut edir ki, az bir vaxtdan sonra hərgah kənardan gətirilməzsə, Bakıda kağız “aclığı” zühur edəcəkdir.

Kağızsız da mətbuat yaşaya bilməz. Mətbuatdan əlavə, təlim kitablarının yeni təbinə [nəşrinə] kağız tapılmadığı üçün bir çox məktəb şagirdləri kitabsız qalmışlar. Hətta bəzi kitabların köhnə və dağılmış nüsxələri biri 25 rubləyə satılır. Payızda universə kimi ali məktəblə bərabər, bir çox təzə məktəblərin güşadı [açılması] gözlənir. Bir bu qədər köhnə və təzə məktəblərin bir çox idarə və kantorlarla bərabər kağıza olan ehtiyacı mülahizəyə alınarsa, gələcəkdə kağız müşkülatı böyük əngəl törədəcəkdir.

Binaənileyh [buna görə], qəzetə naşirlərinin və mətbəəçilərin istidası [xahişi] hökumətdə qəbul olunarsa, yəni anbarlardakı kağızı mətbəələr arasında təqsim edərlərsə, az bir zamanda kağız qəhətliyi ilə bərabər, bir çox ədalətsizliklər də zühur edəcəkdir.

Bir vaxt adi qəzetələrin nüsxəsi bir şahıya və əmələ qəzetəsi də bir qəpiyə satıldığı zamanlarda Bakıda ancaq üç-dörd qəzetə nəşr olunurdu. Bu gün, Azərbaycan dövlətinin hürriyyəti-mətbuat [mətbuat azadlığı] qanunu sayəsində qəzetələrin bir nüsxəsi bir rubləyə satılır. Bununla belə, Bakı qəzetələrinin ədədi göbələk kimi gündən-günə artır.

Bakıda neçə siyasi partiya varsa, bir o qədər də qəzetələr mövcuddur. Gündəlik qəzetələrə kifayət etməyərək, tətil və bayram sabahlarına məxsus neçə mütəəddid [çoxsaylı] qəzetələr də nəşr olunur.

Görünür ki, kağızın azlığı Bakı partiya qəzetəçilərini heç təşvişə salmayır. Kağız işinə bir təhər çəkilməzsə, hökumətin özü bir çox müşkülata məruz qalar. Hərgah mətbəəçilərin istidası qəbul olunarsa, o halda sair idarələrin də ehtiyacı nəzərə alınmalıdır.

Məncə, kağızın tamam miqdarını dörd hissəyə təqsim etməlidir: bir hissəsi hökumətin xüsusi ehtiyacı üçün, ikincisi naşirlərə və mətbəəçilərə, üçüncüsü məktəblərə və təlim kitablarına və dördüncüsü də idarə və kantorlara sərf olunsun.

Söz yoxdur ki, ağ kağızı mümkün olduqca maarif işlərinə buraxmalıdır. Sarı kağız mətbuata yararsa da, təlim kitablarına heç vəchlə yaramaz. Bunu hökumət nəzərdə tutmalıdır. Həmçinin bir çox risalələr, elannamələrə ağ kağızın sərfi əbəsdir. Qəzetələr də dairələrini məhdud qılsınlar ki, kağız az sərf olunsun.

Yenə təkrar edirəm ki, təlim kitabları üçün müəyyən miqdar kağız saxlanılsın ki, məbada uşaqlarımız kitabsız qalarlar!

*Fərhad Ağazadə*

## HÖKUMƏTİN NƏZƏR-DİQQƏTİNƏ

Yalama və Ləcət istasyonlarında hökumət tərəfindən həczinə [müsadirə edilməsinə] qərar verilən və “Tovarişestvo Xaçmaz”a aid olan 200 sajın odunun Biçeraxov dəstəsinə mənsub bulunan bir gürcü zabitinə verilməsi bu “əta” şəraitinin [“bağışlama” şərtlərinin] Azərbaycan xəzineyi-maliyyəsinə vuracağı zərər və ziyanlar gənc hökumətimizə sadiqanə xidmətlər etməyi əxəssi-amal edinmiş [özünə başlıca amal etmiş] olan biz Yalama rayonu odunçularını ciddən dilgir [dilxor] etmişdir.

Meşəbəyi ilə Azərbaycana sədaqəti pak də bəlli olmayan kiçik zabit cənablarının baş-başa söyləşib verdiyi qərar böylədir:

Zabit bəy bu 200 sajından yalnız 100 sajınını Bakıya hökumət ixtiyarına sövq edəcək. 100 sajın odunun Bakıya sövq edilməsi orta hesabla 45 min tutur. DeməK 100 sajın odunun sövqünü zabit bəy dəröhdə edir [öhdəsinə götürür], şu şərtlə ki, qalan 100 sajını əvvəlki odunun sövqündə sərf etdiyi 45 min rublə əvəzinə kəndisi satacaqdır.

Odun ticarəti ilə iştiğal edənlər [məşğul olanlar] pək əla bilirlər ki, zabit bəy 45 min rublə əvəzində ehtikar etdiyi [baha qiymətə satdığı] bu odunu istasyonlardan heç bir tərəfə sövq etmədən 100 min rubləyə satacaqdır.

Yüz sajın odunun Bakıya sövq edilməsi kimi zəhməti pək az böylə bir işdən birdən-birə 45 min, 50 min rublə qədər bir paranın hökumət zərərinə olaraq aşırılmasına hökumətimiz bilməm nə məna verəcəkdir.

Böylə işlərdə ötədən bəri torq [tender] və müzayidə üsulu ilə iş görülməsi adət ikən, meşəbəyi cənablarının keyfə-mayəşası [özbaşınalığı] ilə hökumət odununun nisfini [yarısını] başqalarına vermək kimi işləri gördükcə, böylə hökumət məmurlarının gəmidə oturub gəmini altından deşməsinə və açıq-açığına böylə xəyanətlərin pərdə altında qalmasına ağıl erdirəmməyiriz.

Zabit, Biçeraxov dəstəsinə mənsub bir xaini-vətəndir. Hələ böylələrinin içimizdə qalması və hökumət zərərinə olaraq kəndi cibini doldurması ağıl və məntiqə sığan işlərdən olmadığı kimi, meşəbəyinin də hərəkati-qanunşikənanəsinə [qanunsuz hərəkətlərinə] hökumətimizin nəzəri-diqqətini cəlb ediriz.

*Yalama odunçuları naminə imzalar*

## BAKI XƏBƏRLƏRİ

**Bir May tətili**

“Müsavat” planı

Tətil səhər saat 8-dən axşam saat 6-ya kimi olmalıdır. Balaxanı, Suraxanı, Sabunçu zəhmətkeşləri səhər saat 10-dan şəhərə gəlib Balaxanski, Bazar küçələrindən Parlaman qarşısına yığılıb, oradan Hürriyyət meydanına; Çornı-qorod və Belı-qorod və fabrik, səhər saat 10-dan şəhərə gəlib Telefonnı, Tarqovı, Krivoy, Parapetdən Nikolayevski küçələrlə Parlament qarşısına gəlib Hürriyyət meydanına cəm olurlar.

Bibiheybət zəhmətkeşləri: Bayılov – Naberejni – Sadovı – Nikolayevski – Parlaman qarşısında; Hürriyyət meydanı.

Natiqlər:

1) Məhəmməd Əmin Rəsulzadə, 2) Rəhim Vəkilzadə, 3) Müzəffər Həsənzadə, 4) Piri Mürsəlzadə, 5) İskəndərov, 6) Rza Zaki, 7) Kazımzadə, 8) Mirzəbala, 9) Məşhədi Həmid Paşazadə, 9) Zülfüqar Məhəmmədzadə, 10) Yunis Rəfizadə və qeyriləri.

Bayraqlarda yazılar:

Yaşasın müstəqil Azərbaycanın Əmələ bayramı!

Yaşasın Müsavat!

Yaşasın Əmələ Bayramı!

Yaşasın azad millətlərin ittifaqı!

Yaşasın Azərbaycan!

Təbliğat və Təşkilat şöbəsi tərəfindən, Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinə məktub yazılıb, Suraxanıdan Balaxanıya gələn fəhlələrə vaqonların pulsuz verilməsi xahiş olunmuşdur.

**Qubernatorun əziməti [gedişi]**

Bakı qubernatoru Rəşid bəy Axundzadə qulluq işlərindən dolayı quberniyaya, Cavad və Göyçay uyezdlərinə getmişdir. Mümaileyhin [adı çəkilən şəxsin] vəzifəsini müvəqqəti olaraq visqubernator Müseyib bəy Axıcanov ifaya şüru etmişdir [başlamışdır].

**İran Maarif Cəmiyyətində**

Cümə günü mayın 2-də Şəhər Duması zalında İran Maarif Cəmiyyətinin ümumi iclası vaqe və məzkur [adı çəkilən] cəmiyyətin məramnaməsi haqqında bəyanat veriləcəkdir. Ümum [bütün] üzvlərin təşrif gətirmələri arzu olunur. Yeni üzvlər dəxi orada yazılacaqdır.

## AZƏRBAYCANDA

**Gəncədən**

Xüsusi müxbirimizdən:

Təxminən bir ay bundan əvvəl “Müsavat”ın Gəncə şöbəsinə Gəncə qəzasının Sünnülər köyündən çoximzalı bir ərzihal verilmişdi. Ərzihalda göstərildiyinə görə, Sünnülər kəndinin yüzbaşısı köylülərə yerli-yersiz bir çox zülüm edirmiş. Dürlü-dürlü bəhanələrlə əhalidən alınan cərimələrin nə həddi, nə hesabı var imiş. Bunun üzərinə Gəncə şöbəsi idarə əzasından [üzvlərindən] iki zatı təhqiqat üçün həman köyə göndərdi. Məhəllində [yerində] edilən təhqiqat, olunan zülümləri açdı. Alınan cərimələrdən heç birisi yalan çıxmadı. Bu qədər haqsızlığa qarşı yuxarı dairələrə şikayət etmək istəyən bir köylü, birinci çastın [hissənin] komissarı Hüseyin bəy Şıxlınski tərəfindən dəhşətli bir surətdə döyülmüşdür. İxtiyar köylünün sağlam bir dişi tüfəng zərbəsi ilə düşmüş, zavallı o dişi hələ cibində saxlayırmış. Bundan daha betər, qocasına imdad etmək niyyəti ilə komissara yalvarmaq təşəbbüsündə bulunan qarı da, o ki var döyülmüşdür. Böylə vəqələri [hadisələri] göndərilən nümayəndələr dəlillərlə bərabər toplayıb “Müsavat”ın Gəncə şöbəsinə təqdim etmişdi. Bunun üzərinə idarə vali həzrətlərinə məlumat verib zalım yüzbaşını[n] təhti-mühakiməyə alınmasını [işinə məhkəmədə baxılmasını] rica etmişdi. Anlaşıldığına görə, vali, qəza qaimməqamına [qəza rəisinə] həvalə etmişdir, qaimməqam Mikayıl bəy [İsrafilbəyov] də yüzbaşının yerinə həman şikayət edən köylüləri dama salmışdır. Bu sətirləri yazdığım vaxt köylülər hələ həbsdə idilər. Eşitdiyimə görə, “Müsavat” bu işi təhqiq etməyə qərar vermişdir. Nəticəsi xüsusunda ayrıca yazarız.

* * *

Hər ayda qəzetələrdə oxuyuruz ki, filan bələdiyyə idarəsi hökumətdən faizsiz borc istəyir. Bu məmləkətin Bakısı, Şəkisi hökumət xərci ilə dolanır. Böylə şəhərlərdən biri də Gəncədir. Hökumət Gəncəyə hey borc verir, fəqət Gəncə bu borcu kimə verir, bilən yoxdur.

Bura bələdiyyəsinin başısoyuqluğu artıq son dərəcəsini bulmuşdur. Yolları xarab, gecələri gözünə barmaq soxsalar xəbərin olmaz. Hələ bələdiyyənin ərzaq şöbəsi camaata şəkər yedirməkdən dişlərini töküb. Utanmazlar hələ bu günlərdə yenə ərzaq işləri üçün borcmu, bəxşişmi pul istəmişlər.

* * *

Gəncə vilayəti Türk Müəllimlər İttifaqı müəllim yoldaşlarından Abbaszadə Mirzə Abbasın bu günlərdə 25 illiyinin yubilesini tərtib etməyə hazırlanırmış. Eşitdiyimizə görə, bu yubileyə iştirak etmək üçün, Azərbaycanın sair şəhərlərindəki müəllimlərə də dəvətnamə göndəriləcəkmiş. Əlifba tədrisində birincilik qazanmış möhtərəm bir müəllimin yubileyinin də birinci olmasını ürəkdən arzu edirəm.

*Gəncəli*

## TEATRO VƏ MUSİQİ

**“Gaveyi-ahəngər”**

Cümə günü may ayının 2-də, axşam Hökumət Teatrosunda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən müdiriyyət artistləri Ələkbər Hüseynzadə, Camal Paşayev və Əliislam Dadaşovun şərəfinə olaraq Şəmsəddin Sami bəyin məşhur əsəri “Gaveyi-ahəngər” mövqeyi-tamaşaya qoyulacaqdır. Tamaşa axşam saat 8-in yarısında başlanacaqdır. Biletlər indidən teatrın kassasında satılmaqdadır.

**“Leyli və Məcnun”**

May ayının 4-də, yekşənbə [bazar] günü yenə həman teatroda Hacıbəyli Qardaşları Müdiriyyəti tərəfindən bu mövsümdə axırıncı dəfə olaraq “Leyli-Məcnun” operası mövqeyi-tamaşaya qoyulacaqdır. Məcnunun rolunu Hüseynqulu Sarabski ifa edəcəkdir.

## İDARƏDƏN CAVAB

Ramanadan **“Toy məclisləri”** yazan əfəndiyə: Məqalənizdən məlum olmadı ki, orada olan polis məmurları nə gunə [nə cür] toy qururlar. Əgər vaqeən [doğrudan da] toy qurub evlənirlərsə, buna heç kəsin bir deyəcəyi ola bilməz. Vəilla [yoxsa] yalandan toy adına pul yığırlarsa, o halda çox pis iş görürlər. Böylə pis iş ki, heç Azərbaycan məmurlarına yaraşmaz.


**Diş həkimi Altmanın müalicəxanası**

Şamaxinski küçə nömrə 20, 2[-ci] paralelni küçənin küncündə aptek ilə rubəru [üzbəüz]. Telefon nömrə 18-73. Dişləri ağrısız çəkir və doldurur. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Müsəlman xanımları ayrıca qəbul edir.

*5783*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə nömrə 6.

*8710*

**Arvad diş həkimləri Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayı-rılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Doktor Ağahüseyn Kazımov**

Gəlib naxoşları yenə qəbul etməyə başlayıbdır. Əmrazi-daxiliyyə [daxili xəstəliklər]. Qəbul edir səhər saat 10-dan 11-ədək; axşam saat 5-dən 7-yədək. Ünvan: Parapet, Şəfi İbrahimovun evində 3-cü mərtəbə. Telefon: 86-27.

*8057*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor M. B. Şaxnazarov**

Dəri və əmrazı-cərrahiyyə [cərrahi xəstəliklər] naxoşluqlarını qəbul etməyə başlamışdır. “606” və “914” müalicəsi. Qəbul edir: səhər saat 9-dan 12-yədək; axşam saat 4-dən 7-yədək. Ünvan: Armyanski küçə nömrə 3. Qubernskinin küncündə. Telefon nömrə 45-28.

*8748*


***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Zəhmət (məsai) bürosu***

“Budaqovski və Malakanski küçələrin küncündə”: indiki Rəşid Behbudov və Xaqani küçələrinin kəsişməsində.

“Konka”: Bakıda atla çəkilən tramvay.

***Elan***

“Olqinski və Lalayevski küçələrin küncündə”: indiki Məhəmməd Əmin Rəsulzadə küçəsi ilə Xurşidbanu Natəvan döngəsinin kəsişməsində.

***Azərbaycan Cümhuriyyətinin Məsai (Zəhmət) Nəzarəti…***

“Bu barədə “Azərbaycan” qəzetəsinin 4 mart tarixli 47-ci nömrəsində elan edilmişdir.”: söhbət rus dilində çıxan “Azərbaycan” (Азербайджан) qəzetindən gedir.

“Naberejni küçədə”: indiki Neftçilər prospektində.

***Elan***

“Spasski küçə”: Bakıda, indiki Zərgərpalan küçəsi.

***Qismi-rəsmi***

“…elan edilən təsvirinə əlavə…”: qəzetdə “təsvirinə” yerinə “təsəvvürünə” yazılmışdır.

***Dağıstan günü***

“ləbbeyk”: “buyurun, nə əmriniz var, nə istəyirsiniz” mənasında ərəbcə söz.

“Hökumət və Məclisi-Məbusanımız var qüvvələri ilə…”: qəzetdə “Məclisi-Məbusanımız” yerinə səhvən “məhəlli məbusanımız” getmişdir.

***Dağıstan günü***

“atasız balalarına”: qəzetdə “atasız babalarına” getmişdir.

***Yol əsnasında gördüklərim***

“…o cümlədən Sultan Muradın hərəmi Bəzmi-aləmin…”: Bəzmiələm, Sultan Muradın yox, Sultan II Mahmudun arvadı olmuşdur.

“leyli”: şagirdlərin həm dərs oxuyub, həm də gecə qaldıqları məktəb (internat) və belə məktəbdə oxuyan; “nəhari”: gündüz növbəsində oxuyan.

“Sonra Təfəyyüz məktəbinə getdik. Müdirəsi Naqiyə xanımla və müəllimələriylə görüşdük.”: “Təfəyyüz” məktəbi İstanbulda XIX əsrlərin axırlarından etibarən fəaliyyət göstərən məktəb idi, 1920-ci illərdə bağlanmışdır. Naqiyə xanım “Təfəyyüz” məktəbinin yox, “Feyziyə” məktəbinin müdirəsi olmuşdur. 1880-ci illərdə Səlanikdə qurulan “Feyziyə” məktəbi 1915-ci ildə İstanbula köçmüşdür və hal-hazırda da fəaliyyətini İşıq Liseyi adı altında davam etdirməkdədir.

“Bəkirağa bölüyü: İstanbulda Hərbi Nazirliyə məxsus həbsxana olmuşdur. Xalq arasında, həbsxananın ilk müdürü olan Bəkir ağanın adıyla “Bəkirağa bölüyü” kimi tanınırdı. Bu bina hal-hazırda İstanbul Universitetinə məxsusdur.”

“motor”: benzinlə işləyən dəniz nəqliyyatı, motorlu gəmi.

***Doğru yol***

“Sedan müharibəsi”: 1870-1871 Fransa-Prussiya müharibəsinin ən böyük döyüşü olan Sedan döyüşü nəzərdə tutulur.

“məişətlə”: “məiyyətlə” getmişdir.

***Türkiyəyə verilən şəraiti-sülhiyyə***

“porto-franko” [porto franco]: sərbəst liman; vergisiz mal idxalatına və ixracatına icazə verilən liman.

***“Kor-soqqur” şeiri üçün lüğət:***

soqqur: zəif, gücsüz, arıq, zavallı
tifli-əma: kor uşaq
dər-pərdə: pərdə arxasında
şəmsi-ziyapərvəri-dünya: dünyanı işıqla qidalandıran günəş
məzhəreyi-rəng-nisar: rəngarəng çiçəklik
təmyiz: ayırmaq, seçmək
hüsn: gözəllik
ruyi-dilara: könül alan sevgilinin üzü
ruyi-pədər: atanın üzü
çöhreyi-xahər: bacının çöhrəsi
həsrəti-rüxsareyi-madər: ananın üzünə həsrət
milləti-ə’ma: kor millət
kudək: uşaq
ərz: yer üzü
fər: işıq
əvalim: aləmlər
rəhgüzər: yol
ənzar: nəzərlər, gözlər
ə’malar: korlar
bəradər: qardaş
pədidar: aşkar

***Teleqraf xəbərləri***

“Deyli meyl” [Daily Mail]: Londonda 1896-cı ildən etibarən nəşr edilən gündəlik qəzet.

***Qəzetələrdən***

“Dutov dəstələri”: Orenburq kazaklarının atamanı ağqvardiyaçı general Aleksandr Dutovun komandanlığı altındakı dəstələr nəzərdə tutulur.

“Şərqi Prussada Almaniyaya azad keçəcəyinə vagüzar ediləcəkdir.”: Bu cümlə anlaşılmaz bir şəkildə tərcümə edilmişdir; belə başa düşülməlidir: “Almaniyaya, Şərqi Prussiyaya sərbəst keçmək imkanı veriləcəkdir.”

***Vükəla Şurasında***

“yapışqan”: əsasən nərə balıqlarının üzmə kisələrinin və digər tullantılarının işlənməsi ilə əldə edilən yapışqan; balıq yapışqanı.

“viziqa” (yaxud vyaziqa): nərə balıqlarının qida məhsulu kimi istifadə olunan xordası.

***Bakı xəbərləri: Bir May tətili”***

“Natiqlər: 1) Məhəmməd Əmin Rəsulzadə…”: qəzetdə natiqlərin sıra nömrələri qarışdırılmışdır.

# Gənclərin COP29 həyəcanı




COP29
Baku
Azerbaijan

# Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Mətbuat xidmətinin məlumatı

**Diplomatik statusdan istifadə edilməklə xarici ölkədə törədilmiş qaçaqmalçılıqla bağlı cinayət işi başlanılmışdır.**

Azərbaycan Respublikası vətəndaşlarının digər ölkə vətəndaşları ilə əlbir olaraq xarici dövlətlər arasında qaçaqmalçılıq cinayətlərinin törədilməsində iştirak etmələri faktı ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətində başlanılmış cinayət işi üzrə cinayət təqibi həyata keçirilir.

Araşdırmalar zamanı, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Amerika Birləşmiş Ştatlarındakı hərbi attaşesinin baş köməkçisi vəzifəsində xidmət edən polkovnik-leytenant Məmmədov Qəhraman Şamil oğlunun digər Azərbaycan Respublikasının vətəndaşı Qasımov Anar Əli oğlu və xarici ölkə vətəndaşları ilə sövdələşərək qabaqcadan əlbir olan bir qrup şəxs halında Birləşmiş Ərəb Əmirliklərindən Türkiyə Respublikasına daşınan xüsusilə külli miqdarda qızıl külçələrin qaçaqmalçılıq yolu ilə gömrük sərhədindən keçirilməsində iştirak etməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Belə ki, diplomatik statusa malik vəzifə tutan Qəhraman Məmmədov başqaları ilə qabaqcadan əldə edilmiş razılığa əsasən, 22 noyabr 2024-cü il tarixində Amerika Birləşmiş Ştatlarından Türkiyə Respublikasına gəlmiş, həmin gün Anar Qasımov tərəfindən Birləşmiş Ərəb Əmirliklərindən gətirilərək İstanbul Beynəlxalq Hava Limanında gömrük nəzarətindən kənarda yerləşən saxlanc yerinə qoyulmuş, içərisində xüsusilə külli miqdarda qızıl külçələrin olduğu çantanı götürmüşdür. O, diplomatik heyət üzvləri üçün nəzərdə tutulmuş imtiyaz və immunitetləri təsdiq edən diplomatik pasportdan və vəzifə səlahiyyətlərindən qulluq mənafeyinin qəsdən ziddinə istifadə etməklə, həmin hava limanında qızıl külçələri gömrük sərhədindən bəyan etmədən keçirmişdir. Daha sonra Qəhraman Məmmədov bu qızıl külçələri Anar Qasımova təhvil vermək üçün taksi ilə İstanbul şəhərindəki hotellərdən biri istiqamətində hərəkət edərkən Türkiyə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən saxlanılmışdır. Onun daşıdığı çantaya keçirilmiş baxış zamanı içərisində 10.220.900 (on milyon iki yüz iyirmi min doqquz yüz) manat dəyərində olan 70 kiloqram çəkidə qızıl külçələr aşkar edilərək götürülmüşdür.

Araşdırmalar nəticəsində hava limanındakı qeyd olunan saxlanc yerində içərisində 14 kiloqram qızıl külçələrin olduğu və gömrük sərhədindən keçməmiş daha bir çanta aşkar edilmişdir.

Həmçinin, qaçaqmalçılıq cinayətində iştirakına əsaslı şübhələr müəyyən edilmiş Anar Qasımov Türkiyə Respublikasında saxlanılaraq cinayət məsuliyyətinə cəlb olunmuşdur.

Qəhraman Məmmədov Dövlət Təhlükəsizliyi Xidmətində davam edən cinayət işi üzrə Cinayət Məcəlləsinin 12.1, 206.3.2, 12.1-1, 206.3.3 (Azərbaycan Respublikasının vətəndaşı tərəfindən ölkə hüdudlarından kənarda qabaqcadan əlbir olan bir qrup şəxs halında, qulluq mövqeyindən istifadə edilməklə qaçaqmalçılıq) və 12.1-1, 341.1-ci (Azərbaycan Respublikasının vətəndaşı tərəfindən ölkə hüdudlarından kənarda vəzifə səlahiyyətlərindən sui-istifadə və ya vəzifə səlahiyyətlərini aşma) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilmiş, Bakı Hərbi Məhkəməsi tərəfindən onun barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Gəncə idmançıları ilə də fəxr edir

**Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov pauerliftinq üzrə dünya çempionu Vüsal Ağalarov və peşəkar boksçu, WBS Dünya Çempionu Orxan Abdıyevlə görüşmüşdür.**



N.Bayramov hər iki idmançını Azərbaycanı yüksək arenalarda layiqincə təmsil etdikləri və qalibiyyət qazandıqları üçün təbrik edərək onlara gələcək yarışlarda uğurlar arzulamışdır. İdmançılar səmimi görüş üçün şəhər rəhbərinə təşəkkür etmişlər.

Sonra çempionlara Gəncə Şəhər İcra Hakimiyyətinin təşəkkürnaməsi təqdim olunmuşdur.

Qeyd edək ki, Vüsal Ağalarov Moskvada keçirilən pauerliftinq üzrə dünya çempionatında 110 kiloqram çəki dərəcəsi ilə çıxış edərək 1-ci yerə, Orxan Abdıyev isə İstanbulda keçirilən peşəkar boks idman növü üzrə rəsmi WBS Dünya Çempionatında Dünya Çempionu Kəmərinə sahib olmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun idarələrinə tələb olunan istilik qazanxanalarına və sistemlərinə illik texniki xidmətlərinin satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il dekabrın 9-u saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***


# Dekabr ayına olan hava proqnozu açıqlanıb

**Dekabr ayında qış fəslinə uyğun olan tutqun, buludlu, soyuq hava şəraiti üstünlük təşkil edir.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu ilin dekabr ayında havanın orta aylıq temperaturunun əsasən iqlim normasına yaxın olacağı gözlənilir.

Aylıq yağıntının miqdarı əsasən iqlim normasına yaxın, bəzi ərazilərdə isə bir qədər çox olacağı ehtimal olunur.

Dekabr ayının ilk günlərində ölkə ərazisində hava şəraitinin arabir yağıntılı keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dağlıq ərazilərdə isə qar yağacağı ehtimalı var.

Bakıda və Abşeron yarımadasında havanın orta aylıq temperaturunun 6-8 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Gecələr havanın temperaturu 3-8 dərəcə isti, gündüzlər 8-12 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir (norma 24-34 mm).

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında havanın orta aylıq temperaturu 0-3 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim norması daxilindədir. Gecələr havanın temperaturu 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, bəzi günlərdə 7 dərəcə şaxta, dağlıq ərazilərdə 9-11 dərəcə şaxta, gündüzlər 5-10 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 14-35 mm).


RH

Xankəndi, Şuşa, Goranboy, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında havanın orta aylıq temperaturunun 1-4 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Gecələr havanın temperaturu 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti, bəzi günlərdə 4-8 dərəcə şaxta, gündüzlər 3-8 dərəcə isti, bəzi günlərdə 3 dərəcə şaxtadan 1 dərəcəyədək isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 19-30 mm).

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında havanın orta aylıq temperaturunun 1-4 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Gecələr havanın temperaturu 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, bəzi günlərdə 8-13 dərəcə şaxta, gündüzlər 3-8 dərəcə isti, bəzi günlərdə 0-5 dərəcə şaxta olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 25-27 mm).

Qazax, Gəncə, Ağstafa, Şəmkir, Tovuz, Ceyrançöl, Tərtər, Füzuli rayonlarında havanın orta aylıq temperaturunun 2-5 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Gecələr havanın temperaturu 1-6 dərəcə isti, bəzi günlərdə 0-5 dərəcə şaxta, gündüzlər 7-12 dərəcə isti, bəzi günlərdə 1-4 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 13-32 mm).

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında havanın orta aylıq temperaturunun 2-4 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim norması daxilindədir. Gecələr havanın temperaturu 1-6 dərəcə isti, bəzi günlərdə 3-8 dərəcə şaxta, yüksək dağlıq ərazilərdə 12-17 dərəcə şaxta, gündüzlər 5-10 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı gözlənilir (norma 24-48 mm).

Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Mingəçevir, Beyləqan, Sabirabad, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında havanın orta aylıq temperaturunun 4-7 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Gecələr havanın temperaturu gecə 2-7 dərəcə isti, bəzi günlərdə 0-3 dərəcə şaxta, gündüzlər 8-13 dərəcə isti, bəzi günlərdə 3 dərəcə isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın, bəzi yerlərdə isə bir qədər çox olacağı (norma 19-32 mm) gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Biləsuvar, Astara, Cəlilabad rayonlarında havanın orta aylıq temperaturunun 4-7 dərəcə isti olacağı gözlənilir ki, bu da iqlim normasına yaxındır. Gecələr havanın temperaturu 2-7 dərəcə isti, bəzi günlərdə 2 dərəcəyədək şaxta, dağlarda 4-9 dərəcə şaxta, gündüzlər 7-12 dərəcə isti, bəzi günlərdə 4 dərəcəyədək isti olacağı gözlənilir. Aylıq yağıntının miqdarının iqlim normasına yaxın olacağı gözlənilir (norma 45-106 mm).

# Fransa borc burulğanında batır

**Fransa bazarları bu il siyasi təlatümlər fonunda qlobal analoqlarından kəskin şəkildə geridə qalıb. Hökumətin çökməsi riski avrozona iqtisadiyyatı üçün əlavə problemlər yaradacaq və bu səbəbdən avroya təzyiq göstərəcək.**

Fransa fond bazarı ölkədə davam edən siyasi qarışıqlıq fonunda ciddi itkilərlə üzləşib. CAC 40 indeksi 1,3 faiz azalaraq avqustun 6-dan bəri ən aşağı səviyyəyə çatıb.

Bazarda bədbinliyin səbəbi ölkədəki siyasi qeyri-sabitlik olub. Fransanın baş naziri Mişel Barnye büdcə planını həyata keçirmək üçün konstitusiya vasitələrindən istifadə edərsə, müxalifət partiyaları tərəfindən hakimiyyətdən uzaqlaşdırıla bilər. İstər solçu partiyalar, istərsə də ifrat sağçı "Milli Birlik" Partiyası etimadsızlıq votumu irəli sürmək və hökuməti devirmək hüququna malikdir.

Fransa fond bazarı təzyiq altındadır, Aİ-nin digər ölkələrindən fərqli olaraq bu ölkədə CAC 40 indeksi mənfi nəticələr verir. Bu günə qədər Paris indeksi 5,3 faiz azalıb. Hansı ki, Avropanın Stoxx 600 indeksi 5,6 faiz, Almaniyanın DAX indeksi isə 15 faiz artıb.



Fransa banklarının səhmləri ölkənin dövlət maliyyəsi ilə bağlı qeyri-müəyyənlik səbəbindən ən çox zərər çəkib. Çərşənbə günü, BNP Paribas SA 3 faiz azalaraq yeni altı aylıq minimuma enib və Fransanın ən böyük bankının səhmləri il ərzində 11 faizdən çox ucuzlaşıb. Həmin gün AXA sığorta şirkətinin qiymətli kağızları 4,3 faiz, Credit Agricole isə 1,3 faiz ucuzlaşıb.

İyun ayında Prezident Emmanuel Makron növbədənkənar parlament seçkiləri elan edib və nəticədə azlıq hökuməti formalaşıb. Uzun danışıqlardan sonra ona Mişel Barnye başçılıq etməyə başlayıb. Fransa siyasətinin mühafizəkar veteranı, xərclərin xeyli azaldılması və vergi artımları vasitəsilə dövlət borcunun səviyyəsini azaltmağa yönəlmiş büdcə planını açıqlayıb.

Bununla belə, qanun layihəsi solçu alyansların və Marin Le Penin populist ifrat sağçı "Milli Birlik" Partiyasının sərt müqaviməti ilə üzləşib.

Siyasi çıxılmaz vəziyyət vaxtilə Yunanıstanda baş vermiş maliyyə böhranının bu ölkədə mümkün təkrarlanması qorxusunu artırır, çünki Fransanın büdcə kəsirinin bu il ÜDM-in 6,1 faizinə çatacağı proqnozlaşdırılır. Bu isə Avropa İttifaqının müəyyən etdiyi limitdən iki dəfə çoxdur.

Avropa Komissiyasının proqnozlarına görə, Fransanın borcunun ÜDM-ə nisbəti 2024-cü ildə 112,4 faizə çatacaq ki, bu da Aİ-də ikinci ən yüksək göstəricidir. Hökumətin gələn il onu 5,1 faiz azaltmaq planı isə bir çoxları tərəfindən əlçatmaz hesab edilir.

Bir müddət əvvəl S&P Global Ratings beynəlxalq maliyyə təhlilləri agentliyi Fransanın kredit reytinqini AA dərəcəsindən AA - səviyyəsinə endirib və 2027-ci ilə qədər ÜDM-in 3 faizi səviyyəsində kəsir proqnozlaşdırıb.

Fransanın siyasi və maliyyə sabitliyi ilə bağlı narahatlıqlar, bazarın riskə münasibətinin əsas göstəricisi olan spredi - Almaniya və Fransa dövlət istiqrazlarının gəlirləri arasındakı fərqi 86 baza bəndinə çatdırıb ki, bu da 2012-ci ilin iyulundan bəri ən yüksək səviyyədir.

Fransadakı siyasi qeyri-müəyyənlik, eləcə də Almaniyanın avtomobil sənayesi böhranı və Trampın tarif təhdidi avrozonanın qaranlıq iqtisadi perspektivlərini daha da ağırlaşdırır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

Vaqif Həsənov və Ağdam rayon ictimaiyyəti Xəqani Nəzərova qardaşı

**MÖHLƏT NƏZƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bəxtiyar Sadıqov Xəqani Nəzərova qardaşı

**MÖHLƏT NƏZƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4217
Sifariş 2738

Qiyməti 60 qəpik